# Qəzada xəsarət almış vətəndaşlar Bakıya gətirilib



**“Azərbaycan Hava Yolları” aviaşirkətinə məxsus sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində xəsarət almış vətəndaşlar Prezident İlham Əliyevin tapşırığına əsasən Aktauya göndərilmiş Fövqəladə Hallar Nazirliyinin (FHN) xüsusi təyyarəsi ilə Bakıya gətirilib.**

FHN-in mətbuat xidmətindən verilən məlumata görə, yeddi zərərçəkmişi gətirən təyyarə dünən Heydər Əliyev Beynəlxalq Aeroportunda enib.

Qəzada xəsarət almış vətəndaşları təyyarədə xüsusi həkim briqadası müşayiət edib.

**XQ**




# Xalq qəzeti

Xalqın qəzeti!

№ 287 (30691) 27 dekabr 2024-cü il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


# Təyyarə qəzasında həlak olanların xatirəsi ölkəmizdə dərin hüznlə anıldı



Səhifə ⇨ 4

## İnsan faciəsindən qazanc güdənlər

**Baş vermiş qəzaya insanın ilkin reaksiyası, adətən, instinkt olur. Qorxu, həyəcan, təlaş və digər hallar refleksiv olaraq yaranır. Bir də empatiya var. Qəza keçirənə, faciəyə tuş gələnə yardım göstərmək, özünü onun yerində hiss edib köməyə tələsmək, xəsarət alanları qurtarmağa çalışmaq qeyri-iradi olaraq baş verir.**



Jurnalist, media təmsilçisi qəza anında necə davranmalıdır? Cavablar çox olsa da, media nəzəriyyəsi daha çox iki istiqamət üzərində dayanır. Birinci istiqamət budur ki, jurnalist emosiyaya qapılmamalı, soyuqqanlı davranmalı, gördüyü faciəni xəbərə çevirməli, sonra yardım göstərməyə çalışmalıdır. İkinci istiqamət isə bu tezisin tamamilə əksi üzərində qurulur: “Jurnalist də insandır, qəza anında öncə ehtiyac duyana yardım göstərməli, sonra xəbər hazırlamaq dalınca qaçmalıdır” – deyilir.

Bu qədər aydın yanaşmaların olmasına rəğmən, “jurnalist faciə anında necə davranmalıdır?” sualı indiyədək dilemma olaraq qalır. Üzərindən 30 il vaxt keçməsinə baxmayaraq, fotojurnalist Kevin Karter olayının hələ də mübahisə doğurmasının səbəbi də bu amillə bağlıdır.

O, 1993-cü il martın 25-də Sudanda çəkdiyi, sonradan “Leşyeyən və balaca qızcığaz” adlandırılan şəklə görə bu gün də qınanır.

*(ardı 6-cı səhifədə)*

## Yerlə Göy arasındakı risk qurşağı

Səhifə ⇨ 6

## Bayden Rusiyaya “vida zərbəsi” hazırlayır



Səhifə ⇨ 11

## Suriya dinc həyata qayıdır



Səhifə ⇨ 11

# ATƏT-in Minsk qrupu və Qarabağ avantürası

### *Zaxarova “bitdi” deyir, amma...*




**Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova Azərbaycan Prezidenti İlham Əliyevin ATƏT-in Minsk qrupunun buraxılması ilə bağlı təklifinə münasibət bildirib. Xanım Zaxarovanın hansı məqamlardan söz açdığına diqqət yetirəcəyik.**

Hələlik isə bildirək ki, Prezident İlham Əliyev dekabrın 18-də “Rossiya Seqodnya” Beynəlxalq İnformasiya Agentliyinin baş direktoru Dmitri Kiselyova müsahibəsində Azərbaycan–Ermənistan sülhündən söz açarkən, ATƏT-in artıq canını tapşırmış Minsk qrupunun ləğv olunması şərtini irəli sürmüşdü: “Bizim ikinci şərtimiz ATƏT-in Minsk qrupunun ləğvidir. Bu məsələ konsensusla həll edildiyinə görə, formal olaraq bunu Ermənistanın razılığı olmadan etmək mümkün deyil. Hərçənd ATƏT-in Minsk qrupu artıq çoxdandır fəaliyyətsizdir, amma formal olaraq mövcuddur və bizim məsələmiz ondan ibarətdir ki, əgər Ermənistan Qarabağı Azərbaycanın bir hissəsi olaraq tanıyıbsa, Minsk qrupu isə Qarabağ məsələsinin həlli üçün yaradılıbsa, onda o nəyə lazımdır? Yəni, Ermənistanın onun ləğv edilməsini, ATƏT-in Minsk qrupunun ləğv edilməsi üçün bizimlə birlikdə ATƏT-ə müraciət etməyi istəməməsi onu göstərir ki, revanşistlərin planları kifayət qədər ciddidir”.

*(ardı 5-ci səhifədə)*

# Azərbaycan cəlbedici investisiya məkanıdır



**Son illər bütün dünyada sabitlik məkanı kimi tanınan Azərbaycanda yaradılmış əlverişli investisiya mühiti əksər dövlətlər və beynəlxalq qurumlar tərəfindən bəyənilir, təqdir edilir. Dünyanın bir sıra nüfuzlu maliyyə qurumlarının 2024-cü il üzrə dərc etdiyi hesabatlarda Azərbaycanı cəlbedici investisiya ölkəsi kimi təqdim etməsi də bunu təsdiqləyir.**

*(ardı 8-ci səhifədə)*

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli cənab Prezident!**

Azərbaycana məxsus sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində insanların faciəli surətdə həlak olmaları xəbərindən sarsıldım.

Çin Hökuməti və xalqı adından həlak olanlara görə kədərimi ifadə edir, onların ailələrinə dərin hüznlə başsağlığı verir və yaralananların tezliklə sağalmalarını arzulayıram.

***Si CİNPİN,***
***Çin Xalq Respublikasının Sədri***

*

**Hörmətli cənab Prezident!**

Azərbaycana məxsus sərnişin təyyarəsinin Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğraması, çoxlu sayda insanın həlak olması və yaralanması barədə xəbəri dərin kədər hissi ilə qarşıladım.

Bu fəlakət zamanı həyatını itirənlərin ailələrinə dərin hüznlə başsağlığı verir, yaralılara şəfa diləyirəm. Ölkəmizin bütün vətəndaşları Azərbaycan xalqının hüzn və kədərinə şərikdirlər.

Cənab Prezident, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Andjey DUDA,***
***Polşa Respublikasının Prezidenti***

*

**Möhtərəm cənab Prezident!**

"Azərbaycan Hava Yolları"na məxsus sərnişin təyyarəsinin Qazaxıstan Respublikasında qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı və yaralanması xəbərini dərin hüzn və kədərlə qarşıladıq.

Bu ağır itki ilə əlaqədar Sizə dərin hüznlə başsağlığı verir, yaralıların tezliklə sağalmalarını arzu edirik.

**Hörmətlə,**

***Şeyx Məhəmməd bin Zayed Al NƏHYAN,***
***Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti***

*

**Cənab Prezident!**

"Azərbaycan Hava Yolları" aviaşirkətinə məxsus təyyarənin Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğraması nəticəsində çoxsaylı insanın faciəli ölümü və yaralanması ilə bağlı xəbəri dərin kədər hissi ilə qarşıladım.

Slovakiya Respublikasının vətəndaşları adından və şəxsən öz adımdan Sizə, Azərbaycan vətəndaşlarına, eləcə də həlak olanların ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verir, yaralananlara tezliklə sağalmalarını arzulayıram.

**Hörmətlə,**

***Peter PELLEQRİNİ,***
***Slovakiya Respublikasının Prezidenti***

*

**Zati-aliləri!**

Qazaxıstanın Aktau şəhəri yaxınlığında çoxlu insan tələfatına və yaralanmasına səbəb olan faciəvi təyyarə qəzası ilə bağlı xəbər məni dərindən kədərləndirdi və sarsıtdı.

Zati-alinizə, Azərbaycan Hökumətinə və xalqına, o cümlədən bu hadisə nəticəsində həlak olanların ailələrinə dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm. Belə bir kədərli gündə dualarımızın xüsusilə də faciənin nəticələri ilə üzləşmiş sağ qalan insanlarla olduğunu bildirirəm.

**Hörmətlə,**

***Məhəmməd MUİZZU,***
***Maldiv Respublikasının Prezidenti***

*

**Zati-aliləri!**

"Azərbaycan Hava Yolları"na məxsus sərnişin təyyarəsinin dekabrın 25-də çoxsaylı insanın faciəli şəkildə həlak olması ilə nəticələnən qəzaya uğraması xəbərini dərin kədər hissi ilə qarşıladım.

Bu matəm günündə Zati-alinizə və Azərbaycan xalqına Qvineya-Bisau xalqının adından və öz adımdan dərin hüznlə başsağlığı verirəm.

Zati-aliləri, əziz Qardaşım, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Umaru Sisoku EMBALO,***
***Qvineya-Bisau Respublikasının Prezidenti***

*

**Zati-aliləri, əziz Qardaşım!**

Dekabrın 25-də "Azərbaycan Hava Yolları"na məxsus sərnişin təyyarəsinin Qazaxıstanın Aktau şəhəri yaxınlığında faciəvi surətdə qəzaya uğraması ilə əlaqədar Pakistan xalqı və Hökuməti adından, şəxsən öz adımdan Sizə, azərbaycanlı qardaş və bacılarımıza dərin hüznlə başsağlığı verirəm.

Pakistan xalqı insanların həyatını itirməsi ilə nəticələnən bu hüznlü hadisə barədə xəbəri dərin kədər hissi ilə qarşıladı. Biz bu kədərli vaxtda Zati-aliniz və Azərbaycan xalqı ilə həmrəy olduğumuzu bildiririk.

Düşüncələrimiz və dualarımız həlak olanların ailələrinin yanındadır, yaralananların tezliklə sağalmalarını diləyirik. İnanıram ki, cəsur Azərbaycan xalqının dözümlülüyü və birliyi bu çətin dövrü dəf etməyə kömək edəcəkdir.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Məhəmməd Şahbaz ŞƏRİF,***
***Pakistan İslam Respublikasının Baş naziri***

*

**Möhtərəm cənab Prezident!**

"Azərbaycan Hava Yolları"na məxsus sərnişin təyyarəsinin Qazaxıstan ərazisində qəzaya uğraması nəticəsində çoxsaylı insanın həlak olması və yaralanması xəbərini dərin kədər hissi ilə qarşıladıq.

Bu ağır itki ilə əlaqədar Sizə dərin hüznlə başsağlığı verir, yaralananlara tezliklə şəfa tapmalarını arzulayırıq.

**Hörmətlə,**

***Şeyx Məhəmməd bin Rəşid Al MƏKTUM,***
***Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti,***
***Baş naziri və Dubayın Əmiri***

## Təyyarə qəzası ilə bağlı telefon zəngləri

**Dekabrın 26-da Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Şavkat Mirziyoyev baş vermiş təyyarə qəzası ilə bağlı Azərbaycan Prezidentinə və həlak olanların yaxınlarına başsağlığı verib, yaralanan şəxslərin tezliklə sağalmalarını arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və başsağlığına görə minnətdarlıq edib.

**Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif dekabrın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Məhəmməd Şahbaz Şərif təyyarə qəzası nəticəsində insanların həlak olması ilə bağlı Prezident İlham Əliyevə və həyatını itirən şəxslərin yaxınlarına başsağlığı verib, xəsarət alanlara şəfa arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və başsağlığına görə təşəkkür edib.

**İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian dekabrın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

İran Prezidenti təyyarə qəzası nəticəsində insanların həlak olması ilə bağlı Azərbaycan Prezidentinə və həlak olanların ailə üzvlərinə başsağlığını çatdırıb, yaralananların tezliklə şəfa tapmasını diləyib.

Prezident İlham Əliyev göstərilən diqqətə və başsağlığına görə minnətdarlığını bildirib.

**Prezidentin Mətbuat Xidməti**

**Möhtərəm cənab Prezident!**

"Azərbaycan Hava Yolları"na məxsus sərnişin təyyarəsinin Qazaxıstanda qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı və yaralanması xəbəri bizi dərindən kədərləndirdi.

Bu faciəvi hadisə ilə əlaqədar Sizə dərin hüznlə başsağlığı verir, yaralananların tezliklə sağalmalarını diləyirik.

**Hörmətlə,**

***Şeyx Mansur bin Zayed Al NƏHYAN,***
***Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti,***
***Baş nazirin müavini, Prezident işləri naziri***

*

**Hörmətli cənab Prezident!**

Qazaxıstanın Aktau şəhəri yaxınlığında çoxlu sayda insanın həlak olduğu təyyarə qəzası ilə bağlı xəbər məni dərindən kədərləndirdi.

Bosniya və Herseqovina vətəndaşları adından və şəxsən öz adımdan Sizə, həlak olanların ailələrinə, Azərbaycan xalqına dərin hüznlə başsağlığı verir, xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

**Hörmətlə,**

***Denis BEÇİROVİÇ,***
***Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü***

*

**Zati-aliləri!**

Azərbaycan Respublikasının möhtərəm Prezidenti, əziz dost.

İcazə verin, "Azərbaycan Hava Yolları"na məxsus təyyarənin Qazaxıstan ərazisində qəzaya uğraması ilə əlaqədar dərin kədərimi və hüznümü ifadə edim.

İnsan ölümü hər zaman çox ağır itkidir. Əzizlərini itirən ailələrə dərin hüznlə başsağlığı veririk, xəsarət alanların tezliklə sağalmalarını diləyirik.

Möhtərəm Prezident, xalqımıza dərin rəğbətimi bir daha ifadə edərək, bu çətin anlarda Sizə səbir arzulayıram.

**Hörmətlə,**

***Milorad DODİK,***
***Bosniya və Herseqovinanın Serbska Respublikasının Prezidenti***

*

**Hörmətli cənab Prezident!**

Qazaxıstanın Aktau şəhəri yaxınlığında Azərbaycanın sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində insan tələfatı xəbərini təəssüf hissi ilə öyrəndim.

Bu faciə ilə əlaqədar kədərinizi bölüşərək, qardaş Azərbaycan xalqına və həlak olanların ailələrinə dərin hüznlə başsağlığı verir, sağ qalan insanlara görə Uca Allaha şükür edir, yaralıların tezliklə sağalmalarını diləyirəm.

Allah Sizi və xalqınızı qorusun.

**Hörmətlə,**

***Mahmud ABBAS,***
***Fələstin Dövlətinin Prezidenti***

*

**Zati-aliləri!**

"Azərbaycan Hava Yolları"na məxsus sərnişin təyyarəsinin Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğraması ilə bağlı xəbər məni və Banqladeş xalqını çox sarsıtdı.

Təyyarə qəzası nəticəsində insan tələfatı bizi dərindən kədərləndirir. Mən həlak olanların ruhuna dualar edir və ailələrinə dərin hüznlə başsağlığı verirəm. Həmçinin xəsarət alanların tezliklə sağalmalarını arzu edirəm.

Bu kədərli vaxtda biz Azərbaycan Respublikası ilə həmrəyik və dualarımız xalqınızladır.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Məhəmməd YUNUS,***
***Banqladeş Xalq Respublikası Müvəqqəti Hökumətinin Baş müşaviri***

*

**Hörmətli İlham Heydər oğlu!**

"AZAL" aviaşirkətinin Bakıdan Qroznıya uçan sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində həlak olanların ailələrinə və yaxınlarına bütün dağıstanlılar adından və şəxsən öz adımdan dərin hüznlə başsağlığı verirəm.

Dərdinizi səmimi-qəlbdən bölüşür, Sizinlə birlikdə kədərlənirik.

Xəsarət alanların tezliklə şəfa tapmasını arzulayıram.

**Hörmətlə,**

***Sergey MƏLİKOV,***
***Rusiya Federasiyası Dağıstan Respublikasının rəhbəri***

*

**Hörmətli İlham Heydər oğlu!**

Dekabrın 25-də "Azərbaycan Hava Yollarına" məxsus sərnişin təyyarəsinin qəzaya uğraması xəbəri Tatarıstan Respublikasında dərin kədər hissi ilə qarşılanıb.

Yaxınlarını itirən ailələrə dərin hüznlə başsağlığı verir, xəsarət alanların tezliklə sağalmalarını diləyirəm.

Biz bu itkilərin acısını ürəkdən bölüşür və qardaş Azərbaycan xalqı ilə birlikdə kədərlənirik.

**Hörmətlə,**

***Rüstəm MİNNİXANOV,***
***Rusiya Federasiyası Tatarıstan Respublikasının Rəisi,***
***"Rusiya - İslam Dünyası" Strateji Baxış Qrupunun sədri***

**Hörmətli İlham Heydər oğlu!**

Bakıdan Qroznıya uçan "Azərbaycan Hava Yolları"na məxsus sərnişin təyyarəsinin Aktau şəhəri yaxınlığında qəzaya uğraması xəbəri məni dərindən kədərləndirdi.

Qəza nəticəsində faciəli şəkildə həlak olanlarla əlaqədar Həştərxan vilayətinin bütün sakinləri adından və şəxsən öz adımdan Sizə başsağlığı verir, yaralıların tezliklə sağalmasını arzulayıram.

Sizin kədərinizi bölüşürük.

**Dərin hüznlə,**

***İqor BABUŞKİN,***
***Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru***

*

**Zati-aliləri!**

"Azərbaycan Hava Yolları"na məxsus sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində insanların həlak olması ilə bağlı dəhşətli xəbər bizi dərindən kədərləndirdi.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvləri adından Zati-alinizə, həlak olanların ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verir, kədərinizi bölüşür, dəstəyimizi bildiririk, yaralıların isə tezliklə sağalmalarını arzulayırıq.

Zati-aliləri, ən yüksək ehtiramımızı qəbul etməyinizi xahiş edirik.

**Hörmətlə,**

***Vayra Vike-FREYBERQA,***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri,***
***1999-2007-ci illərdə Latviya Respublikasının Prezidenti***

***İsmail SERAGELDİN,***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri,***
***1992-2000-ci illərdə Dünya Bankının vitse-prezidenti***

***Mariya Fernanda ESPİNOZA,***
***BMT Baş Assambleyasının 73-cü sessiyasının sədri,***
***2017-2018-ci illərdə Ekvadorun xarici işlər naziri***

***Rosen PLEVNELİYEV,***
***2012-2017-ci illərdə Bolqarıstanın Prezidenti***

***İvo YOSİPOVİÇ,***
***2010-2015-ci illərdə Xorvatiyanın Prezidenti***

***Filip VUYANOVİÇ,***
***2003-2018-ci illərdə Monteneqronun Prezidenti***

***Zlatko LAQUMCİYA,***
***2001-2002-ci illərdə Bosniya və Herseqovinanın Baş naziri***

***Eka TKEŞELAŞVİLİ,***
***2010-2012-ci illərdə Gürcüstanın Baş nazirinin müavini***

***Volkan BOZKIR,***
***BMT Baş Assambleyasının 75-ci sessiyasının sədri***

***Petar STOYANOV,***
***1997-2002-ci illərdə Bolqarıstanın Prezidenti***

***Vuk YEREMİÇ,***
***BMT Baş Assambleyasının 67-ci sessiyasının sədri***

*

**Zati-aliləri!**

"Azərbaycan Hava Yolları"nın təyyarəsinin Qazaxıstan ərazisində qəzaya uğraması nəticəsində sərnişinlərin və ekipaj üzvlərinin həlak olması xəbərindən sarsıldım.

Sizə və həlak olanların ailə üzvlərinə dərin hüznlə başsağlığı verir, bütün xəsarət alanların tezliklə sağalmalarını arzulayıram.

**Dərin hörmətlə,**

***Can MİN,***
***Şanxay Əməkdaşlıq Təşkilatının Baş katibi***

*

**Zati-aliləri!**

"Azərbaycan Hava Yolları" aviaşirkətinin Bakı-Qroznı reysini həyata keçirən təyyarəsinin Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğraması ilə bağlı xəbər məni dərindən kədərləndirdi. Çoxlu sayda insanın həyatına son qoymuş bu hadisə Azərbaycan üçün böyük itkidir.

Zati-alinizə və Azərbaycan xalqına, həlak olanların ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verirəm, yaralananların tezliklə sağalmalarını arzu edirəm.

Bu faciə Türk dünyasında hər kəsi dərindən təsirləndirdi, kədərli anlarda birliyin və dəstəyin önəmini xatırlatdı. Bu hüznlü hadisə ilə bağlı Azərbaycan xalqı ilə həmrəyik və kədərinizi bölüşürük.

**Dərin hörmət və ehtiramla,**

**Kubanıçbek ÖMÜRALIYEV,**
**Türk Dövlətləri Təşkilatının Baş katibi**

# Azərbaycan və Qazaxıstan baş nazirlərinin telefon danışığı

**Dekabrın 26-da Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov ilə Qazaxıstan Respublikasının Baş naziri Oljas Bektenov arasında növbəti telefon danışığı baş tutub.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, hökumət başçıları ötən gün baş vermiş təyyarə qəzası ilə əlaqədar bir-birilərinə və həlak olan şəxslərin ailə üzvlərinə və yaxınlarına başsağlıqlarını ifadə edib, xəsarət alanların tezliklə şəfa tapmasını diləyiblər.

Ə.Əsədov qəza baş verdikdən dərhal sonra axtarış-xilasetmə əməliyyatının həyata keçirilməsində yüksək operativlik göstərdiyinə və hadisə ilə bağlı bütün məsələlərdə yaxından dəstək verdiyinə görə Qazaxıstan tərəfinə təşəkkür edib.

O.Bektenov bu gün Azərbaycanın Astanadakı səfirliyini ziyarət etdiyini, qəza nəticəsində çoxsaylı insan ölümü ilə əlaqədar dərin hüznlə başsağlığı verdiyini, səfirlikdə açılan xatirə kitabına qeyd qoyduğunu bildirib.

Telefon danışığı zamanı qəza nəticəsində xəsarət alanlara və yaralananlara Azərbaycan və Qazaxıstanın aidiyyəti qurumları tərəfindən yüksək koordinasiya şəraitində təxirəsalınmaz yardım göstərilməsi, sağ qalan Azərbaycan vətəndaşlarının, habelə həlak olan şəxslərin cəsədlərinin ölkəmizə gətirilməsi, həmçinin hadisə ilə bağlı bir sıra digər çevik cavab tədbirləri ətrafında fikir mübadiləsi aparıldı.

Eyni zamanda, hadisənin başvermə səbəblərinin araşdırılması ilə bağlı cinayət işi üzrə birgə aparılan istintaqın gedişi müzakirə olundu.

# Özbəkistan Ali Məclisi Senatı sədrinin Milli Məclis sədrinə başsağlığı

**Özbəkistan Respublikası Ali Məclisi Senatının sədri Tənzilə Narbayeva təyyarə qəzası ilə əlaqədar Milli Məclisin sədri Sahibə Qafarovaya başsağlığı məktubu ünvanlayıb.**

Bu barədə Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

Məktubda deyilir: “Azərbaycan Hava Yollarına məxsus sərnişin təyyarəsinin Aktau yaxınlığında faciəvi şəkildə qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı barədə kədərli xəbəri dərin hüznlə aldıq.

Özbəkistan Respublikası Ali Məclisinin Senatı adından həlak olanların ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verir, xəsarət alanların hamısının tezliklə sağalmasını arzulayıram”.

# XİN: telefon danışıqları

**Dekabrın 26-da Özbəkistanın xarici işlər naziri Baxtiyor Saidov Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramova zəng vurub.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, telefon danışığı zamanı Baxtiyor Saidov ötən gün ölkəmizin Bakı-Qroznı reysini yerinə yetirən təyyarəsinin Aktau şəhəri yaxınlığında uğradığı faciəvi qəza ilə əlaqədar Özbəkistan dövləti və xalqı adından başsağlığı verib. O, vəfat edən şəxslərə Allahdan rəhmət, doğmalarına səbir, yaralılara şəfa arzulayıb.

Özbəkistanın qardaş Azərbaycanla bu çətin günlərdə həmrəy olduğu, kədərini bölüşdüyü diqqətə çatdırılıb, bir daha belə bir faciənin baş verməməsinə ümidvarlıq ifadə edilib.

Ceyhun Bayramov başsağlığına, ölkəmiz və xalqımız üçün ağır bir gündə göstərilən dəstəyə görə qardaş Özbəkistan Respublikasına təşəkkür edib.

Qəzanın baş verdiyi ilk dəqiqələrdən etibarən Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, təyyarə qəzasının səbəblərinin araşdırılması üçün Dövlət Komissiyasının yaradıldığı, ölkəmizin müvafiq qurumlarının rəhbər şəxslərindən ibarət nümayəndə heyətinin qəza yerinə ezam olunduğu bildirilib, qəzanın fəsadlarının aradan qaldırılması, xəsarət alanlara yardım göstərilməsi üçün görülən tədbirlər barədə məlumat verilib.



*

**Dekabrın 25-də Qazaxıstanın Baş nazirinin müavini, xarici işlər naziri Murat Nurtleu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramova zəng edib.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən verilən məlumata görə, nazir Murat Nurtleu “Azərbaycan Hava Yolları”na məxsus təyyarənin Qazaxıstanın Aktau şəhərində qəzaya uğraması xəbərini böyük kədər hissi ilə qarşıladıqlarını qeyd edib.

Qazaxıstan naziri qəza nəticəsində həlak olanların ailələrinə, dost və qardaş Azərbaycan xalqına, dərin hüznlə başsağlığı verib. Qəzanın ilk anlarından Qazaxıstan fövqəladə hallar qurumlarının tam səfərbər olduğu və qəzanın nəticələrinin aradan qaldırılmasında iştirak etdikləri diqqətə çatdırılıb. Qəzanın səbəblərinin araşdırılması istiqamətində istintaq qrupu yaradıldığı və müvafiq tədbirlər görüldüyü bildirilib.

Nazir Ceyhun Bayramov qazaxıstanlı həmkarına başsağlığı diləklərinə görə təşəkkür edib, öz növbəsində həlak olan Qazaxıstan vətəndaşlarının ailələrinə, dost və qardaş Qazaxıstana başsağlığı verib. Göstərilən dəstəyə görə minnətdarlıq bildirilib.

*

**Dekabrın 26-da Gürcüstanın xarici işlər naziri Maka Botçorişvili Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramova zəng vurub.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən verilən məlumata görə, nazir M.Botçorişvili dekabrın 25-də “Azərbaycan Hava Yolları” aviaşirkətinə məxsus Bakı-Qroznı reysini yerinə yetirən sərnişin təyyarəsinin Aktauda qəzaya uğraması nəticəsində həlak olanların ailə üzvlərinə başsağlığı diləklərini çatdırıb, dost Azərbaycan xalqına səbir diləyib. Bu faciəvi gündə Gürcüstanın hər zaman Azərbaycanın yanında olduğu vurğulanıb.

Nazir Ceyhun Bayramov başsağlığına, ölkəmiz və xalqımız üçün ağır bir gündə göstərilən dəstəyə görə dost Gürcüstan tərəfinə təşəkkür edib.

*XQ*

# Həlak olanların ailəsinə 40 min manat kompensasiya ödəniləcək

**“Azərbaycan Hava Yolları” (AZAL) QSC-nin Müşahidə Şurasının qərarına əsasən, dekabrın 25-də Qazaxıstan Respublikası ərazisində qəzaya uğramış “Azərbaycan Hava Yolları” sərnişin aviaşirkətinin J2-8243 nömrəli Bakı-Qroznı reysini yerinə yetirən “Embraer 190” təyyarəsində olan və xəsarət alanların hər birinə 20 min manat, vəfat edənlərin hər birinin ailəsinə isə 40 min manat kompensasiya ödənilməsi müəyyən edilib.**

Bu barədə “Azərbaycan Hava Yolları” QSC-dən bildirilib. Bununla yanaşı, bütün sərnişinlər Azərbaycan Respublikası qanunvericiliyinə və qabaqcıl beynəlxalq təcrübəyə uyğun olaraq tətbiq edilən müvafiq sığorta ödənişi alacaqlar.

*XQ*

# Qəzaya uğrayan təyyarənin 2-ci “qara qutu”su tapılıb

**“Azərbaycan Hava Yolları” aviaşirkətinin təyyarəsinin Aktau yaxınlığında qəzaya uğradığı yerdə daha bir “qara qutu” tapılıb.**

Bu barədə Qazaxıstanın Mangistau vilayətinin nəqliyyat prokuroru Abılaybek Ordabayev Aktauda keçirdiyi brifinqdə məlumat verib: “İki uçuş məlumatları qeydiyyat cihazı tapılıb və onlar əlavə ekspertiza üçün Hava Məkanında Qəzaların Araşdırılması İdarəsinə göndəriləcək”.

*XQ*

# Matəm günündə sükut dəqiqəsi



**“Azərbaycan Hava Yolları”na məxsus təyyarənin qəzaya uğraması nəticəsində həyatını itirən insanların xatirəsi dekabrın 26-da Bakı vaxtı ilə saat 12:00-da Azərbaycanın bütün ərazisində 1 dəqiqəlik sükutla yad olunub. Həmin anda ölkənin bütün yollarında nəqliyyat vasitələrinin hərəkəti dayandırılıb.**

*XQ*

# 4 nəfərin nəşi Bakıya gətirilib

**“Azərbaycan Hava Yolları” aviaşirkətinə məxsus sərnişin təyyarəsinin qəzaya uğramasından dərhal sonra Prezident İlham Əliyevin tapşırığı ilə peşəkar psixoloqlar, həkimlər xilasedicilər, həmçinin Səhiyyə Nazirliyinin peşəkar həkimlərindən ibarət qrup Fövqəladə Hallar Nazirliyinə aid zəruri vasitələrlə təchiz olunmuş təyyarə ilə Aktau şəhərinə göndərilib.**



Bunu jurnalistlərə açıqlamasında Fövqəladə hallar nazirinin müavini general-mayor Adil Abdullayev deyib.

Xilas olunmuş şəxslərin müalicəsinin Azərbaycanda davam etdirilməsi məqsədilə xəsarət almış şəxslərdən 7 nəfər FHN-in xüsusi təyyarəsi ilə həkimlərin və psixoloqların müşayiəti altında Bakı şəhərinə gətirilib. Vəziyyəti daha qənaətbəxş olan digər 7 nəfər isə “Azərbaycan Hava Yolları" aviaşirkətinin təyyarəsi ilə bir qədər sonra Bakıya gətiriləcək. Bakıya gətirilən şəxslərin müalicəsi paytaxtın tibb müəssisələrində davam etdiriləcək.

Onun sözlərinə görə, dörd nəfərin nəşi bu gün "Azərbaycan Hava Yolları" aviaşirkətinə məxsus təyyarə ilə gətiriləcək. Digərlərinin də gətirilməsi üçün dövlətin aidiyyəti strukturları tərəfindən müvafiq iş aparılır.

*XQ*

# Kədərimiz və inamımız

**İlimizin bitəcəyində “Azərbaycan Hava Yolları” şirkətinə məxsus, Bakı-Qroznı reysini yerinə yetirən J2-8243 nömrəli “Embraer 190” təyyarəsinin Aktau şəhərinin 3 kilometrliyində qəzaya uğraması son dərəcə sarsıdıcı xəbər oldu.**



**Rafael HÜSEYNOV,**
**Milli Məclisin sədr müavini, akademik**

Həyatını itirənlərə Allahdan rəhmət, onların doğmalarına, yaxınlarına səbir və dözüm diləyirik. Əslində, bu qüssəli gündə o dərd hamımızındır. İnsan olan belə faciəyə necə biganə qala bilər?! Qəzadan sağ qurtaranlara Allahdan şəfa umuruq və dualarımız onlarladır. Hər insan Allahın müstəsna və təkrarı olmayan tək əsəridir.

Labüd ölümdən salamat qurtararaq yeni ömür qazanmış sərnişinlərin varlığı təyyarə pilotlarının sözə sığmayan qəhrəmanlığı sayəsində mümkün olmuşdur.

Bircə həyatı belə xilas etmək Pərvərdigar dərgahında Cənnəti qazanmaqdır.

Can şirindir, ölümün hənirini lap yaxından hiss edəndə insan ağlından, iradəsindən daha çox hisslərinə tabe olur.

Ölüm təhlükəsinin nə qədər yaxın olduğunu qəza enişi etməyə çalışan təyyarədə hamıdan daha aydın duyan, əlbəttə ki, hava gəmisini idarə edənlər idi.

Ölümlə göz-gözə qaldıqları dəqiqələrdə sonadək ləyaqətlə, mərdanəliklə, ilahi alicənablıqla başqalarını düşünüblər, daxili müvazinətlərini itirməyiblər, Allah və İnsanlıq qarşısında borclarını şərəflə yerinə yetiriblər.

Onlar haqqında qəhərlənmədən və iftixar etmədən düşünmək olmur.

Həlak olan ekipaj üzvlərinin pak ruhu qarşısında baş əyirəm!

Onlar, sadəcə, həlak olmayıblar, onlar şəhidlərdir, onların hər biri daim məhəbbət və ehtiramla anılmalı Vətən yavrularıdır!

Bu anlarda onların hər birini öz doğmam sayaraq dərdlənirəm.

Bu qəmli çağımızda sosial şəbəkədə yazılar paylaşarkən arzu olunmayan, qəlb incidən sözləri yazmağı özlərinə rəva bilənlərə, heç birimizdən bu hadisə ilə bağlı heç nəyi çox bilmədikləri halda umulmaz hökmlər verərək matəmimizə haram qatacaq qədər xətaya uğrayanlara İlahi dərrakə verib rəhm etsin!

Millətimizin başı sağ olsun!

Bu ağır dərdimizin içindəki böyük təsəlli, sabaha ən dərin inam oyadan və daim Vətən, millət ruhuna işıq tutacaq Sarsılmaz Qüvvət qəzaya düçar olan təyyarədəki EKİPAJIN mərdliyidir.

Məhz belə övladlarının həmişə var olmasına görə Azərbaycanın əsir torpaqları onillərin həsrətindən sonra azadlığa qovuşdu, məhz belə yenilməz balaların hünəri sayəsində onlarla insan bu təyyarə fəlakətində ölümün caynağından qurtularaq həyata təzədən gəldi.

Nə qədər belə insanlarımız var, bu yurda və millətə zaval yoxdur, nə qədər bu ruh bizimlədir heç bir qara yel bizi düz və haqq yolumuzdan döndərə bilməyəcək, zəfərlər həmişə bizimlə olacaq!

**Azərbaycan yaşasın!**

# Siyasi partiyaların təyyarə qəzası ilə əlaqədar bəyanatı

**Azərbaycanda fəaliyyət göstərən siyasi partiyalar AZAL-ın Bakı–Qroznı reysini yerinə yetirən “Embraer 190” tipli sərnişin təyyarəsinin Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğraması ilə əlaqədar bəyanat yayıblar. Bəyanatda deyilir.**

“2024-cü il dekabrın 25-də “Azərbaycan Hava Yolları”nın Bakı-Qroznı reysi üzrə sərnişin daşıyan təyyarəsinin qəzaya uğraması nəticəsində insanların faciəvi şəkildə dünyalarını dəyişməsi və xəsarətlər alması bütün xalqımızı dərindən kədərləndirdi.

Baş vermiş hadisə ilə bağlı Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Federasiyasına səfərini təxirə salmış, təcili ölkəyə qayıdaraq qəza nəticələrinin aradan qaldırılması və səbəblərinin araşdırılması üçün operativ müşavirə keçirmişdir. Dövlətimizin başçısının imzaladığı müvafiq sərəncamlarla baş vermiş qəzanın səbəblərinin araşdırılması, qəzada həlak olmuş və xəsarət almış şəxslərin ailələrinə yardım göstərilməsi, həmçinin qəzadan zərər görmüş xarici ölkə vətəndaşları ilə bağlı məsələlərin həlli məqsədilə dövlət komissiyası yaradılmış, ölkədə bir günlük matəm elan olunmuşdur.

İnanırıq ki, müvafiq dövlət qurumları qəzanın səbəblərini qısa müddətdə araşdıraraq ictimaiyyətə ətraflı məlumat verəcək, qəzadan zərər görənlərə lazımi dövlət qayğısı göstəriləcək.

Bəyanatı imzalayan siyasi partiyalar adından təyyarə qəzasında həlak olanlara Allahdan rəhmət diləyir, ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verir, xəsarət alanların tezliklə şəfa tapmasını arzulayırıq.

Belə ağır günlərdə xalqımızın və dövlətimizin yanında olduğumuzu bəyan edir, bəzilərinin bu bədbəxt hadisəni siyasi spekulyasiya predmetinə çevirmək cəhdini qınayır, vətəndaşlarımızı və bütün dünya azərbaycanlılarını həmrəyliyə çağırırıq.

Uca Allah xalqımızı bəlalardan qorusun!

| | |
|---|---|
| 1. Yeni Azərbaycan Partiyası | |
| 2. Vətəndaş Həmrəyliyi Partiyası | Sabir Rüstəmxanlı |
| 3. “Ana Vətən” Partiyası | Fəzail Ağamalı |
| 4. Ədalət, Hüquq, Demokratiya Partiyası | Qüdrət Həsənquliyev |
| 5. Böyük Quruluş Partiyası | Fazil Mustafa |
| 6. Demokratik İslahatlar Partiyası | Asim Mollazadə |
| 7. Azərbaycan Demokratik Maarifçilik Partiyası | Elşən Musayev |
| 8. Milli Cəbhə Partiyası | Razi Nurullayev |
| 9. “Azərbaycan Milli İstiqlal” Partiyası | Arzuxan Əlizadə |
| 10. “Böyük Azərbaycan” Partiyası | Elşad Musayev |
| 11. Haqq Ədalət Partiyası | Əli İnsanov |
| 12. Vəhdət Partiyası | Tahir Kərimli |
| 13. Azərbaycan Ümid Partiyası | İqbal Ağazadə |
| 14. Azərbaycan Demokrat Partiyası | Sərdar Cəlaloğlu |
| 15. Azərbaycan Xalq Partiyası | Pənah Hüseyn |
| 16. Milli Dirçəliş Hərəkatı Partiyası | Fərəc Quliyev |
| 17. Ədalət Partiyası | İlyas İsmayılov |
| 18. Klassik Xalq Cəbhəsi Partiyası | Mirmahmud Fəttayev |
| 19. AĞ Partiyası | Tural Abbaslı |
| 20. REAL Partiyası | Natiq Cəfərli |
| 21. Azad Vətən Partiyası | Akif Nağı |
| 22. Müasir Müsavat Partiyası | Hafiz Hacıyev |
| 23. Yeni Zaman Partiyası | Musa Ağayev |
| 24. Gələcək Azərbaycan Partiyası | Ağasif Şakiroğlu”. |



# Təyyarə qəzasında həlak olanların xatirəsi ölkəmizdə dərin hüznlə anıldı

**Azərbaycan Prezidenti İlham Əliyev "Azərbaycan Hava Yolları" QSC-nin sərnişin təyyarəsinin dekabrın 25-də Qaxaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğraması xəbərini Sankt-Peterburqa səfərə gedərkən havada eşidib dərhal geri döndü. Dövlət başçısı operativ müşavirə keçirərək faciənin nəticələrini aradan qaldırmaqla bağlı məsələləri nəzarətinə götürdü.**

Prezident təxirəsalınmaz-zəruri tədbirləri həyata keçirmək üçün müvafiq dövlət komissiyasının yaradılması, qəzada həlak olanların xatirəsinin yad edilməsi üçün dekabrın 26-da ölkədə matəm elan olunması ilə bağlı sərəncamlar da imzaladı. Matəm günü ilə əlaqədar dünən respublikamızın bütün ərazisində şənliklər, toplantılar, idman yarışları təxirə salındı.




Dünən keçirilən hüzn mərasimlərində həlak olanların ruhuna dualar oxunub, Allahdan rəhmətlər dilənib. Həlak olanların doğmaları və yaxınları ilə görüşən rəsmi şəxslər və ictimaiyyət nümayəndələri onlara başsağlığı və təsəlli veriblər.

Azərbaycanın dövlət və hökumət başçılarının ünvanına da dünya ölkələrinin rəhbərlərindən çoxsaylı başsağığı teleqramları daxil olub.

Xaricdən aldığımız xəbərlərdə dost, qardaş və tərəfdaş ölkələrdə də qəza qurbanlarının xatirəsinin kədərlə anıldığı bildirilir.

Heydər Əliyev Beynəlxalq Aeroportunda Bakı-Qroznı reysini yerinə yetirən "Embraer 190" tipli sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində həlak olan sərnişinlərin və ekipaj üzvlərinin xatirəsi ehtiramla yad olunub.

Hadisə ilə əlaqədar hava limanında quraşdırılmış xatirə lövhəsinin önünə gül dəstələri düzülüb. Ziyarətdə həm qəzada həlak olanların ailə üzvləri, həm də aviasiya sahəsinin nümayəndələri iştirak edirlər. Vətəndaşlar həlak olanların xatirəsini dərin ehtiramla anırlar.

*

**AZAL-a məxsus təyyarənin Aktau yaxınlığında qəzaya düşməsi nəticəsində çoxsaylı insan itkisinə görə Azərbaycanda matəm günüdür.**

Təyyarə qəzasında həlak olanların xatirəsi Naxçıvan Muxtar Respublikasında saat 12:00-da bir dəqiqəlik sükutla anılıb.

Ölkənin bütün ərazisində olduğu kimi, Naxçıvanda da nəqliyyat vasitələrinin və piyadaların hərəkəti dayandırılıb. Hüzn əlaməti olaraq dövlət bayraqları endirilib.

*

**Xankəndidə keçirilməsi nəzərdə tutulan "Qış nağılı" yarmarkası təxirə salınıb.**

"Azərbaycan Hava Yolları"na məxsus təyyarənin qəzaya uğraması nəticəsində həyatını itirən insanların xatirəsi dekabrın 26-da Bakı vaxtı ilə saat 12:00-da Azərbaycanın bütün ərazisində olduğu kimi Xankəndi şəhərində də bir dəqiqəlik sükutla yad olunub.

Sükut dəqiqəsi zamanı nəqliyyatın və piyadaların hərəkəti dayandırılıb. Dövlət bayraqları yarıyadək endirilib.

Baş vermiş faciə ilə əlaqədar olaraq Xankəndi şəhərində dekabrın 26-da keçirilməsi nəzərdə tutulan "Qış nağılı" yarmarkası təxirə salınıb.

*

**Qazaxıstanın Aktau şəhəri yaxınlığında baş vermiş təyyarə qəzasında həyatını itirənlərin xatirəsi ölkənin hər yerində olduğu kimi, Lənkəran şəhərində də dərin hüznlə anılıb.**

Saat 12:00-da Lənkəran şəhərində nəqliyyat vasitələrinin hərəkəti tamamilə dayandırılıb, vətəndaşlar bir dəqiqəlik sükutla həlak olanlara ehtiram göstəriblər. Şəhər ərazisində matəm əlaməti olaraq dövlət bayraqları yarıya qədər endirilib.

Xatırladaq ki, Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə qəzada həlak olanların xatirəsini yad etmək məqsədilə 2024-cü il dekabrın 26-da Azərbaycan Respublikasında matəm elan edilib.

*

**"Azərbaycan Hava Yolları"na məxsus təyyarənin qəzaya uğraması nəticəsində həyatlarını itirənlərin xatirəsi İstanbulda da yad edilir. Faciə qurbanlarına ehtiram məqsədilə İstanbulda, eləcə də Türkiyənin bölgələrində yaşayan və fəaliyyət göstərən həmvətənlərimiz bu gün səhər saatlarından etibarən AZAL-ın İstanbuldakı ofisi qarşısına gələrək əklillər və gül dəstələri qoyurlar.**

Ziyarətçilər arasında Türkiyə–Azərbaycan Dərnəkləri Federasiyasına daxil olan dərnəklərin nümayəndələri, İstanbulda fəaliyyət göstərən mədəniyyət xadimləri və digərləri də var. AZAL-ın İstanbuldakı ofisinin uçuş məlumatlandırma ekranında qəzaya uğrayan təyyarənin reys nömrəsi və nəzərdə tutulan səfər istiqaməti qeyd edilib.

*

**Təyyarə qəzası nəticəsində həlak olanların xatirəsi Gürcüstanda da anılıb.**

Dünən Gürcüstan parlamentinin sədri Şalva Papuaşvili, xarici işlər naziri Maya Boçorişvili, regional inkişaf və infrastruktur naziri İrakli Karseladze, Suxumi Dövlət Universitetinin rektoru Zurab Xonelidze, Qriqol Robakidze Universitetinin prorektoru Vaxtanq Çaraya, Gürcüstan Müsəlmanları İdarəsinin şeyxi Faiq Nəbiyev, Qazaxıstanın Gürcüstandakı səfiri Malik Murzalin, Türkiyənin bu ölkədəki səfiri Ali Kaan Orbay, Kuba Respublikasının Azərbaycan və Gürcüstandakı səfiri Karlos Enrite Valdes, ictimaiyyət xadimləri, Azərbaycan icmasının üzvləri, tələbə və gənclər Azərbaycanın Gürcüstandakı səfirliyinə gələrək AZAL şirkətinə məxsus təyyarənin qəzaya uğraması nəticəsində həlak olanlarla bağlı başsağlığı veriblər.



Təyyarə qəzasında həlak olanların və şəhidlərimizin ruhuna dualar oxunub. Sonra qonaqlar başsağlığı kitabına ürək sözlərini yazıb, Azərbaycan xalqının dərdinə şərik olduqlarını bildiriblər.

*

**"Azərbaycan Hava Yolları"nın Bakı-Qroznı reysini yerinə yetirən sərnişin təyyarəsinin qəzaya uğraması ilə əlaqədar elan olunmuş matəm günü səbəbindən ölkəmizin Ukraynadakı səfirliyində dövlət bayrağımız yarıya endirilib. Matəmlə əlaqədar dekabrın 26-27-də səfirlikdə xatirə kitabı açılıb.**

Xarici ölkələrin Ukraynadakı diplomatik nümayəndəlikləri Azərbaycan səfirliyinə gələrək başsağlığı verir, xatirə kitabına ürək sözlərini yazırlar. Bundan başqa, Ukrayna sakinləri, diaspor üzvləri, xarici ölkələrin diplomatik nümayəndələri faciə ilə bağlı səfirliyin önünə tər çiçəklər düzürlər. Səfirliyin önündə, həmçinin qəzanın görüntülərinə dair fotosərgi də nümayiş etdirilir. Matəm günü ilə bağlı GUAM Katibliyinin Kiyevdə yerləşən binasında da Azərbaycanın Dövlət Bayrağı endirilib.

*

**"Azərbaycan Hava Yolları"nın Bakı-Qroznı reysini yerinə yetirən sərnişin təyyarəsinin qəzaya uğraması ilə əlaqədar elan olunmuş matəm günü səbəbindən ölkəmizin Moldovadakı səfirliyində dövlət bayrağı yarıya endirilib.**

Matəmlə əlaqədar dekabrın 26-27-də səfirlikdə xatirə kitabı açılıb. Xarici ölkələrin Moldovadakı diplomatik nümayəndəlikləri Azərbaycan səfirliyinə gələrək başsağlığı verir, xatirə kitabına ürək sözlərini yazırlar. Bundan başqa Moldova sakinləri, diaspor nümayəndələri, xarici ölkələrin diplomatik nümayəndələri faciə ilə bağlı səfirliyin önünə tər çiçəklər düzürlər.

*

**Özbəkistanın Baş naziri Abdulla Aripov Azərbaycanın Baş naziri Əli Əsədova başsağlığı məktubu ünvanlayıb. Bu barədə Nazirlər Kabinetinin mətbuat xidmətindən məlumat verilib.**

Məktubda deyilir: "Biz dekabrın 25-də "Azərbaycan Hava Yolları"na məxsus sərnişin təyyarəsinin Aktau hava limanı yaxınlığında qəzaya uğraması nəticəsində insan tələfatı xəbərini dərin hüzn və kədər hissi ilə aldıq".

Abdulla Aripov baş vermiş təyyarə qəzası ilə əlaqədar Baş nazir Əli Əsədova, həlak olanların ailə üzvlərinə başsağlığı verib, yaralananlara şəfa diləyib.

*

**Dekabrın 26-da Gürcüstanın xarici işlər naziri Maka Botçorişvili Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramova zəng vurub.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən verilən məlumata görə, nazir M.Botçorişvili dekabrın 25-də "Azərbaycan Hava Yolları" aviaşirkətinə məxsus Bakı-Qroznı reysini yerinə yetirən sərnişin təyyarəsinin Aktauda qəzaya uğraması nəticəsində həlak olanların ailə üzvlərinə başsağlığı diləklərini çatdırıb, dost Azərbaycan xalqına səbir diləyib. Bu faciəvi gündə Gürcüstanın hər zaman Azərbaycanın yanında olduğu vurğulanıb.

Nazir Ceyhun Bayramov başsağlığına, ölkəmiz və xalqımız üçün ağır bir gündə göstərilən dəstəyə görə dost Gürcüstan tərəfinə təşəkkür edib.

*

**"Bu faciə bizim ümumi ağrımızdır, çünki Aktau yaxınlığındakı təyyarə qəzasında həlak olanlar arasında Qazaxıstan vətəndaşları da var".**

Bu açıqlamasının davmında Qazaxıstanın xarici işlər nazirinin müavini Roman Vasilenko bildirib: "Biz ümid edirik ki, yaralılar tezliklə tam sağalıb ailələrinə qayıda biləcəklər. Biz bunun üçün əlimizdən gələni edirik". Nazir müavini Aktauda yardım göstərən, o cümlədən qan verən qazaxıstanlılara minnətdarlığını bildirib, həmçinin Fövqəladə Hallar, Səhiyyə nazirliklərinin və yerli administrasiyanın operativ fəaliyyətini qeyd edib. Roman Vasilenko faciə ilə əlaqədar Azərbaycan xalqına başsağlığı verərək deyib: "Biz birlikdə kədərlənirik".

*

**"Azərbaycan Hava Yolları"na məxsus sərnişin təyyarəsinin Aktau hava limanı yaxınlığında qəzaya uğraması xəbəri bizi dərindən kədərləndirdi".**

Bu barədə açıqlamasında Türkiyənin Qazaxıstandakı səfiri Mustafa Kapucu bildirib. Başsağlığı vermək üçün Azərbaycanın Astanadakı səfirlik binasına gələn diplomat deyib: "Qəza barədə məlumat aldığımız andan dərhal əlaqə saxladıq və buradakı qardaşlarımızla görüşdük. Türkiyə xalqı olaraq bu kədəri azərbaycanlı qardaşlarımızla birlikdə ürəyimizdə yaşayırıq".

Mustafa Kapucu qeyd edib ki, səfirlik əməkdaşları və Qazaxıstanda yaşayan Türkiyə vətəndaşları hadisə barədə məlumat almaq üçün çoxsaylı zənglər edib və mesajlar göndəriblə: "Şəxsən öz adımdan, Türkiyə səfirliyinin əməkdaşları və vətəndaşlarımız adından qardaşlarımıza başsağlığı diləyirəm. Allah rəhmət eləsin, həlak olanların yaxınlarına səbir versin. Yaralılara tezliklə şəfa diləyirik".

"Bu, vətəndaşları təyyarədə olan və qəza nəticəsində həlak olan Azərbaycan, Rusiya və digər dövlətlər üçün həqiqətən də böyük faciədir".



Bu barədə Rusiyanın Qazaxıstandakı səfiri Aleksey Borodavkin Aktau yaxınlığında "Azərbaycan Hava Yolları" QSC-nin (AZAL) təyyarəsinin qəzaya uğraması ilə bağlı Azərbaycanın Astanadakı səfirliyində olarkən məlumat verib: "Bu gün mən Azərbaycan vətəndaşlarının həlak olması ilə əlaqədar Rusiya Federasiyası və onun Qazaxıstandakı səfirliyi adından başsağlığı vermək üçün Azərbaycanın Astanadakı səfirliyinə gəldim. Kədərinizə şərikik və həlak olanların ailələrinə dərin hüznlə başsağlığı veririk".

Səfir qəza zamanı yaralananların tezliklə sağalmalarını və normal həyata qayıtmalarını diləyib:"Bu, hamımız üçün böyük faciədir. Biz Qazaxıstanda insanların faciəyə necə reaksiya verdiyini görürük. Onlar səfirliklərə gəlir, başsağlığı verir, xəstəxanalarda qan verirlər. Hadisənin araşdırılması istiqamətində yardımın göstərilməsi ilə bağlı görülən operativ iş də xüsusi təşəkkürə layiqdir".

"Azərbaycan Hava Yolları"nın təyyarəsinin Aktau şəhəri yaxınlığında qəzaya uğraması nəticəsində baş verən faciəli hadisəyə görə Türkiyə və Aktauda fəaliyyət göstərən İran, Özbəkistan və Türkmənistan baş konsulları Azərbaycanın yanındadırlar".

Bunu jurnalistlərə açıqlamasında Türkiyənin Aktaudakı baş konsulu Sabri Alptekin bildirib.O qeyd edib ki, hazırda Türkiyənin Baş konsulluğu aparılan araşdırma ilə bağlı azərbaycanlı həmkarı ilə əlaqə saxlayır. Sabri Alptekinin sözlərinə görə, hadisə baş verəndən 8 dəqiqə sonra Qazaxıstanın müvafiq qurumları hadisəyə təcili müdaxilə ediblər. Nəticədə itki sayı az olu: "Dünən xəstəxanadakı yaralıların vəziyyəti ilə maraqlandım. Eyni zamanda, Azərbaycandan Aktauya gələn nazirlərlə görüşdüm".

Türkiyə baş konsullu bildirib ki, ölkəsi qardaş dövlət olaraq istər Azərbaycana, istərsə də Qazaxıstana lazımi köməyə hazırdır.

*

**"Kşnyakin İqor dəfələrlə səfərlərə çıxan və qayıdan, hər zaman işinə sadiqliyi və peşəkarlığı ilə seçilən böyük təcrübəyə malik bir pilot idi. O, mükəmməl bir insan idi. Hər zaman ailəsi ilə sıx əlaqədə olur, onlara dəstək verirdi. Onun işinə necə bağlı olduğunu hamımız bilirdik. Gediş-gəlişi adi hal idi, amma bu dəfə fərqli oldu. Əfsuslar olsun ki, bu səfəri son oldu".**

Bu sözləri Bakı-Qroznı reysi zamanı baş verən təyyarə qəzasında həlak olan pilot Kşnyakin İqorun qohumu Nicat Bağırov jurnalistlərə açıqlamasında söyləyib. Qohumu bildirib ki, mərhum öz həyatını tamamilə işinə və ailəsinə həsr etmişdi: "Üç gün əvvəl danışmışdıq. Hər zaman olduğu kimi səfərindən bəhs edirdi. Hamı onun necə mükəmməl insan olduğunu təsdiqləyir. Bu böyük insanın itkisinin yaratdığı boşluğu doldurmaq çətindir, lakin onun xatirəsi ailəsinin və dostlarının qəlbində daim yaşayacaq. Allah rəhmət eləsin".

*

**"Bu hadisədə yalnız övladımı itirməmişəm, eyni zamanda, bütün qurbanların ağrısını və acısını hiss edirəm. Mən oğlum Anarla sonuncu dəfə saat 11-12 radələrində telefonla danışmışdım. O, təyyarənin uçuş hazırlıqlarından danışdı və qeyd etdi ki, hava limanında qeydiyyatdan keçib, uçmaq üçün hazırlaşır".**

Bu sözləri isə ötən gün Bakı-Qroznı reysi zamanı baş verən təyyarə qəzasında həlak olan Anar Babayevin atası Zöhrab Babayev jurnalistlərə açıqlamasında söyləyib. Ata daha sonra söyləyib: "Oğlum demişdi ki, təyyarədən enən kimi mənə zəng edəcək. Səhər saatlarında isə mənə xəbər çatdırıldı ki, təyyarə qəzası baş verib. Təxminən bir neçə saat əvvəl danışdığım övladımın bu hadisədə həlak olduğunu eşidəndə böyük sarsıntı keçirdim".

Zöhrab Babayev hadisədən sarsıntı keçirdiyini bildirərək dərin hüznlə təəssüratlarını bölüşüb: "Dünən Prezident İlham Əliyevin qəza qurbanlarının ailələrinə və yaralıların yaxınlarına göstərilən diqqət və dəstək haqqında açıqlamasını eşitdim. Bundan sonra dərhal əlaqədar qurumlara və qəza ilə bağlı məlumat almaq üçün müxtəlif yerlərə zəng etdim. Ailə üzvlərim ilə birlikdə çox çətin anlar yaşayırıq.

Qəzada həyatını itirənlərin bəzilərinin yaxınları ilə də tanış oldum. Bu hadisədə yalnız övladımı itirməmişəm, eyni zamanda, bütün qurbanların ağrısını və acısını hiss edirəm. Biz övladımızın nəşinin gətirilməsini gözləyirik".

Mərhumun atası Z.Babayev təyyarə qəzasında həyatını itirənlərə Allahdan rəhmət, yaralananlara isə tezliklə şəfa diləyib.

Bakı–Qroznı reysi zamanı baş verən təyyarə qəzasında həlak olan 34 yaşlı Anar Babayevin qardaşı Höccət Babayev jurnalistlərə açıqlamasında deyib ki, Anar 23 ilə yaxındır işi ilə əlaqədar Qroznıya gedib-gəlirdi: "O, tez-tez Qroznıya gedirdi. Bu dəfə də işi ilə bağlı getmişdi. Onunla əlaqə saxladım, danışdım. Hər şey yaxşı idi. Amma təəssüf ki, bu, mənim qardaşımla sonuncu danışığımız oldu".

Höccət Babayev dərin hüznlə qardaşının nəşinin Vətənə gətirilməsini gözlədiyini ifadə edərək digər həlak olan insanların da ailələrinə səbir diləyib.

*

**"Onun itkisi təkcə ailəsi üçün deyil, həm də aviasiya sahəsi üçün böyük boşluq olacaq, İqor Kşnyakin çox bacarıqlı pilot və nümunəvi dost idi. Onun itkisi təkcə ailəsi üçün deyil, həm də aviasiya sahəsi üçün böyük bir boşluq olacaq. Hazırda ailəsi yas mərasiminə hazırlaşır və bu, hamımız üçün çox çətin bir dövrdür".**



Bu sözləri Bakı–Qroznı reysi zamanı baş verən təyyarə qəzasında həlak olan pilot İqor Kşnyakinin dostu İsfəndiyar Müslümov jurnalistlərə açıqlamasında söyləyib. Onun sözlərinə görə, dünən baş verən təyyarə qəzasında kapitan pilotun həlak olduğu təsdiqlənib, yaxınları və dostları hadisə ilə bağlı dərin kədər hissi yaşayırlar: "Pilotun ailəsi onun itkisi ilə bağlı mənəvi cəhətdən sarsılıb. Allah bütün həlak olanlara rəhmət eləsin".

"Onunla son danışığımızı həmişə xatırlayacağam. Qardaşımın kədərli xəbərini aldıq. Bu gün bizə məlumat verildi ki, onun şəxsiyyəti müəyyənləşdirilib. Cəsədinin gətirilməsini gözləyirik. Onu itirmək bizim üçün çox ağırdır".

**Matəm günü materiallarını hazırladılar:**
**T. RÜSTƏMLİ,**
**P.ƏFƏNDİ**
**XQ**

# ATƏT-in Minsk qrupu və Qarabağ avantürası



(əvvəli 1-ci səhifədə)

Qeyd edək ki, Prezident İlham Əliyev bu il avqustun 30-da Azərbaycan–Türkiyə parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrımın başçılıq etdiyi Türkiyə Böyük Millət Məclisinin üzvlərindən ibarət nümayəndə heyəti ilə görüşərkən də ATƏT-in Minsk qrupunun buraxılması zərurətini qabartmışdı. Dövlətimizin başçısı həmin görüşdə regional vəziyyətə toxunaraq demişdi ki, Azərbaycan bölgədə davamlı sülhün təmin olunmasının tərəfdarıdır. Bunun üçün isə "artıq keçmişin qalığı olan ATƏT-in Minsk qrupu və onunla əlaqədar təsisatlar tamamilə ləğv edilməlidir".

Ölkəmizin lideri, həmçinin Minsk qrupu ilə bağlı Ermənistanın mövqeyinin başadüşülən olmadığını da diqqətə çatdırmışdı. Baş nazir Nikol Paşinyanın Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən bəyanat səsləndirdiyini xatırladan Prezident İlham Əliyev Ermənistanın sülh müqaviləsində, ümumən regionda davamlı barışın qərarlaşmasında maraqlı olmadığı qənaətinə gəlmiş, İrəvanın qəsdən vaxt uzatdığını, Fransadan, digər Qərb ölkələrindən və başqa tərəflərdən yeni silahlar aldığını, öz ərazisində üçüncü tərəflərlə birgə hərbi təlimlər keçirdiyini vurğulamışdı.

*

Bəli, indi M.Zaxarova bildirir ki, ölkəsi ATƏT-in Minsk qrupunun ləğvi məsələsini əvvəllər də şərh edib. "Lakin müvafiq açıqlamaların verildiyini nəzərə alaraq, bu mövzuya qayıdaq. Sadəcə xatırlatmaq istərdim: amerikalılar və fransızlar, yəni onların rəsmi nümayəndələri, Minsk qrupunun həmsədrləri 2022-ci ilin fevralında rusiyalı həmkarları və rusiyalı həmsədrlərlə əlaqəni dayandırdılar", –deyən xanım diplomat əlavə edib ki, Ermənistan–Azərbaycan–Avropa İttifaqı–Fransa sammitinin nəticələrinə görə, Ermənistan Qarabağı Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi tanıdı, bununla vəziyyət köklü şəkildə dəyişdi və nəticədə ATƏT-in Minsk qrupu aktuallığını itirdi.

Rusiyanın XİN sözçüsü açıqlamasında sözügedən təsisatın işinin pozulmasına görə Qərbi ittiham etməyi də yaddan çıxarmayıb. Zaxarova ATƏT-in Minsk qrupunun struktur fəaliyyətinə dair bəzi məqamları da açıqlayıb ki, bu baxımdan onun söylədiklərinin elə bir əhəmiyyəti yoxdur. Çünki bildirdikləri ümumi prosedur məsələlərdir. Ancaq rusiyalı rəsminin gəldiyi bir başlıca qənaət var. Qarabağ üzrə əvvəlki danışıqlar formatından imtina edildisə, deməli, ATƏT-in Minsk qrupuna da ehtiyac qalmayıb: "Hesab edirik ki, bununla bağlı müvafiq qərar qəbul etməyin ən yaxşı yolu Bakı və İrəvanın bu qurumun ləğvinə dair birgə təklifidir".

*

Göründüyü kimi, Rusiya ATƏT-in Minsk qrupunun mövcudluğunu istəmir. Zaxarova açıqlamasında Brüssel formatına toxunur və məhz bu format daxilində Qarabağın Azərbaycan ərazisi kimi tanındığını əsas götürərək, Minsk qrupuna ehtiyacın olmadığı rəyinə gəlir. Oxşar izahı Rusiya Prezidenti Vladamir Putin də dəfələrlə verib. Ümumən, rəsmi Moskvanın yanaşması daha çox Rusiyanın Ermənistana kömək göstərməməsi ittihamına cavabdır. Təxminən belə: İrəvan Qərbə arxalandı, Qarabağı əldən verdi, biz fərqli yanaşma tətbiq edə bilərdik. Zaxarova hazırda, necə deyərlər, qatarın artıq getdiyini bildirir. Ancaq nə Zaxarova, nə də digər Rusiya rəsmiləri Ermənistana ölkənin Qarabağ avantürasının davamı baxımından konkret nələri təklif ediləcəyini açıqlamırlar. Əslində, ortada elə bir şey yoxdur. Həm də ona görə ki, Ermənistan rəhbərliyi 2020-ci ilin 44 günlük müharibəsindən sonra Azərbaycanla münasibətlərin Qərb vasitəçiliyinə üstünlük verməklə, Qarabağ məsələsini Rusiyanın egidasından xilas etmək yolunu tutdu. Paşinyan iqtidarının prinsipial yanaşması bu idi. Ancaq mövcud yanaşma, heç bir halda, Qarabağ avantürasından uzaqlaşma sayıla bilməz. Hətta, Nikol ölkəmizin ərazi bütövlüyünü tanıdığını açıqlasa da...

Deməli, Moskvanın nəzərində Azərbaycanın ərazi bütövlüyünü tanımaq Qarabağ iddiasından uzaqlaşmaq deməkdir. Göründüyü kimi, məsələ, kifayət qədər, konkret qoyulur, hansısa diplomatik manevr üçün meydan tanınmır. Rusiya bunu ona görə edir ki, Ermənistan Qərbyönümlüdür, Paşinyan Kremlin forpostu olmaq istəmir. Ancaq əksi yaşansaydı, necə olacaqdı? Hər halda, Qarabağın Azərbaycan ərazisi kimi tanınmasından kənar formul seçilməyəcəkdi. Yəni, ölkəmiz razılaşmayacaqdı və bunu Rusiyada hər kəs anlayır.

Rusiya, yaxşı halda, Qarabağda ermənilərin qalmalarına şərait yaradacaqdı. Əlbəttə, ona görə ki, Azərbaycan da buna razılığını ifadə edirdi. İrəvan Moskvanı eşitsəydi, onun, belə demək mümkünsə, yaşam təminatlarına etibar edərdi. Sonrakı vəziyyət bölgədə 1988-1991-ci illərin olaylarının təkrarlanmasına gətirib çıxardardımı, əlbəttə ki, yox. Çünki Azərbaycan keçmişi dərin təhlil edib.

*

İstər 2023-cü ilin lokal xarakterli antiterror tədbirlərindən sonrakı, istərsə də ondan əvvəlki vəziyyət, xüsusən Qarabağın total şəkildə boşaldılması onu göstərdi ki, N.Paşinyanın Qarabağ da daxil olmaqla, Azərbaycanın ərazi bütövlüyünü tanımasına dair bəyanatı boş şeydir, səmimiyyətdən uzaqdır, yalnız diplomatik manevr mahiyyəti daşıyır. Nəzərə alaq ki, erməni hökumət rəhbəri antiterror tədbirlərinədək verdiyi açıqlamaların birində Qarabağın özünün seçkili hakimiyyətinin olduğuna dair fikir səsləndirmişdi. Eyni zamanda, İrəvanda separatçı rejimin yeni "prezidentinə" təbrik mesajları eşidilmişdi.

Daha əvvəl isə Ermənistan və havadarları Qarabağ erməniləri üçün beynəlxalq təminat məsələsini qaldırmışdılar. Bu, Azərbaycanın yurisdiksiyasını heçə saymaq idi. Qarabağın ermənisizləşdirilməsi də belə bir istəyin mövcudluğundan xəbər verir. Yəni, beynəlxalq təminat yoxdursa, bölgədə Azərbaycanın mütləq hakimiyyəti qurulursa, o zaman prinsipial olaraq ermənilərin ərazidən köç etmələri əsas götürüldü. Rusiya isə həm əvvəllər, həm də indi başa salmağa çalışır ki, bu gedişat Ermənistanın Qarabağ iddiasını tarixə gömdü. Əlbəttə, Kremli, böyük ölçüdə, eşidən yoxdur. Ona görə Zaxarova indi çox rahat şəkildə deyir ki, ATƏT-in Minsk qrupu ləğv edilməlidir, çünki Qarabağ yoxdur. Başqa sözlə desək, sözügedən qrup Qarabağın Ermənistan olması üçün idi.

Belə bir nəticəyə gəlirik ki, ATƏT-in Minsk qrupu ilə bağlı duruma Azərbaycanın və Rusiyanın baxışı fərqlidir. Ermənistan isə Qarabağ avantürasının davamında israrlıdır. Sadəcə, hazırda bu israrlılıq avantüranın Qərbin dəstəyinə əsaslanmış davam ssenarisinin tərkib hissəsidir.

Qərb İrəvana özünün Cənubi Qafqaz üzrə anti-Rusiya cəbhəsi olmağı təklif edir və görünür, Qarabağ avantürasının aqibəti də Ermənistanın mövcud statusda qazanacağı uğura nəzərən müəyyənləşəcək. Hazırda məhz bu səbəbdən Paşinyan iqtidarı ATƏT-in Minsk qrupunun rəsmi şəkildə ləğvini istəmir, hansısa regional dəyişikliklər, qlobal rəqabət davasının nəticəsində itirilmişlərin bərpasına ümid bəsləyir. Ermənistanın sürətli silahlanması da buna görədir. Üstəlik, rəsmi İrəvan Azərbaycanın sülh yolundakı digər şərtini də yerinə yetirmir. Söhbət konstitusiya dəyişikliyi ilə bağlı tələbdən gedir.

Sonda onu da deyək ki, bu gün Ermənistanın ana qanunu ölkəmizə qarşı ərazi iddiasına köklənmiş istiqlaliyyət bəyannaməsinə istinad yüklüdürsə və eyni zamanda, Paşinyan hakimiyyəti ATƏT-in Minsk qrupunun ləğvinə dair Bakı ilə birgə rəsmi müraciət ünvanlamaq istəmirsə, hər şey ortadadır. Aydındır ki, Qarabağ avantürası yenə "aktuallığını" saxlamaqdadır.

***Ə.CAHANGİROĞLU***
***XQ***

Replika

# Velosiped sürmək müstəqilliyi

## *Yaxud Paşinyanın yarımçıq fəlsəfəsinə sözardı*

**Ermənistanın baş naziri Nikol Paşinyan, deyəsən, dövlət idarəçiliyini fəlsəfəyə dəyişib. Bəri başdan bildirək ki, onun İrəvan küçələrində velosiped sürməsi filosofluğundan qat-qat yaxşıdır. Hərçənd, Nikol özünün daha üstün keyfiyyətini görə bilmir. Görə bilsəydi, hökumət rəhbəri olmağı yox, velosiped idmanını seçərdi. Əminik ki, bu sahədə Ermənistana daha çox fayda verərdi.**



N.Paşinyan özünün sosial şəbəkə hesabında yazıb ki, müstəqillik çox adamdan asılılığın az bir qisimdən asılılıqla əvəzlənməsidir. Bu fikrə diqqət yetirərkən, yada bir sıra məqamlar düşür. Onlardan söz açmazdan öncə deyək ki, N.Paşinyan ilin-günün bu vaxtında koronavirusa yoluxub. Ola bilər, ölkədə bu diaqnoz qoyulan bircə nəfər varsa, o da Nikoldur. Hərçənd, xəstəliyin nə üçün məhz Sankt-Peterbuqrda keçirilmiş MDB dövlət başçılarının qeyri-formal sammiti və Avrasiya İqtisadi İttifaqının Ali Avrasiya Şurasının iclası ərəfəsinə təsadüf etməsi şübhəlidir.

Ermənistanda bütün sahələrdə problemlər var. O cümlədən, COVID-19 testlərində. Əlbəttə ki, bu, ilk baxışdan belədir. Təsəvvür edin, Paşinyan dekabrın 23-də koronavirusa yoluxduğunu bildirib və MDB dövlət başçılarının sammitinə qatılmayacağını deyib. Nədənsə xəbəri dekabrın 25-də açıqlayıb və əlavə edib ki, indi artıq sağalıb, ancaq həmkarları ilə Aİİ-nin Ali İqtisadi Şurasının iclasına qatılmaq məsələsini müzakirə edəcək və günün sonunda bununla əlaqədar yekun qərar verəcək. Dünən isə iclas keçirildi və Paşinyan toplantıya videobağlantı ilə qatıldı. Sual budur: Olmazdımı ki, Nikol MDB dövlət başçılarının sammitinə də eyni formatda qatılaydı? Görünür olmazmış. Çünki...

Məsələ ondadır ki, Ermənistan Rusiyanın hakim rol oynadığı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı kimi, MDB-ni də boykot yolu tutur. Birincini açıq, ikinci gizli şəkildə. Yəni, Paşinyanın xaricdəki ağaları ona bu təşkilatların yığıncaqlarına qatılmamaq göstərişi veriblər. Söhbət Aİİ-dən gedirsə, mövcud platformada isə vəziyyət bir qədər fərqlidir. Hər halda, belə görünürdü. Ehtimal etmək olardı ki, Nikol MDB-nin toplantısına getməsə də, Aİİ-nin iclasında iştirak üçün Sankt-Peterburqa yollanacaq. Ancaq "tərslikdən" baş nazirin COVID testi yenidən pozitiv çıxıb. İkinci sual isə budur: necə olur ki, Nikol sağaldığını deyir, sonra yenidən xəstələnir? Problem COVID testlərindədir, yoxsa Paşinyanda?

Belə nəticəyə gəlirik ki, Ermənistanın hökumət rəhbərinin xaricdəki ağaları ona ümumiyyətlə Rusiyaya getməyi qadağan ediblər. Ya da ola bilər ki, Paşinyan Belarus Prezidenti Aleksandr Lukaşenkodan qorxub. Axı Lukaşenkonun Aİİ-nin Ali İqtisadi Şurasının toplantısından əvvəl balta ilə odun yardığının əks olunduğu fotosu paylaşılmışdı. Özü də "Birincinin iş səhəri. Bəs siz vacib danışıqlar ərəfəsində nə işlə məşğul olursunuz?" fikri ilə. Nikol qorxmasın, nə etsin? Axı orda-burda Belarus lideri haqqında ağzına gələni danışıb. Məsələn, deyib ki, Lukaşenko prezident olduğu müddətdə Belarusa getməyəcək və hökumət üzvlərindən kimsənin ora getməsinə icazə verməyəcək. Hər halda, Lukaşenko bunun nə demək olduğunu Paşinyandan soruşa bilər. Nəzərə alaq ki, iki il əvvəl Aleksandr Nikolu möhkəm danlamışdı.

Nə isə yenidən qayıdaq Paşinyanın əvvəldə haqqında söz açdığımız filosofluğuna. Əvvəla, müstəqilliklə asılılıq bir-birinə tamam yad şeylərdir. İkincisi, müstəqillikdən uzaqlıq erməni baş nazirin Sankt-Peterburqa getməmək üçün yüz cür hoqqa çıxarması, özünü xəstəliyə vurmasıdır. Üçüncüsü, Nikolun təbirincə desək, müstəqillik çox adamdan asılılığın az bir qisimdən asılılıqla əvəzlənməsidirsə, o zaman məsələn, Serj Sarkisyanın və ya Robert Koçaryanın prezidentliyi dönəmlərində Ermənistan ancaq Rusiyadan asılı idi. Yəni, ölkə birbaşa Moskvadan idarə olunurdu və Paşinyanın filosofluğu ilə yanaşsaq, deməli, daha müstəqil idi. Hazırda isə Nikol və komandasındakılar, ən xırda şeylər üçün də Qərbdən icazə alırlar. Bilmirlər ABŞ-ın dediyini yerinə yetirsinlər, yoxsa Fransanın. Üstəlik, erməni hakim düşərgəsinin daxilində Qərbin müxtəlif dairələrinə qulluq edənlər var və bu, o deməkdir ki, Ermənistanda iqtidar monolit deyil.

Sonda bildirək ki, nəinki Ermənistan dövləti, ümumən, erməni varlığı heç zaman müstəqil olmayıb, həmişə hansısa xarici qüvvələrin aləti rolunda çıxış edib. N.Paşinyan bu kimi məsələlər barədə müəyyən pozitiv siqnallar verir, hərdən acı reallıqları açıqlamaqla gündəmə gəlir, hələ təhqirlə də üzləşir. Görünür, o, mövcud istiqamətdə çox düşünür və düşündükcə ağlına gələn şeyləri sevimli məkanı olan sosial şəbəkələrdə paylaşır. Ancaq aydındır ki, əsas paylaşmaq deyil, gərək, real iş görəsən. Nikolun gördüyü real "işləri" isə yuxarıda sadaladıq. Söhbət müstəqillikdən düşdüsə, deyək ki, Paşinyanın müstəqil şəkildə həyata keçirdiyi ən parlaq iş velosiped sürməkdir. Nə qədər istəyir sürsün, heç bir problem yoxdur, bircə yıxılıb başını-gözünü əzməsin.

***Ə.RÜSTƏMOV***
***XQ***

# İsveçli deputatın İrəvanla "kəsişən" maraqları

**Ermənistan hakimiyyəti bir müddət öncə irəli sürdüyü "Dünyanın kəsişməsi" layihəsini yenidən canlandırmağa çalışır. Ölkənin rəsmi şəxsləri, eləcə də hakimiyyətə yaxınlığı ilə seçilən bəzi ekspertlər son günlər bir-birinin ardınca bu istiqamətdə açıqlamalar verirlər. Bu açıqlamalarda, təbii ki, layihənin regionun inkişafı üçün müsbət perspektiv vəd etdiyi bildirilir.**

Məsələn, bir neçə gün öncə ölkənin dövlət informasiya agentliyi olan "Armenpress" bu istiqamətdə siyasi analitik Armen Petrosyanın fikirlərini yayımlamışdı. Petrosyan bildirmişdi ki, Cənubi Qafqaz regionunda 2024-cü il üçün bütünlüklə xarakterik olan qeyri-müəyyən vəziyyət davam edir. Onun sözlərinə görə, qeyri-müəyyənliyin qalması Ermənistan–Azərbaycan münasibətlərinin normallaşması prosesinin dalana dirənməsi (?), eləcə də Gürcüstanda cərəyan edən proseslərlə bağlıdır. İddia edib ki, bu qeyri-müəyyən vəziyyət bəlkə daha da artıb. Cənubi Qafqazda mövcud geosiyasi vəziyyət, hadisələrin mümkün inkişafı və bu kontekstdə "Dünyanın kəsişməsi" təşəbbüsünün həyata keçirilməsinə toxunan politoloq deyib: "İki paralel situasiya regionumuzda təkcə hamılıqla qəbul edilmiş məqbul yolla deyil, həm də geopolitik rəqabət nöqteyi-nəzərindən qeyri-müəyyənlik üçün əsaslar formalaşdırmaqda davam edir. Gürcüstandakı mövcud vəziyyət və Ermənistan–Azərbaycan münasibətlərinin nizamlanması prosesinin geosiyasi təbəqələri, qlobal rəqabət elementləri var ki, bu da təbii olaraq, mənfi təsir göstərir və bizim regionda ümumi risk fonunu artırır".

Politoloq daha sonra hay xislətinə uyğun olaraq, Azərbaycanı ittiham edib. Deyib ki, guya, Azərbaycan düşünülmüş müxtəlif səbəblərə görə, Ermənistanla münasibətləri normallaşdırmaqdan imtina edir. Bu isə xarici aktorların regionda və onun hüdudlarından kənarda gedən proseslərə müəyyən təsir göstərməyə çalışmasına imkan yaradır: "Rusiya Federasiyasının son vaxtlar 2020-ci il 10 noyabr formatını yenidən siyasi və təbliğati səviyyədə gündəmə gətirdiyi nəzərə çarpır. Türkiyədən də Azərbaycanın maraqlarını təşviq etməklə və regional proseslərə təsir göstərməklə nizamlanma prosesi üçün zəmin hazırlamağa çalışan müəyyən aktivlik hiss olunur. Həmçinin ABŞ-ın yeni administrasiyanın fəaliyyətindən də müəyyən gözləntilər var".



Bundan sonra Petrosyan sözünün, necə deyərlər, mustafasını deyib. Ermənistan baş naziri tərəfindən irəli sürülən "Dünyanın kəsişməsi" təşəbbüsünün hazırkı proseslər kontekstində həyat qabiliyyəti məsələsinə toxunan politoloq vurğulayıb ki, Cənubi Qafqazdakı problemlər arasında "ən təhlükəlisi" regional yolların bağlanması prosesidir: "Burada Ermənistan–Azərbaycan münasibətlərinin nizamlanması prosesi ilə yanaşı, konkret olaraq yolların açılması məsələsində regional və ya qeyri-regional maraqların toqquşması tendensiyası açıq şəkildə müşahidə olunur. Ermənistan kommunikasiyaların açılmasını dörd məlum prinsip üzrə həyata keçirməyə hazır olduğunu bildirir. Azərbaycan bu prosesi dəhliz məntiqinə uyğun həyata keçirməyə çalışır. Türkiyə yolların açılması prosesinin Azərbaycanın maraqlarına uyğun olmasını istəyir, onunla Türk dünyası arasında sabit əlaqə kanalı, yaxud Mərkəzi Asiya ölkələrinə çıxış tələb edir. İran bu kanalın onun ərazisindən keçməsini, Rusiya öz növbəsində yolun Ermənistan ərazisindən keçən hissəsinin Moskvanın nəzarətində olmasını istəyir. ABŞ Rusiyanın heç bir nəzarətinin olmamasına və İran ərazisindən istifadə edilməməsinə çalışır".

O əlavə edib ki, ümumiyyətlə, kommunikasiyaların açılması prosesinin xüsusiyyətləri var: "Azərbaycan onu Zəngəzur dəhlizi, İran "Araz dəhlizi", Ermənistan isə "Dünyanın kəsişməsi" adlandırır. Yəni, regionumuzun ən ağrılı problemi – yolların açılması məsələsi həll olunana qədər, təbii ki, rəqabət və müxtəlif layihələrin təşviqi gündəmdə qalacaq".

Əlbəttə, A.Petrosyanın digər haylara xas yanaşma nümayiş etdirəcəyi gözlənilən idi. O, hər bir məsələdən danışsa da, yaranmış vəziyyətin başlıca baiskarının rəsmi İrəvan olduğunu demir. Paşinyan iqtidarı xarici havadarlarının köməyi ilə ötən 4 il ərzində siyasi-diplomatik sahədə yalnız vaxt uzatmaqla məşğuldur və məsələnin mahiyyətindən kənar bir sıra ideyalar irəli sürür. "Dünyanın kəsişməsi" də belə ideyalardan biridir.

Petrosyanın qeyd etdiyi yolların açılması məsələsində regional və ya qeyri-regional maraqların toqquşması tendensiyasını formalaşdıran da Paşinyan iqtidarıdır. Məhz İrəvandakı "başbilənlər" bölgəyə kənar geosiyasi aktorları dəvət etməklə məsələyə beynəlxalq ton verməyə çalışırlar. Məsələ o qədər gərgin, o qədər ziddiyyətli mərhələyə qədəm qoydu ki, Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov bu ilin avqustunda açıqlama verərək, tərəflərin Azərbaycanın qərb hissəsini Naxçıvanla birləşdirən marşrut da daxil olmaqla, nəqliyyat kommunikasiyalarına dair maddənin sülh müqaviləsi layihəsindən çıxarılması barədə razılığa gəldiyini bildirdi. Qeyd etdi ki, bu məsələnin sonrakı mərhələdə həll olunması barədə razılıq əldə edilib.

Hazırda Ermənistan və Azərbaycan arasında müzakirə olunan sülh müqaviləsində kommunikasiya xətlərinin açılması ilə bağlı bir cümlə də yoxdur. Bu məsələnin gecikdirilməsinin, danışıqlardan kənarda qalmasının suçu Ermənistan hakimiyyətinin üzərindədir. Belə olan təqdirdə İrəvanın müxtəlif layihələrlə çıxış etməsi, onun baş tutmasına çalışması tamamilə absurd və məntiqdən kənardır.

*(ardı 6-cı səhifədə)*

# Yerlə Göy arasındakı risk qurşağı



**25 dekabr 2024-cü il. Təəssüf ki, bu tarixdə baş vermiş faciə qarşıdan gələn bayram günlərinin üzərinə kölgə saldı. Bakı–Qroznı reysi ilə uçan AZAL Hava Yollarına məxsus "Embraer 190" təyyarəsi ekstern eniş edərkən Qazaxıstanın Aktau hava limanının 3 kilometrliyində qəzaya uğradı. 110 sərnişin tutumuna malik laynerin göyərtəsindəki ekipaj da daxil olmaqla, 67 nəfərdən 42-si Azərbaycan, 16-sı Rusiya, 6-sı Qazaxıstan, 3-ü isə Qırğızıstan vətəndaşları idi. Onlardan 38-i həlak olub, 3-ü uşaq olmaqla 29-u salamat qalıb.**

Prezident İlham Əliyevin sərəncamı ilə dünən Azərbaycanda matəm elan olundu. Saat 12:00-da qəza qurbanlarının xatirəsi ölkənin bütün ərazisində bir dəqiqəlik sükutla yad edildi, məscidlərdə onların ruhuna dualar oxundu.

Təyyarə qəzaları yol qəzaları qədər adi sayılmasa da, son illər səmada baş verən faciələrin sayı artmaqdadır. Səbəblər müxtəlif olsa da, hər an həyat və ölüm zolağına çevrilə biləcək göydəki fors-major aqibətdən heç kim, hətta dünyanın ən məşhur aviaşirkətləri belə sığortalanmayıb.

Başa çatmaqda olan 2024-cü il həm də dünya ictimaiyyətini şoka salan aviaqəzalarla yadda qalacaq.

Rəsmi məlumatlara görə, son bir ildə dünyada 360-dan çox aviasiya insidenti qeydə alınıb ki, bunun da üçdəbiri müxtəlif təyinatlı təyyarələrin havada və yerdə qəzaya uğraması ilə bağlıdır. Ölümlə nəticələnən qara statistikaya nəzər salaq.

1. Yanvar ayı. Yaponiya Hava Yollarına məxsus "Airbus A350" təyyarəsi Tokio hava limanına enərkən sahil mühafizəsinin "DHC-8-315 Dash 8" təyyarəsi ilə toqquşub. Airbusun göyərtəsindəki 379 sərnişinin hamısı sağ qalsa da, "Dash 8"-in 6 ekipaj üzvündən 5-i həlak olub.

2. May ayı. İndoneziyada daxili reyslə uçan "Airbus A320" sərnişin təyyarəsi okean üzərində qəzaya uğrayıb. Təyyarədəki 148 nəfərin hamısı həlak olub. Dövlət komissiyasının araşdırmasının nəticəsinə görə, qəzaya səbəb təyyarənin havada naməlum obyektlə toqquşması olub.

3. İyun ayı. Malavinin vitse-prezidenti Saulos Çilima və daha 9 nəfər təyyarə qəzasının qurbanı olub. Axtarış-xilasetmə əməliyyatı nəticəsində radarlardan itən təyyarə ölkənin şimalındakı Çikangava meşə zolağında tapılıb.

4. İyul ayı. Moskva vilayətində "Sukhoi Superjet 100" təyyarəsi havaya qalxdıqdan az sonra qəza vəziyyəti yaranıb. Hava gəmisinin 1,5 kilometr hündürlükdən düşməsi nəticəsində üç ekipaj üzvü həyatını itirib. Partlayışdan sonra təyyarənin qalıqları bir kilometr radiusda səpələnib.

5. İyulun 24-də Saurya Hava Yollarına məxsus sərnişin təyyarəsi Nepalda uçuş-enmə zolağından kənara çıxaraq qəfil alovlanıb. Yanğın nəticəsində 18 nəfər həlak olub.

6. Avqust ayı. Nyu-Yorkdan Çikaqoya uçan "Boeing 737"-nin mühərriklərindən birinin partlaması nəticəsində göyərtədəki 102 nəfərin hamısı ölüb. İstintaq qəzanın baş verməsinin səbəbi kimi texniki qüsur versiyası üzərində dayanıb.

7. Avqustun 9-da Braziliyanın San-Paulu ştatında baş verən təyyarə qəzasında heç kəs sağ çıxmayıb. Göyərtəsində 58 sərnişin və 4 ekipaj üzvü olan təyyarə Kaskaveldən havaya qalxıb Quarulyos istiqamətində hərəkət edirmiş. Təyyarə Vinhedo şəhərinin yaşayış massivlərindən birinin üzərinə düşüb. Qəzanın baş vermə səbəbi indiyədək məlum deyil.

8. Noyabr ayı. Cənubi Afrika Respublikasının səmasında iki yük təyyarəsi toqquşub. Qəzaya səbəb hava məkanında uçuş qaydalarının pozulması olub. 10-dan çox ekipaj üzvünün həlak olduğu qəzanın fəsadları bölgədə hava hərəkətinin sabitliyinin müvəqqəti olaraq pozulmasına səbəb olub.

9. Dekabr ayı. Braziliyada biznesmen Luis Klaudio Qaleazi və ailəsini aparan təyyarə ölkənin cənubundakı Qramado kurort şəhərində qəzaya uğrayıb. Təyyarə yaşayış massivinin üzərinə düşüb. Qəzada Qaleazi, həyat yoldaşı, üç qızı və digərləri daxil olmaqla 10 nəfərin həmisi həlak olub, 17 nəfər isə yaralanıb.

Qara siyahıya cari il mayın 19-da İran Prezidenti İbrahim Rəisi, Xarici işlər naziri Hüseyn Əmir Abdullahiyan və daha yeddi nəfərin həlak olduğu helikopter qəzasını, eləcə də dünyanın müxtəlif ölkələrində hərbi vertolyotlarda baş vermiş bədbəxt hadisələri əlavə etməyə ehtiyac duymadıq.

* * *

Bu kədərli siyahı Azərbaycan təyyarəsinin faciəsi ilə tamamlandı. Qəzadan dərhal sonra müxtəlif versiyalar irəli sürülməyə başlandı. Bu zaman AZAL-ın təyyarənin quş sürüsü ilə toqquşması ilə bağlı ilkin versiyasından tutmuş sosial şəbəkələrdə Rusiyanın hava məkanının müdafiəsini aktivləşdirməsi və ya Ukrayna pilotsuz uçuş aparatının zərbəsi kimi təsdiqini tapmamış ehtimallar səsləndirildi. İnternetdə hətta "Embraer 190"-un quyruq hissəsində və böyründə xarakterik güllə dəlikləri olan videomateriallar yer aldı. Amma biz Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığı ilə yaradılmış Dövlət Komissiyasının araşdırmasının nəticələrini gözləyəcəyik. Cənab Prezidentin müşavirədə qeyd etdiyi kimi, "komissiyanın işi qəzanın baş vermə səbəblərini və bütün təfərrüatlarını tam şəkildə araşdırıb, həm məni, həm də Azərbaycan ictimaiyyətini məlumatlandırmaqdan ibarətdir".

Onu da nəzərə çatdıraq ki, AZAL aviaşirkətinin pilotları təkcə postsovet məkanında deyil, bütün dünyada ən peşəkarlardan sayılırlar. Azərbaycanın mülki aviasiya bazası isə ən müasir və texniki xidmətə tam yararlı təyyarələrlə təchiz olunub.

Sonda belə ağır məqamda Azərbaycan xalqının və dövlətinin yanında olmuş, çoxsaylı insan tələfatı ilə əlaqədar başsağlığı vermiş xarici ölkə rəhbərlərinin mənəvi dəstəyini qeyd etməliyik. Bir məqamı da ayrıca vurğulamağı zəruri sayırıq. "Embraer 190" hava gəmisinin komandiri İqor Kşnyakin, ikinci pilot Aleksandr Kalyaninov, eləcə də ekipaj üzvləri Hökumə Əliyeva, Zülfüqar Əsədov və Aydan Rəhimlinin yüksək peşəkarlığı və qəhrəmanlığı sayəsində 29 insanın həyatı xilas edildi.

"Xalq qəzeti" olaraq qəza nəticəsində dünyasını dəyişənlərə Tanrıdan rəhmət, yaralılara şəfa diləyir: Vətən, başın sağ olsun! – deyirik.

*XQ*

## Qəzada həlak olan sərnişinlərin və ekipaj üzvlərinin siyahısı

**Aktauda baş verən qəzada həlak olan sərnişinlərin və ekipaj üzvlərinin siyahısı açıqlanıb.**

"Azərbaycan Hava Yolları" aviaşirkətinin J2-8243 nömrəli Bakı–Qroznı reysini yerinə yetirən "Embraer 190" təyyarəsi Aktau şəhəri yaxınlığında qəzaya uğraması nəticəsində həlak olan sərnişinlərin və ekipaj üzvlərinin siyahısı açıqlanıb.

Bu barədə Səhiyyə Nazirliyi məlumat yayıb.

Həlak olanların bəzilərinin şəxsiyyətinin müəyyənləşdirilməsi istiqamətində işlər davam edir.

**AZAL-ın J2-8243 nömrəli Bakı-Qroznı reysində həlak olan sərnişin və ekipajın siyahısı**

| № | Ad Soyad | Doğum tarixi |
|---|---|---|
| 1. | Əhmədov Rəşad | 19.09.1977 |
| 2. | Əlimirzəyeva Xədicə | 27.07.2005 |
| 3. | Əlimirzəyev Əli | 13.06.2002 |
| 4. | Anqbazova Maleyka | 08.04.1972 |
| 5. | Babayev Anar | 28.03.1991 |
| 6. | Bayramova Leyla | 12.07.1963 |
| 7. | Filiyev Ramazan | 15.07.1998 |
| 8. | Qistarov Rəşid | 01.01.1968 |
| 9. | Qistarov İbrahim | 04.09.1962 |
| 10. | Qoqamova Möminat | 23.11.1960 |
| 11. | Qurbaxov Həmzət | 12.12.1990 |
| 12. | İbrahimov Ramin | 18.08.1998 |
| 13. | İsmayılov Həbib | 21.05.1998 |
| 14. | İsmayılov İsmayıl | 23.08.1986 |
| 15. | Ceerov Xızrı | 13.01.1981 |
| 16. | Carayev Arif | 25.10.1977 |
| 17. | Carayev Hacıbrahim | 14.05.1990 |
| 18. | Kostiyev İbrahimxan | 11.03.1996 |
| 19. | Mehdiev Yadigar | 23.12.1988 |
| 20. | Mustafayev Faiq | 17.03.1990 |
| 21. | Sadıqov Qoşqar | 02.07.1997 |
| 22. | Tutunçiyev Mahmud | 10.11.2004 |
| 23. | Yeznayeva Rana | 06.09.1969 |
| 24. | Kalyaninov Aleksandr | 11.12.1992 |
| 25. | Kşnyakin İgor | 19.05.1962 |
| 26. | Əliyeva Hökumə | 08.08.1991 |

# İnsan faciəsindən qazanc güdənlər

(əvvəli 1-ci səhifədə)



Müşfiq ƏLƏSGƏRLİ
XQ-nin media eksperti

Baxmayaraq ki, Kevin qeyd edilən şəklə görə "Pulitser mükafatı"na layiq görülüb. Həmçinin, qeyd edilən şəkli çəkməklə, bütün dünyanın diqqətini Sudanda yaşanan aclıq faciəsinə cəlb edib. Mövzunu müzakirəyə çıxarmaqla, milyonlarla insanın həyatını qurtarıb. Amma hələ də onu lentə aldığı faciə anında uşağa yardım etmədiyi üçün qınayanlar tapılır. İzləyicilər bir yana, Kevin özü də sonda bu qənatə gəlib ki, şəkli çəkdiyi anda can üstə olan uşağın yardımına getməli, insanlıq vəzifəsini icra etməli idi. Bu hisslərin təsiri altında o, intihara əl atıb.

Azərbaycan Hava Yolları (AZAL) şirkətinin Bakı–Qroznı reysini yerinə yetirən təyyarəsinin dekabrın 25-də Aktau şəhəri yaxınlığında qəzaya uğraması, bu qəzaya verilən reaksiyalar "jurnalistin faciə anında davranışı" mövzusunu yenidən gündəmə gətirir. "İP yığmaq", "Like toplamaq" xətrinə yarışa girənləri izlədikcə, insanı heyrət bürüyür. Problem təkcə "Media haqqında" Qanunun, yaxud, "Jurnalistlərin Etik Davranış Kodeksi"nin tələblərinin pozulmasında, dəqiqləşdirilməmiş məlumatların paylaşılmasında deyil. Problem həm də baş verən faciədən yararlanmaq, qazanmaq niyyətindədir. Qəzanın səbəbi bəlli olmadan, insanların həyəcanı keçmədən yaşanmış faciəyə görə kimlərisə qınamaq, subyektiv mülahizələrlə yanlış şərhlər vermək, şüurlu şəkildə kimlərisə hədəfə gətirmək nəinki jurnalistikanın prinsipinə, həm də insanlığa ziddir.

Əlbəttə, baş vermiş qəza ətrafında suallar çoxdur. Məsələn, Bakı–Qroznı reysini yerinə yetirən təyyarə nə üçün Aktau şəhərinə getmişdi? Əgər təyyarədə texniki xəta yaranmışdısa və ya Qroznı aeroportunda eniş üçün problem ortaya çıxmışdısa, ən yaxın digər hava limanına üz tutmaq olmazdımı? Təyyarənin üzərində görünən qəlpə izləridirmi? Suallar çoxdur. Araşdırılmalıdır və aydın dildə cavablandırılıb xalqa çatdırılmalıdır.

Amma bütün bu sualların araşdırılması, cavablandırılması üçün qarşıda yetərli zamanımız var. Qəza baş verən ilk anda tələb başqadır. Bu sualları cavablandırmadan öncə sağ qalanları xilas etmək, xəsarət alanlara yardım göstərmək, sərnişinlərin ailələrinə, yaxınlarına təsəlliedici xəbərlər çatdırmaq lazım gəlir. Bu mərhələdə media, sadəcə olaraq, statistik informasiya yaymalı, qəzanın baş verdiyi barədə rəsmi məlumatı çatdırmalıdır. Növbəti mərhələdə şübhəli məqamların üzərində dayanmaq, sualların cavablandırılması üçün çalışmaq heç kəsdə şübhə doğurmaz.




Müşahidə olunan hal budur ki, peşəkar media subyektləri –həm milli, həm də transmilli KİV-lər məhz belə davrandılar. Qəza baş baş verən anda, dekabrın 25-də əvvəlcə statistik məlumatları yaydılar. Ədalət naminə qeyd edək ki, hətta uzun illər ərzində Azərbaycana qarşı qarayaxma kampaniyası aparan beynəlxalq media subyektləri də bu mövzuda neytral davrandılar. "Reuters", "The New York Times", "Euronews", CNN, BBC, hətta "France24" də faciəni qəza halı kimi dəyərləndirdilər, ilk məlumatlarını bu kontekstdə yaydılar. Sonra necə davranacaqlar? Mövzunu necə kontekstdən çıxaracaqlar? Bu, başqa bir məsələdir. Söhbət ilkin reaksiyadan, insan faciəsinə instinktiv yanaşmadan gedir.

Sosial şəbəkələrin, xüsusən, xaricdə məskunlaşan və şərti olaraq "söyüş müxalifəti" adlandırılan platformaların bu qəzaya yanaşması isə nəinki qeyri-peşəkar, həm də qeyri-insani oldu. Faciə haqqında ilk məlumatların yayıldığı anda mövzunu kontekstdən çıxarmaq, bu qəzadan hökuməti qınamaq üçün fürsət kimi yararlanmaq təkcə xəbər standartlarının deyil, həm də insanlıq meyarlarının pozulması deməkdir.

# İsveçli deputatın İrəvanla "kəsişən" maraqları

(əvvəli 5-ci səhifədə)

Onu da bildirək ki, Prezident İlham Əliyev 2024-cü il yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində Ermənistanın məlum təşəbbüsü barədə danışarkən demişdir: "Ona görə Ermənistan tərəfinə məsləhətim odur ki, burada manipulyasiyalarla məşğul olmasın. Onların Azərbaycanın əsas hissəsindən Naxçıvana təklif etdiyi marşrut tamamilə yararsızdır və ilboyu o marşrutdan istifadə etmək mümkün olmayacaq. Çünki orada hava şəraiti də və relyef də çox sərtdir. Ən düzgün variant Mehri ərazisindədir. Onsuz da sovet vaxtında oradan dəmir yolu keçirdi və avtomobil yolu da tikilirdi. Həm dəmir yolu, həm də avtomobil yolu oradan keçməlidir. Azərbaycandan Azərbaycana, dediyim kimi, heç bir yoxlama aparılmadan insanlar və yüklər keçməlidir. Əks təqdirdə, Ermənistan əbədi dalan kimi qalacaq və əgər, dediyim marşrut açılmasa, biz Ermənistanla heç bir başqa yerdə sərhədimizi açmaq fikrində deyilik. Yəni, beləlikl̇ə, onlar bundan daha çox ziyan görəcəklər, nəinki xeyir".

Buna baxmayaraq, "Armenpress"in saytında dünən yenə də bu istiqamətdə açıqlama yerləşdirilib. Bu dəfə İsveç parlamentinin üzvü Erik Helsbornun fikirlərinə yer verilib. Deputat Ermənistanın "Dünyanın kəsişməsi" layihəsini və İrəvanın bu istiqamətdə təşəbbüsünü müsbət qiymətləndirdiyini bildirib.

Cənubi Qafqazda kommunikasiyaların açılmasına, eləcə də bu məsələ ilə bağlı İrəvanla Bakı arasında fikir ayrılığına toxunan E.Helsborn deyib: "İrəvanın problemi həll etmək üçün fəal işlədiyini görmək xoşdur". O, bu məsələdə Ermənistanın mövqeyindən çıxış edib və vurğulayıb ki, Ermənistan ərazisindən yükdaşımalar "İrəvanın şərtlərinə uyğun" həyata keçirilməlidir. "Aydındır ki, Azərbaycan öz əsas ərazisindən qərb anklavının ərazisinə (Naxçıvan Muxtar Respublikası nəzərdə tutulur–S.H.) insanların və yüklərin daşınmasını asanlaşdırmaq istəyir. Ancaq bu proses Ermənistanın şərtləri ilə həyata keçirilməlidir" – deməklə İrəvanın əsassız iddialarına haqq qazandırmış olub.



O, daha sonra öz cəfəng danışığında bir qədər də irəli gedərək N.Paşinyanın Azərbaycan Konstitusiyasında guya Ermənistan ərazisi ilə bağlı iddiaların yer alması fikirlərinə haqq qazandırıb. "Azərbaycanın təcavüz tarixini nəzərə alaraq deyərdim ki, bu cür narahatlıqları başa düşmək olar" – deyə sərsəmləyib.

İsveçli deputatın fikirlərinə münasibət bildirən **"World Panorama" Strateji Araşdırmalar və İnkişaf Mərkəzinin rəhbəri, politoloq Ramiyə Məmmədova** dedi ki, Qərb heç bir halda Cənubi Qafqazı əldən buraxmaq istəmir. Onun sözlərinə görə, onların Gürcüstan üzrə planları iflasa uğrayıb, indi ümid Ermənistana qalıb: "Qərb Cənubi Qafqazda Ermənistan vasitəsilə möhkəmlənmək istəyir. Azərbaycan isə bölgənin ən güclü, ən inkişaf etmiş ölkəsi olduğu üçün Ermənistanı əllərində alətə çevirərək bizə qarşı istifadə etməyə çalışırlar".



Müsahibimiz bildirdi ki, isveçli deputatın sözləri, ümumiyyətlə, gülüş doğurur və cəfəngiyyatdır: "O qeyd edir ki, Azərbaycan Ermənistanın suverenliyinə qəsd edə bilər. Öz fikirlərini belə əsaslandırmağa çalışır ki, guya, biz bunu daha əvvəl də etmişik. Görünən odur ki, bu deputat tarixi bilmir. Ən azı yaxın tarixdən xəbərsizdir. O, 1988-ci ildən bu yana Ermənistanın Azərbaycan dövlətinə və xalqına yaşatdığı olmazın müsibətləri görmür. Daha doğrusu, görmək istəmir. Onun qulaqları da bu barədə xəbərləri eşitmək istəmir. Əgər eşitmək istəsəydi, eşidərdi. Çünki biz bu barədə hər yerdə danışırıq. İnternetdə açıq mənbələrdə bununla bağlı kifayət qədər material var. Məsləhət görərdim ki, onlarla tanış olsun. Ancaq bu materiallarla tanışlıq ona sərf etmir. Onu danışdıran erməni lobbisinin verdiyi pullardır. Böyük ehtimalla deputat Erik Helsborn da erməni lobbisindən böyük məbləğdə vəsait alanlar sırasındadır. Ona görə də ermənilərin maraqlarından çıxış edərək regionda kommunikasiyaların açılmasına onların maraqları nöqteyi-nəzərindən yanaşır və bununla bağlı cəfəngiyat edir. O, tarixi reallıqları açıq-aydın təhrif edir".

Politoloq qeyd etdi ki, Ermənistanın nəqliyyat kommunikasiyalarına təkbaşına nəzarət etməsi, Naxçıvana, başqa sözlə Azərbaycanın bir bölgəsindən digərinə gedən vətəndaşlarımızla bağlı pasport və gömrük yoxlaması həyata keçirmək istəyi bizim üçün böyük təhlükə deməkdir: "Ermənistan Azərbaycanın suveren ərazilərini "Artsax" adlandıraraq onu işğal etmiş ölkədir. Bu işğal nəticəsində ölkəmiz böyük insan itkisinə və maddi ziyana məruz qalıb. Prezident İlham Əliyev dekabrın 17-də verdiyi müsahibə zamanı bildirdi ki, bu yaxınlarda biz vurulmuş zərərin təhlilini başa çatdırdıq, həm də bunu ətraflı etdik. Biz buna 4 il vaxt sərf etdik və orada hər şey sənədlərlə qeyd olunub. Bu, təqribən 150 milyard dollardan çoxdur, yəni, işğal illərində vurulan zərərdir. Biz bunu heç zaman unutmamışıq və unutmayacağıq. Bu mənada Ermənistana etibar etməkdən danışmaq hələ çox tezdir. Biz yola yalnız üçüncü ölkənin nəzarət etməsinə razılıq verə bilərik. Bütövlükdə, ölkə, xalq olaraq nəqliyyat kommunikasiyalarının açılmasına maraqlıyıq. Çünki bu zaman vətəndaşlarımız Naxçıvana daha rahat gediş-gəliş imkanı əldə edəcək və yüklərin daşınması da asanlaşacaq".

*Səxavət HƏMİD*
*XQ*

# Uğurlu idarəetmə və İlham Əliyev təcrübəsi



## III MƏQALƏ

**Azərbaycan öz xarici siyasətini xalqımızın milli maraqlarına uyğun şəkildə həyata keçirir və bu xarici siyasət uğurludur. Bizim bütün qonşularla çox səmərəli, qarşılıqlı surətdə faydalı əlaqələrimiz var. Beynəlxalq təşkilatlarda Azərbaycanın nüfuzu və rolu artır.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

### Regional təhlükəsizliyin arxitekturası

II məqalədəki son tezisin ümumi məzmunu bütövlükdə Cənubi Qafqazın yeni təhlükəsizlik arxitekturasının formalaşması ilə bağlıdır. Yerli dövlətlərin milli təhlükəsizliklərinin regionun kollektiv maraqlarına uyğun təmin edilməsi məsələsi faktiki olaraq Cənubi Qafqazın yeni təhlükəsizlik arxitekturasının mərkəzi məqamıdır.

Politoloji baxımdan burada prinsipial yenilik ondan ibarətdir ki, bir neçə əsrdir davam edən regional təhlükəsizlikdə yer almış qeyri-təbiilik, antiregional mahiyyətli təminat sistemi dəyişir. Onun əsasına hər bir region dövlətinin milli təhlükəsizliyinin təmini ilə digər region ölkələrinin milli təhlükəsizliyinin qarşılıqlı əlaqəsi faktoru qoyulur.

Cənubi Qafqaz ölkələrinin milli təhlükəsizliklərinin avtonomluqlarını saxlamaqla pozitiv müstəvidə qarşılıqlı əlaqələrinin real olaraq təmin olunması üçün isə Prezident İlham Əliyev enerji təhlükəsizliyini kollektiv maraqların təmininin əsasına yerləşdirmişdir. Həmin bağlılıqda dövlət başçısının aşağıdakı fikri çox maraqlıdır. Prezident İlham Əliyev demişdir: "Bizim xarici ölkələrlə münasibətlərimiz yalnız qarşılıqlı maraqlar və qarşılıqlı hörmət əsasında qurulur".

Bu özəllik nəzəri-politoloji və fəlsəfi aspektlərdə tədqiqat üçün maraqlı və aktual mövzu olmaqla yanaşı, onun realpolitikanın feili komponentinə çevrilməsi prosesi də kifayət qədər rasional yanaşma tələb edir. İlham Əliyevin siyasi liderlik təcrübəsində həmin xüsusiyyət çox ciddi yer tutur.

Filosoflar və politoloqlar müasir geosiyasi, geoiqtisadi və geomədəni şərtlər daxilində enerji təhlükəsizliyinin hansı formada regional kollektiv maraqlara cavab verə bilən məzmunda vahid siyasi məntiq çərçivəsinə gətirilə bilməsini araşdırırlar.

Burada hər hansı təşəbbüskar dövlətin təklif etdiyi enerji əməkdaşlıq platforması həm də qlobal geosiyasi yeniləşmələr və risklər "axınında" səmərəverici olmalıdır. Faktiki olaraq həmin məqam milli, regional, multiregional və qlobal miqyaslarda bir-biri ilə kəsişən çox sayda faktoru nəticəverici, sistemli, özünütəşkil məcrasına yönəltməyi ifadə edir. Daha konkret səviyyədə faktlara müraciət edə bilərik.

Prezident İlham Əliyevin liderlik təcrübəsi Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum, Bakı–Tbilisi–Qars, Cənub Qaz Dəhlizi, Orta Dəhliz, Avropada Qaz Konnektorları Şəbəkəsi, bərpaolunan enerji layihələri, müxtəlif nəqliyyat-logistika marşrutları və digər proqramlar çərçivəsində Cənubi Qafqaz dövlətlərinin kollektiv maraqlarının təminini yeni məzmunda onların hər birinin milli təhlükəsizliklərinin təmini ilə bağlaya bilmişdir.

Bəli, hətta Ermənistan da istisna deyildir. Çünki Azərbaycanın Gürcüstanla həyata keçirdiyi real layihələrdən Ermənistanın da faydalanma imkanının olduğu aydın bir şəkildə rəsmi Bakının fəaliyyətində yerini saxlamışdır.

Başqa maraqlı məsələ ondan ibarətdir ki, Ermənistanın qeyri-konstruktiv mövqeyində qalması dönəmində belə Prezident İlham Əliyevin enerji təhlükəsizliyini kollektiv regional maraqlar kontekstində milli təhlükəsizliklərin təmininin mərkəzinə gətirməsi özünü göstərmişdir və bunun hesabına Cənubi Qafqazda hələ də sabitlikdir. XXI əsrdə siyasi liderlik təcrübəsində, razılaşaq ki, bu keyfiyyət xüsusi əhəmiyyət kəsb edir. Həm orijinal nümunədir, həm də politologiya üçün yeni siyasi fenomendir.

Azərbaycan liderinin yeni siyasi liderlik təcrübəsi deyəndə biz, məhz bu kimi aktual məsələləri nəzərdə tuturuq. Vurğuladığımız liderlik özəlliyini həmin təcrübənin "təməl komponenti" kimi də adlandıra bilərik. Buradan dördüncü prinsipi alırıq:

### Regional maraqların sistemyaradıcı komponentləri

Öncə "sistemyaradıcı komponent" anlayışının sinergetik, fəlsəfi və politoloji izahına baxaq. "Sistemyaradıcı element (və ya komponent)" termini sinergetikadan qaynaqlanır. Bu, hər hansı mürəkkəb özünütəşkiledən sistemin elə tərkib hissələrini nəzərdə tutur ki, onlar, ümumiyyətlə, obyektin özünü inkişaf etdirməsində həlledici, aparıcı, müəyyənedici və bütövləşdirici rol oynayırlar.

Onları sinergetikada iki qrupa bölürlər: idarəedici parametrlər və nizamlayıcı parametrlər. Həmin qrup parametrlər qarşılıqlı əlaqədə faktiki olaraq sistemin gələcək taleyini, yəni təkamül və ya tənəzzül istiqamətlərini müəyyən edirlər. "Təkamül baş verərsə, özünütəşkil prosesi getmişdir", –deyirlər, əks halda "sistem dağılmışdır" nəticəsi çıxarılır.

Deməli, burada sinergetik baxımdan çox incə bir məqam vardır ki, onun necə reallaşmasından bütövlükdə baxılan sistemin (obyektin, o cümlədən cəmiyyətin və dövlətin) taleyi asılıdır. Liderin məharəti və uzaqgörənliyi məhz həmin seçim anında bütün potensialı ilə özünü göstərir. Yəni siyasi lider üçün hər bir tarixi dönəmdə sistemyaradıcı komponentlərin qarşılıqı əlaqəsinin tərəqqiyə aparması prinsipial anlam kəsb edir.

"Sistemyaradıcı komponent" ifadəsinin fəlsəfi dərki sinergetik anlama əsaslanır. Lakin sinergetikadan fərqli olaraq fəlsəfədə "sistemyaratmaq" idraki strategiya özəlliyi mümkün ssenarilərdən biri kimi dərk edilir. Bu baxımdan sistemyaradıcı elementlər ümumiləşdirilərək, bütövlükdə, istənilən obyektin dərk edilməsinin ümumi qneseoloji və metodoloji prinsip səviyyəsinə yüksəldilir. Onun fəlsəfi kriteriyası isə sistemyaradıcı komponentlərin yeni mənaları yaratması özəlliyi olur. Ancaq burada fəlsəfə üçün də çox aktual olan iki faktoru diqqətə almaq gərəkdir. Onların hər ikisinin siyasi interpretasiyası birbaşa liderlik keyfiyyəti ilə əlaqəlidir.

Birinci faktor istənilən dərketmə situasiyasında ümumi anlamda "müşahidəçi"nin mövcudluğudur. Yəni lakonik bunu belə ifadə edirlər: "nə deyilirsə, kimlər tərəfindənsə deyilir" – universal və tam obyektiv olan söz və ya fikir mövcud deyildir. Deməli, sistemyaradıcı komponentlərin vahid məntiqi məcraya yönəldilməsi də "kimsə" tərəfindən olmalıdır. Həmin yönəldici və situasiyanı dərketmə baxımından aydınlaşdırıcı, məzmunlaşdırıcı subyekt siyasi kontekstdə liderdir!

İkinci faktor hər bir dərketmə situasiyasında mütləq surətdə "vasitəçi, aralıq sahəsi"nin mövcud olması qəbul edilir. Buna fizikada "interfeys zonası", sinergetikada isə "emercent interfeys zonası" deyilər. Həmin terminlərin fəlsəfi izahı çox mürəkkəbdir və burada ona baş vurmaq faydalı sayılmaz. Ancaq onu vurğulayaq ki. "emercent interfeys" termini fəaliyyət sahəsində yeni mənaların spontan (özözünə), gözlənilmədən və müəyyən dərəcədə riskli xarakterdə yarandıqlarını ifadə edirlər.

Bu sonuncu tezisin siyasi interpretasiyasını verək. Yuxarıda biz müəyyən dərəcədə sistemyaradıcı komponentlərin sinergetik və fəlsəfi anlamı fonunda politoloji məqamlarına da baxdıq. Burada onları ümumiləşdirə bilərik.

Yuxarıdakı təqdimatdan belə alınır ki, hər bir lider, eyni zamanda, həm prosesi yaradandır, həm də onu müşahidə edəndir. Yaradıcılıqla müşahidəçiliyin orijinal nisbəti hər bir situasiyada liderin fəaliyyət pozisiyasını (mövqeyini) müəyyən edir. Bu da o deməkdir ki, lider eyni dərəcədə "nəzəriyyəçi" və "praqmatik" olmaldır. Lider bu iki əsas keyfiyyətin vəhdətində nəticələr alır və onları qiymətləndirir.

Daha sadə ifadə ilə bu, liderin situasiyanı yaratması ilə onu müşahidə etməsi sıx əlaqədə həyata keçirmək məcburiyyətini əks etdirir. Prinsipcə, liderliyi çətin bir fəaliyyət sahəsi edən başlıca məsələ bununla bağlıdır. Çünki bütün hallarda liderin öz fəaliyyətini qiymətləndirməsi subyektiv xarakterli hadisə olacaqdır. Ancaq uğurlu liderlik və siyasi liderlik təcrübəsi fenomenləri məhz bu qeyri-müəyyən və riskli prosesdə cəmiyyətlə dövləti uğura aparan şərtin ödənməsini tələb edir. İlham Əliyev XXI əsrin mürəkkəb, ziddiyyətli, sürətli dinamikaya malik şərtləri fonunda həmin vəzifənin öhdəsindən uğurla gəlməkdədir. Bu anlamda da İlham Əliyevin siyasi liderlik təcrübəsindən nümunə kimi danışa bilərik.

İndi bu qənaətin işığında yuxarıda qoyduğumuz sualın cavabına qayıda bilərik. Belə alınır ki, İlham Əliyev Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum, Bakı–Tbilisi–Qars, Cənub Qaz Layihəsi, Orta Dəhliz, Avropada Qaz Konnektorları Şəbəkəsinə, bərpaolunan enerji layihələrinə, müxtəlif nəqliyyat loqistika marşrutlara və digər proqramlara region üçün sistemyaradıcı komponentlər kimi məna verə bilmişdir. Onun sayəsində Azərbaycanın enerji təhlükəsizliyini təmin etmək xətti avtomatik olaraq, regionun digər dövlətlərinin də enerji təhlükəsizliyi parametrinə çevrilmişdir.

Bu şərt ödənməsəydi, region miqyasında milli təhlükəsizliklərin təmininin qarşılıqlı asılılığı gerçəkliyi real olaraq meydana gəlməzdi. Onun reallaşması mexanizmi isə birbaşa vurğulanan layihələrin hər birinin maliyyə, maddi, geosiyasi, geoiqtisadi və mədəni dividendlərinin regionun sabitliyi, əməkdaşlığı və təhlükəsizliyi üçün münbit mühitin yaradılmasına bağlıdır. İlham Əliyev Cənubi Qafqaz üçün bu mürəkkəb məsələni həll etmişdir.

Hazırda mövcud layihələr və nəzərdə tutulanlarrın hər biri yekun halında regionun təhlükəsizliyi və rifahı üçün fayda verir. Məhz bu cəlbedicilik Gürcüstanın geosiyasi seçiminə yenidən baxmasına və hətta Ermənistanın bir sıra məsələlərə fərqli yanaşmağa başlamasına təkan vermişdir.

Beləliklə, İlham Əliyevin siyasi liderlik təcrübəsinin milli və regional konteksti kifayət qədər aydın faktorlara əsaslanır. Daha geniş miqyasda bu təcrübənin regionlararası və qlobal əlamətlərini araşdırmaq zəruridir. Müasir liderliyin nümunəsi kimi İlham Əliyevin siyasi liderlik təcrübəsi həm öyrənilməli, həm də təşviq edilməlidir. İndi bütün dünyanın müsbət nəticəverici siyasi impulslara, təşəbbüslərə ciddi ehtiyacı vardır. Bu isə yalnız dünya miqyasında qarşılıqlı təcrübə mübadiləsi yolu ilə mümkün ola bilər.

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# "Böyük manipulyator"

**Mark ENDEVELD**

***(əvvəli qəzetin 17, 18, 19, 20, 21, 22, 24, 25, 26 dekabr tarixli saylarında)***

Benalla "Libération" qəzetinin jurnalistinə onu da deyib ki, "mən, həqiqətən də, Djuri ilə Londonda görüşmüşəm... ancaq sizin qəzet bizim görüşümüzün tarixini səhv yazdığından, mən bilərəkdən bunu inkar etdim ki, sizin məqalənizdəki xəbərin yalan olduğunu hamı bilsin". Benalla bir müddət sonra "Mediapart" saytına verdiyi müsahibəsində də özünə haqq qazandırır.... Gördüyünüz kimi, bu iki Aleksandr bir-birini çoxdan tanıyırmış. Görəsən, Emmanuel Makronun Əlcəzairə səfəri zamanı onlar El Orassi hotelində də görüşüblər?

Djuri Londonda olarkən gələcəkdə başına nələr gələcəyini götür-qoy edir. Tale ona nə bəxş edəcək? Bir neçə aylıq prosesdən sonra nəhayət, Britaniya Ədliyyə Nazirliyi 2018-ci il yanvarın 7-də Londonun "Heathtow" hava limanında həbs olunan Aleksandr Djurini 2019-cu ilin fevral ayının sonunda Fransaya transferi ilə bağlı qərar verir. Bu adamı Fransanın Ədliyyə Nazirliyi 2017-ci ilin dekabr ayından (onun Fransanın Əlcəzairdəki səfirliyindəki qəbulda iştirakından sonra) "çirkli pullar yumaqda" və "korrupsiyada", eləcə də "dövlət əmlakının mənimsənilməsində" ittiham etdiyi üçün bütün Avropa ölkələrində axtarışa vermişdi.

Djuri onu aeroportda həbs elədiklərinə görə ingilisləri apelyasiya məhkəməsinə verir. Apelyasiya məhkəməsi qərar çıxarana qədər o, Londonda polis nəzarəti altında qalır. Dekabrın sonunda Benallanın diplomatic pasportları ilə bağlı skandal ortaya çıxanda, nə qədər müəmmalı görünsə də, nə qədər ağlasığmaz olsa da, bu iki Aleksandr Londonda yenidən görüşürlər. Prezident Makronun şəxsi himayəsi altında olan bu iki şübhəli şəxs Londonun Belqraviya rayonundakı məşhur "Goring" hotelində bir neçə dəfə görüş təyin edirlər. (Bu hotel o qədər məşhurdur ki, hətta İngiltərə kraliçası belə tez-tez ora çay içməyə gəlir) Burda daha bir faktı, qətiyyən banal olmayan bir faktı da qeyd etmək lazımdır. İki Aleksandrın Londondakı bu görüşlərində üçüncü bir personaj da iştirak edir... O da kim olsa yaxşıdır? Əlcəzairin çox strateji Milli İnvestisiya Fondunun (FNI) baş direktoru Aleksandr Djurinin yaxın dostu Ahsan Haddad! Onun Milli İnvestisiya Fondu (FNI), Əlcəzairin Milli Bankı (BNA) ilə birlikdə Əlcəzair rejiminin İsveçrədə yerləşən Əlcəzair Xarici Ticarət bankını (BACE) idarə edir!

Elə bu ərəfədə "Le Canard enchaîné" qəzeti öz səhifələrində prezident Makronun onun keçmiş cangüdəni haqqında dediklərini çap edir. "Benalla hamıya sübut etməyə çalışır ki, guya mənimlə çox yaxındır. Ona görə də mənə düşmən olan bəzi şəbəkələr, onun dediklərini əllərində bayraq edib mənə yerli-yersiz hücumlar edirlər. Benalla onların dəyirmanına su tökən bir axmaqdır...". Hiss olunur ki, Makron öz adının bəzi xoşagəlməz adamlarla bir yerdə çəkilməsini istəmir. O da təəccüblüdür ki, "mənə düşmən olan bəzi şəbəkələr" deyən Emmanuel Makron əvvəllər tez-tez bu şəbəkələrdən öz xeyri üçün bolluca istifadə edirdi, xüsusilə Əlcəzairdə. Benalla məsələsinə gəlincə isə Yelisey sarayında, eləcə də nazirlər kabinetində çox adam "Makrona düşmən olan" bu şəbəkələrlə əlbirdirlər... istər, solçular olsun, istər, sağçılar.

### Prezidentin casusu

Bu adamın adı heç bir rəsmi görüşlərdə çəkilmir, heç bir orqaniqramda onun şəkli yoxdur. Ona polisdən nə çağırış gələcək, nə də Senatın araşdırma komissiyası ona "Benalla məsələsi" ilə bağlı suallar verəcək. Bununla belə, "Le Monde" qəzeti Aleksandr Benallanın mayın 1-də nümayiş zamanı çıxardığı oyunlar barədə çap etdiyi məqalədə 38 yaşlı Lüdovik Şakerin də adını çəkəndə, Yelisey sarayının divarları titrəyir, prezident də, onun klanı da panikaya düşür. Özü də bu panika Benalla məsələsi ilə bağlı panikayla müqayisədə daha böyükdür. Bu da o deməkdir ki, bütün bu problemlər, həqiqətən də dövlət səviyyəsində, dövlət başçısı və onun ətrafındakı adamlar tərəfindən yaradılıb... nə qədər acınacaqlı görünsə də, bu hadisə yay aylarında televiziyada gedən seriala bənzəyir. Lüdovik Şakerin sadəcə olaraq bircə dəfə qəzetdə adının çəkilməsi prezident sarayının mətbuat xidmətində zəlzələyə səbəb olur.

Çünki Emmanuel Makron prezident seçiləndən bəri Şaker onun siyasi sisteminin mərkəzində baş rol oynayır. "O, prezident aparatının döyünən ürəyidir", – deyə Müdafiə Nazirliyinin yüksək rütbəli bir məmuru etiraf edir. O vaxta qədər demək olar ki, heç kimin tanımadığı bu gənc, admiral Bernard Rojelə tabe olan "missiya icraçısıdır".

### Kimdir Bernard Rojel?

Respublika Prezidentinin müdafiə kabinetinin rəisi, milli müdafiə sisteminin çox məsul bir fiquru, dövlət başçısı ilə paralel Milli Ordunun ali baş komandanı, quru və hava qoşunlarının, eləcə də dəniz donanmasının baş komandanlıqları arasındakı əlaqə qrupunun rəhbəri. Ona bu çox çətin və məsuliyyətli işdə yüksək rütbəli zabitlər, hər üç ordunun generalları, eləcə də xarici kəşfiyyat zabitləri kömək edirlər. Bir sözlə, Yelisey sarayının ali baş komandanlığı ayrıca bir qaladır və burada "Fransa dövlətinin müdafiə sirri" saxlanılır... Üstəlik, "dövlətin ən əsas müdafiə sirri!". Dövlət müdafiə sirrinin saxlanıldığı belə bir gizli yerə "missiya icraçısı" təyin olunması V Respublika dövründə görünməmiş bir hadisədir. Yaxşı, hələ bu bir yana... bəs ehtiyatda olan sadə bir hərbiçi Lüdovik Şaker niyə belə bir məsul vəzifəyə təyin olunub? Hansı səbəblərə görə senatorlara onun haqqında sual verməyə icazə verilmir?




Nə üçün Benalla məsələsi barədə təhqiqat aparan komissiya onu istintaqa çağırmağı "ağlına belə gətirmədi?".

Bizim bu suallarımız qarşısında bəzi həmsöhbətlərimiz Lüdovik Şakerin rolunu minimuma endirməyə çalışdılar, "biz heç vaxt onu (Lüdovik Şaker) Yelisey sarayındakı mühüm iclaslarda görmürük", "onu sadəcə olaraq Makronun seçki kampaniyası zamanı göstərdiyi xidmətlərinə görə bu vəzifəyə təyin etdilər..." Doğrudur, o da həqiqətdir ki, yeni Milli Kəşfiyyat koordinasiyasının və terrorizmlə mübarizə qrupunun direktoru (CNRLT) Pier Buske dö Florian onu (Lüdovik Şaker) öz şöbəsinə götürmədi. Buna baxmayaraq, prezident seçkilərinin ikinci turuna bir neçə gün qalmış bir nəfər strategiya eksperti "Atlantico" informasiya saytına verdiyi müsahibəsində Lüdovik Şakerin adını çəkinmədən qeyd edir və əlavə edir ki, "onun (Lüdovik Şaker) bu vəzifəyə keçməyini Makron hələ kampaniya zamanı qərara almışdı..." "... o, Makrona yaxın adamdır, həm də Çini və çinlilərin şəbəkələrini yaxşı tanıyır. Olsun. Amma nə səbəbə o bu vəzifəyə təyin olunub? Bu otuzotuz beş yaşlarında olan təcrübəsiz gənc bir oğlan islamçı terroristlərə qarşı mübarizə aparan gizli informasiya xidmətlərinin ağırçəkili professional agentləri kimi mübarizə aparmağı bacara biləcəkmi? Və ya Amerika gizli agentləri ilə bu mövzuda gündəlik dialoqa girib strateji qərarlar qəbul etməyi bacaracaqmı?", – deyə bu "strategiya eksperti" ironiya ilə replika atır.

Makronun yaxın dostu... 2018-ci ildə Şaker quru qoşunlarının ehtiyatda olan komandiri təyin olunur. Müdafiə Nazirliyinin kəşfiyyat qrupunun ağırçəkili agentlərindən biri bizə bu məsələni başqa cür təqdim edir. Bu adam Yelisey sarayındakı "ikimərtəbəli müdafiə sisteminin" varlığından danışır. Birinci mərtəbədə rəsmi idarəçilər, o cümlədən Nazirlər Kabinetinin direktoru, Patrik Strzoda; ikinci mərtəbədə isə "vaxtilə Makronun seçki kampaniyasını təşkil edən 6 nəfərdən ibarət qara kabinet...". Bu sözlərin müəllifi həm Lüdovik Şakeri hədəfə alır, həm də təbii ki, Yelisey sarayının baş katibi Aleksi Kohleri. Bu sonuncu, Makron prezident seçiləndən sonra dövlət müdafiə sistemini mərkəzləşdirməyə qərar vermişdi.

"Təhlükəsizlik və müdafiə məsələlərində Makron ağlına nə gəlir onu da eləyir...". Başqa bir həmsöhbətimiz bizə izah etdi ki, "Lüdovik Şaker seçki kampaniyası zamanı Makronun bu həssas mövzulara giriş qapısı idi...". O vaxt Lüdovik Şaker müdafiə problemləri üzərində işləyən qrupa daxil idi. "Neynəmək olar... V Respublikada həmişə qaranlıq bir sahə olub. Və bu dövlət üçün zəruridir", – deyə kəşfiyyat qrupunun başqa bir fiquru prezidentə haqq qazandırmağa çalışır.

**(ardı var)**

# Azərbaycan cəlbedici investisiya məkanıdır

## *Bu il kapital qoyuluşu 16 milyard manata çatıb*



**(əvvəli 1-ci səhifədə)**

Dövlət Statistika Komitəsinin məlumatına görə, 2024-cü ilin yanvar–noyabr aylarında ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 15 milyard 910,3 milyon manat investisiya yönəldilib. İlin 11 ayında ölkənin neft-qaz sektoruna 5 milyard 67,2 milyon manat sərf edilib. Hesabat dövründə qeyri-neft-qaz sektorunun inkişafına yönəldilmiş 10 milyard 843,1 milyon manatlıq vəsaitin 1 milyard 46 milyon manatı və ya 6,6 faizi bu sənaye sahələrinin inkişafına xərclənib. Yanvar–noyabr aylarında ölkə üzrə sərf olunmuş ümumi sərmayənin 8 milyard 138,8 milyon manatı və ya 51,2 faizi məhsul istehsalı sahələrinə, 5 milyard 617,8 milyon manatı (35,3 faizi) xidmət sahələrinə, 2 milyard 153,7 milyon manatı (13,5 faizi) isə yaşayış evlərinin tikintisinə yönəldilib.

Cari ilin 11 ayında ölkə iqtisadiyyatına yönəldilmiş investisiyaların 56,7 faizi dövlət, 43,3 faizi isə qeyri-dövlət sektorunu təmsil edən sərmayədarların payına düşüb. Hesabat dövründə daxili mənbələrdən əsas kapitala yönəldilmiş vəsaitin həcmi ümumi investisiyanın 82,1 faizini təşkil edib. İnvestisiyaların 38,4 faizi sənaye, 24,9 faizi tikinti, 23,8 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,2 faizi informasiya və rabitə, 1,8 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,4 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 1,5 faizi maliyyə və sığorta fəaliyyəti, 1,3 faizi dövlət idarəetməsi və müdafiə, 0,8 faizi təhsil, 0,7 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, hər biri 0,5 faiz olmaqla inzibati və yardımçı xidmətlərin göstərilməsi, peşə, elmi və texniki fəaliyyət, əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 0,4 faizi digər sahələrdə xidmətlərin göstərilməsi, 0,2 faizi istirahət, əyləncə və incəsənət sahələrinə sərf edilib.

Yanvar–noyabr aylarında ölkə üzrə ümumi kapital qoyuluşunun 71,9 faizi tikinti-quraşdırma işlərinə xərclənib. Hesabat dövründə tikinti müəssisələri tərəfindən (fərdi sahibkarlar nəzərə alınmaqla) yerinə yetirilmiş inşaat işlərinin 81,9 faizini tikinti, yenidənqurma və genişləndirmə, 8,6 faizini əsaslı təmir, 5,3 faizini cari təmir, 4,2 faizini sair tikinti işləri təşkil edib. Ümumi inşaat işlərinin 88,7 faizi isə qeyri-dövlət tikinti müəssisələri tərəfindən yerinə yetirilib. Əsaslı kapital qoyuluşu hesabına Bakı şəhərində Dövlət Sərhəd Xidmətinin hərbi hospital kompleksi, "Crescent Mall" ticarət mərkəzi, "Zəngilan" tankeri, "Landau School" Təhsil Kompleksi, "The Grand" apart hoteli, Böyükşor-Pirşağı yeni avtomobil yolu, Mərkəzi Parkın üçüncü hissəsi, Zəfər parkı, Gəncə şəhərində idman sarayı, Abşeron rayonunda Palçıq Vulkanları Turizm Kompleksi, Cəbrayıl rayonunda "Xudafərin" və "Qız Qalası" hidroqovşaqları, Mehdi Mehdizadə adına tam orta məktəbi, yaşayış kompleksi, Füzuli rayonunda Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi, Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda tunel, Laçın rayonunda "Zabux" və "Qarıqışlaq" kiçik su elektrik stansiyaları, Lənkəran regional "Asan xidmət" mərkəzi, Qəbələdə 110/35/10 kilovoltluq "Hacıalılı" elektrik yarımstansiyası, Regional Təlim Mərkəzi, Rayon Mərkəzi Xəstəxanası, Böyük Pirəli-Kiçik Pirəli-Xırxatala-Cığatelli-Həmzəli avtomobil yolu, Şuşada yaşayış kompleksi, sutəmizləyici qurğular kompleksi, Zəngilan rayonunda "Ağalı" hoteli, "Zəngilan" və "Şayıflı" su elektrik stansiyaları, məscid, Rəqəmsal İdarəetmə Mərkəzi, "Sarıqışlaq" Su Elektrik Stansiyası və s. mühüm obyektlər ilin buraxılış obyektlərinin siyahısına daxil edilib.

Yeri gəlmişkən 2024-cü ildən etibarən Şərqi Zəngəzur iqtisadi rayonu üzrə də kredit qoyuluşlarına başlanılıb. Mərkəzi Bankın məlumatına görə, bu il dekabrın 1-dək bölgədə həyata keçirilən bərpa-quruculuq işlərinə 17 milyon 392 min manat vəsait xərclənib. Bu göstərici üzrə orta faiz dərəcəsi isə 12,98 faiz təşkil edib. Sözügedən dövr ərzində regiona qoyulmuş kreditlərin 16 milyon 695 min manatı milli valyutada, 698 min manatı isə sərbəst dönərli valyutada yerləşdirilib.

Cari ilin ötən dövründə ölkə iqtisadiyyatına birbaşa xarici investisiya qoyuluşu da davam edib. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2024-cü ilin yanvar-noyabr aylarında xarici ölkələr və beynəlxalq təşkilatlar tərəfindən Azərbaycan iqtisadiyyatına 2 milyard 843,8 manat investisiya yönəldilib. Ümumi xarici investisiyanın 2 milyard 736,4 milyon manatı (96,2 faizi) Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı, ABŞ, Türkiyə, İsveçrə, Yaponiya, Rusiya, Norveç, İran, Hindistan, Birləşmiş Ərəb Əmirlikləri, Fransa, Qırğızıstan və Macarıstan sərmayədarlarına məxsus olub.

# Elektrik təchizatı şəbəkələri rəqəmsallaşdırılır

**Biznes mühiti və beynəlxalq reytinqlər üzrə komissiyanın Energetika Nazirliyinin rəhbərlik etdiyi "Elektrik təchizatı şəbəkələrinə qoşulma" işçi qrupunun 2024-cü ilin yekunlarına həsr olunmuş hesabat xarakterli iclası olub.**

Videokonfrans formatında keçirilən iclası işçi qrupunun rəhbəri, energetika nazirinin müavini Samir Vəliyev açaraq gündəlikdə duran məsələləri diqqətə çatdırıb. O il ərzində bu sahədə əldə edilmiş nailiyyətlərin və qarşıda duran vəzifələrin səmərəli icrasının ölkəmizin beynəlxalq reytinqlərdə mövqeyinin gücləndirilməsi baxımından əhəmiyyətini vurğulayıb.

Komissiya Katibliyinin rəhbəri Vüsal Şıxəliyev çıxışında elektrik şəbəkəsinə qoşulma sahəsində aparılan islahatların və yaradılan elektron xidmətləinr biznes mühitinin əlverişliliyinin artırılmasına müsbət təsir etməklə yanaşı, müvafiq sahədə beynəlxalq reytinqlərin yaxşılaşmasına töhfə veridiyini bildirib. Qeyd olunub ki, bu sahədə əldə edilmiş nailiyyətlərin daha da gücləndirilməsi və yeni istiqamətlərdə təkmilləşmələrin davam etdirilməsi qarşıda duran əsas prioritetlərdəndir.



"Azərişıq" ASC sədrinin birinci müavini Ramil Yusifov isə elektrik təchizatı şəbəkəsinə qoşulma sahəsində icra edilmiş rəqəmsallaşdırma və optimallaşdırma tədbirləri haqqında məlumat verib. O, növbəti ildə də bu səylərin genişləndiriləcəyini, eyni zamanda, həm sahibkarlarla, həm də geniş ictimaiyyətlə müntəzəm kommunikasiyanın davam etdiriləcəyini qeyd edib.

İclasın gündəliyinə müvafiq olaraq, Dünya Bankının "Business Ready" hesabatının "Kommunal xidmətlər (elektrik)" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsində sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına hesablanmış tədbirlərin icra vəziyyəti barədə məlumat verilib. Gələn il üzrə Yol Xəritəsinin layihəsi müzakirəyə çıxarılıb, elektrik şəbəkəsinə qoşulma prosesinin daha da optimallaşdırılması məqsədilə nəzərdə tutulmuş tədbirlər iştirakçılar tərəfindən ətraflı təhlil edilib. Bununla yanaşı, İntensiv Kommunikasiya Planının icrası istiqamətində elektrik şəbəkələrinə qoşulma prosesinin şəffaflığını təmin etmək və bu sahədə sahibkarların məlumatlılığını artırmaq məqsədilə reallaşdırılan tədbirlər nəzərdən keçirilib. İclasda, həmçinin "Kommunal xidmətlər (elektrik)" indikatoru üzrə ekspert sorğularına verilən cavabların diaqnostika sənədi müzakirə edilib.

Energetika, İqtisadiyyat, Rəqəmsal İnkişaf və Nəqliyyat nazirliklərinin, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin, "Azərnerji" və "Azərişıq" açıq səhmdar cəmiyyətlərinin, eləcə də Kiçik və Orta Biznesin İnkişafı Agentliyi və Enerji Məsələlərini Tənzimləmə Agentliyinin nümayəndələrinin iştirakı ilə keçirilən iclasda qarşıda duran tapşırıqların icrası ilə bağlı təklif və tövsiyələr qiymətləndirilib.

# Paytaxt ticarəti genişlənib

**Bakı Şəhər Statistika İdarəsindən redaksiyamıza bildirilib ki, cari ilin yanvar–noyabr aylarında Bakıda ticarət dövriyyəsinin həcmi 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 5 faiz artaraq 31 milyard 599 milyon manat olub.**



Qeyd edilib ki, ticarət şəbəkəsində satılmış ərzaq məhsulları, içkilər və tütün məmulatlarının dəyəri əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2,3 faiz artaraq 17 milyard 937 milyon manata, qeyri-ərzaq məhsullarının həcmi isə 8,7 faiz artaraq 13 milyard 662 milyon manata bərabər olub. İstehlak məhsullarının 35,8 faizi hüquqi şəxs statuslu müəssisələrdə, 50,9 faizi fərdi sahibkarlara məxsus ticarət obyektlərində, 13,3 faizi isə paytaxtın məhsul bazarlarında satılıb.

Hesabat dövründə paytaxt sənayesində istehsal olunan malların və göstərilən xidmətlərin həcmi 48,4 milyard manata yüksəlib. Belə ki, sənaye məhsulunun 76 faizi mədənçıxarma, 20,8 faizi emal, 2,3 faizi elektrik enerjisi istehsalı, bölüşdürülməsi və təchizatı, 0,9 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunub.

Sənayedə qeyri-dövlət sektorunun payı 83,3 faizə çatıb. İstehsalın ümumi həcmində sənaye məhsulunun payı 93 faiz, sənaye xarakterli xidmətlərin göstərilməsi isə 7 faiz təşkil edib.

İstehsal edilən məhsulun böyük hissəsi istehlakçılara göndərilib, əvvəlki dövrlərdə yaranmış ehtiyatlar da nəzərə alınmaqla sənaye müəssisələrinin anbarlarında 2024-cü il dekabrın 1-nə olan vəziyyətə görə, 392,5 milyon manatlıq hazır məhsul ehtiyatı olub.

Sənaye müəssisələrinin anbarlarında başqa müəssisələrdən alınan və satış üçün nəzərdə tutulan 47,9 milyon manat məbləğində digər məhsullar da mövcud olub.

Cari ilin yanvar–noyabr aylarında əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə real ifadədə 9,2 faiz artaraq 6 milyard 940 milyon manat olub. Hüquqi şəxslər tərəfindən əhaliyə 6 milyon 644 milyon manatlıq (95,7 faiz) xidmət göstərilib.

Bu ilin yanvar–noyabr aylarında Bakıda ictimai iaşə dövriyyəsinin həcmi 1milyon 613 min manata (ötən ilin müvafiq dövrü ilə müqayisədə 15,2 faiz çox) çatıb. Hesabat dövründə hüquqi şəxslər tərəfindən ictimai iaşə dövriyyəsi 821 milyon manat olub ki, bu da ümumi dövriyyənin 50,9 faiz təşkil edib.

# Elektron satınalmalar 3 dəfə artıb

**İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti dövlət satınalmalarının təşkili zamanı büdcə xərclərinə qənaət, satınalma prosesində obyektivliyin gerçəkləşdirilməsi, təkliflərin qiymətləndirilməsində şəffaflıq və qərəzsizlik prinsiplərinə əməl olunması ilə rəqabətədavamlı iqtisadiyyatın inkişafına yönələn tədbirləri davam etdirir.**




Dövlət Xidmətinin məlumatına görə, ölkədə dövlət satınalmaları sisteminin məxfi satınalmalar istisna olmaqla elektronlaşdırılması nəticəsində cari ilin yanvar–noyabr aylarında rəqabətliyin və hesabatlığın artırılması istiqamətində müsbət nəticələr əldə olunub. Hesabat dövrü ərzində elektron satınalmaların həcmi 3 milyon 511 min manat təşkil edib. Ötən ilin müvafiq dövrü (1 milyon 267 min manat) ilə müqayisədə 3 dəfəyədək artım qeydə alınıb.

Cari il ərzində elektron satınalmalarda qənaət edilən dövlət vəsaitlərinin məbləği 560 milyon manata yüksəlib. Bu nəticələr dövlət vəsaitlərindən səmərəli istifadə ilə izafi xərclərə yol verilməməsi və maliyyə intizamının gücləndirilməsi hesabına əldə olunub.

Dövlət satınalmalarında nəzarət tədbirlərinin gücləndirilməsi, əlçatanlığın təmin edilməsi və bürokratik əngəllərin aradan qaldırılması ilə bazar subyektlərinin iştirak səviyyəsinin yüksəlməsinə nail olunub. Belə ki, 2024-cü ilin yanvar–noyabr aylarında dövlət satınalmalarında yekunlaşan müsabiqələr üzrə orta iştirakçı sayı 6,5-a çatıb.

Dövlət Xidməti müsabiqə və aşkarlıq əsasında bütün sahibkarların bərabər şərtlərlə dövlət satınalmalarında iştirakını hədəfləyən tənzimləyici tədbirlərini cari il ərzində də davam etdirib. Satınalan təşkilatlar tərəfindən müxtəlif maneələrin yaradılması ilə əlaqədar quruma daxil olan 1270 müraciətə baxılıb. Hesabat dövründə keçirilmiş müsabiqələrin nəticələri barədə 13 min 477 yekun protokol təhlil olunub. Nəticədə müsabiqə zamanı qanunvericiliyin tələblərinin pozulması halları aşkar olunan 1790 yekun protokol (13,3 faiz) ləğv edilib.

Qeyd edək ki, Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiya "Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" dövlət başçısının 2016-cı il 13 iyul tarixli Sərəncamı ilə yaradılıb.

Komissiyanın Əmtəə bazarının səmərəliliyi və rəqabət işçi qrupuna rəhbərliyi İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti həyata keçirir.

# "Rəqabət terminlərinin izahlı lüğəti"

**İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən "Rəqabət terminlərinin izahlı lüğəti"-nin təkmilləşdirilmiş 2-ci nəşri təqdim edilib. Rəqabət tənzimləmələrinə aid terminlərin yer aldığı lüğət müvafiq sahədə terminologiyanın anlaşıqlı formada izahını ehtiva edir və maraqlı tərəflərin maarifləndirilməsi məqsədi daşıyır.**




Rəqabət tənzimləmələri zamanı istifadə olunan terminlərin nəzəri və praktiki əsasları da nəzərə alınaraq hazırlanmış lüğətin nəşrində məqsəd rəqabət iqtisadiyyatı və rəqabət hüququ sahəsində dövlət qulluqçularını, hüquqşünasları, iqtisadçıları, özəl sektorda çalışan müxtəlif peşə sahiblərini, tələbələri və ümumiyyətlə, rəqabətlə maraqlanan hər bir vətəndaşı maarifləndirməkdən ibarətdir.

Elektron nəşrdə rəqabət tənzimləmələrinə aid 160-dan çox termin yer alıb. Bu zaman terminlərin rəqabət qanunvericiliyindəki ümumi mənası nəzərə alınaraq milli qanunvericiliyə, beynəlxalq təşkilatların və bir sıra ölkələrin rəqabət siyasəti ilə bağlı nəşrlərinə istinad edilib. Bununla da, geniş ictimaiyyətin terminlərlə bağlı əhatəli məlumat əldə etmək imkanları təmin edilib.

Lüğətin ilk nəşrində istifadə edilən bir sıra terminlərin izahı genişləndirilib, praktiki nümunələr əlavə edilərək istifadəsi asanlaşdırılıb. Bundan əlavə, bir sıra yeni terminlər də bu nəşrdə lüğətə əlavə edilib və bütün terminlərin Rəqabət Məcəlləsinə uyğunlaşdırılması təmin edilib. Yeni nəşr rəqabət tənzimləmələri sahəsinə ictimai marağı artıracaq və maarifləndirmə prosesini sürətləndirəcək. Bu baxımdan lüğət ümumi istifadə üçün nəzərdə tutulub və normativ hüquqi akt xüsusiyyətlərini daşımır.

Qeyd edək ki, "Rəqabət terminlərinin izahlı lüğəti" elektron formatda Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəsmi internet səhifəsinin "Məlumat mərkəzi" bölməsində yerləşdirilib.

# 1 ton fındıq ölkəyə 1000 dollar qazandırır

**Dövlət Gömrük Komitəsinin aylıq hesabatında bildirilir ki, 2024-cü ilin 11 ayında Azərbaycandan 115 milyon 893 min dollarlıq 18 min 262 ton (ötən ilin müvafiq dövrü ilə müqayisədə 21 min 383 ton çox) fındıq ixrac edilib. Keçən ilin analoji dövründə bu məhsulun ixracının 1 tonu 4 milyon 364 min dollar olub.**



Qeyd edək ki, müqayisə olunan dövrdə 1 ton fındığın ixrac dəyəri 5 min 216 dollardan 6 min 346 dollara (1130 dollar çox) yüksəlib.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

“Xalq qəzeti” TV-nin “Ulduz” jurnalı ilə birgə layihəsi

# “Mən həmişə vəzifənin məsuliyyətini səlahiyyətlərindən uca tutmuşam”



**“Xalq qəzeti” TV-də “Ayrı söhbət” proqramının qonağı görkəmli yazıçı-dramaturq, ictmai xadim Hidayət Orucovdur.**

**– Salam əziz dostlar, efirdə “Xalq qəzeti” TV, studiyada Qulu Ağsəsdir. “Ayrı söhbət” proqramı “Xalq qəzeti”nin baş redaktoru Əflatun Amaşovla birgə səyimiz nəticəsində ərsəyə gəlir. Bizim verilişimiz – qəzet və jurnalın birgə layihəsi “Xalq qəzeti” TV-də yayımlanacaq, “Xalq qəzeti”ndə və “Ulduz” jurnalında isə söhbətin mətni çap olunacaq. İlk qonağımız şair, yazıçı, dramaturq, publisist, ictimai xadim, hamımızın sevimlisi, təqdimata ehtiyacı olmayan Hidayət Orucovdur.**

**(əvvəli ötən sayımızda)**

– Amma illər keçdikcə, hadisələr zaman etibarilə uzaqlaşdıqca insan o xatirələrə, o keçmişə artıq başqa nəzərlərlə baxır. O illərdə şəxsən mənə adi görüş kimi görünən, maraqlı epizod təsiri bağışlamayan hadisələr, sonradan görürsən ki, çox qiymətli imiş.

**– Vaxt müəyyən həyat faktorudur, deyirsiz o vaxtlar qohum-əqraba kəndə gəldilər, oturdular... bütün bunlar həmin vaxtlar üçün adi həyat faktoru idi. İllər keçdikcə onlar ədəbiyyat faktoruna çevirilir. Çünki Zəngəzur da, sizin kəndiniz də, valideynləriniz, qohumlarınız, orda açılan süfrə, bütün bunlar bizim üçün hazırda çox qiymətlidir.**

**Siz həmişə düşmən içində olmusunuz, orda çalışmısınız, yüksək vəzifələrdə olmusunuz, teatrda da çalışmısınız. Artıq ermənilərin iç üzünü də bilirdiniz, sizə olan münasibəti də. Dili necə, bilirdiniz?**

– Bilirsinizmi, onu yalnız mən yox, teatrın əsas rəhbərliyindəki digər adamlar, aktyorlar... Biz onu bir an unutmurduq, onları qabaqlayırdıq. Və ən çox ehtiyatlandığımız məqamlardan biri o idi. Məsələn, mən bilirdim ki, nə qədər gənc olsam da, bizim hər bir hərəkətimizə erməni millətçiləri təftiş baxımından, yoxlama eynəyi ilə baxırdılar. Bizdə istehza axtarmaq arzusunda idilər. Ona görə mən əvvəldə də teatrla bağlı bəzi məqamlar haqqında bir-iki cümlə dedim.

Biz işi elə qururduq ki, teatrda hər şey yüksək səviyyədə olsun. Məsələn, teatrın adi reklamı çox yüksək səviyyədə təşkil olunurdu. İrəvan şəhərindəki hər hansı tamaşanın reklamı nümunəyə çevrilirdi. Qastrol səfərlərində də erməni teatrlarına bunu nümunə kimi göstərirdilər. Əvvəla, hələ tamaşanın keyfiyyətini demirəm. Məsələn, erməni teatrı normal səviyyədə idi. Deyim ki, zəif idi, yox, deyildi. Amma biz çalışırdıq ki, erməni teatrından yüksək səviyyəda olaq

Bir epizodu deyim, o illərdə iki-üç ildən bir müxtəlif sahələr üzrə fəallar iclası keçirilirdi. Mədəniyyət sahəsinin iclaslarının birində Mərkəzi Komitənin katibi və Ali Sovetin Rəyasət Heyəti sədrinin birinci müavini iştirak edirdilər. Çaykovski adına musiqi məktəbinin 350 yerlik akt zalında mədəniyyət naziri erməni teatrlarını çox kəskin tənqid etdi – həm onların repertuar siyasətini, tamaşaların səviyyəsini, reklamlarını, qastrol səfərlərini...

Birdən heç kəsin gözləmədiyi halda dedi: “Kim teatrın repertuarını yüksək səviyyədə qura, qastrolları yaxşı təşkil edə bilmirsə, təşkilatçılıq qabiliyyəti yoxdursa, təbliğatı, reklamı yaxşı zinətləndirsə, onları Azərbaycan teatrına ezamiyyətə göndərək, gedib orada öyrənsinlər”. 350 erməninin hamısı – teatr direktorları, musiqi və mədəniyyət sahəsinin rəhbərləri, təhsil müəssisələrinin başçıları və s. elə bil şoka düşdülər. Azərbaycan teatrına?

Bir anlıq zala tamamilə sükut çökdü. Hətta milçək uçsaydı belə səsi eşidilərdi. Nazir də bunu hiss etdi. Bir neçə saniyə ara verərək dedi: “Mən öz teatrımızı deyirəm, İrəvan – Azərbaycan Dövlət dram Teatrını deyirəm”. Zarafata salaraq əlavə etdi: “Ezamiyyət xərcləri lazım olmayacaq”. İştirakçılar rahat nəfəs aldıqdan sonra sürəkli alqışlamağa başladılar.

Mən yalnız bir epizod dedim. Bayaqkı fikrimin davamı olaraq onu da əlavə edim ki, orada iş elə qurulmuşdu ki, əməkdaşların hamısı – həm yaradıcı, həm texniki heyət elə bil, kamikadze idilər, yalnız irəli, yalnız uşuş, yalnız sənət! Orada elə aktyorlar var idi ki, gözəl tamaşa oynayıb elə səhnədə də həlak olmağa hazır idilər. Belə bir əhval-ruhiyyə yaranmışdı orada.

**– Mədəniyyət naziri sizin repertuara qarışırdı?**

– 70-ci illərin əvvəllərindən başlayaraq, əvvəl müəyyən cəhdlər odu, amma teatrın adı çıxandan sonra, xüsusilə 1978-ci il, Bakı qastrolundan sonra, Bakıda Musiqili Komediya Teatrının binasında 14 gün İrəvan Teatrı, çox vaxt gündə iki tamaşa olmaqla (gündüz uşaqlar, axşam böyüklər üçün) qastrol səfərindən sonra Mədəniyyət Nazirliyi bizim repertuarı redaktə etmirdi.

Ümumiyyətlə, Azərbaycana o illərin özündə də ünlü teatrlar – Moskva, Sankt-Peterburq, Tiflis və İrəvan teatrları gəlirdi. Və qastrolları 3-4 gündən artıq çəkmirdi. On dörd gün bütün tamaşalar anşlaq keçirdi. Bir az sonra mən o vaxtkı mətbuat haqqında da münasibət bildirəcəyəm. İndiki “XQ TV” və “Xalq qəzeti”nin öncə uzun illər fəaliyyət göstərmiş, çap olunmuş “Kommunist” haqqında da müəyyən fikirlərimi deyəcəyəm.

**– Hidayət müəllim, sosial mediadan istifadə edirsinizmi?**

– Çox az istifadə edirəm. Çünki mən öz zəif tərəflərimi bilirəm. Bilirəm ki, istifadə etsəm vaxtımı çox aparacaq. Şahmat və futbol uzun illər vaxtımı çox apardığı kimi, ancaq sosial mediada gedən vacib materiallar barədə mənə məlumat verirlər.

**– Vaxtımıza az qalıb. Qısa suallarımıza qısa cavab verməyinizi xahiş edirik. Yazılarınızı özünüz yığırsınızmı?**

– Xeyir, hər zaman qələmlə yazıram, yığırlar.

**– Latın qrafikası ilə yazırsınız, yoxsa kirillə?**

– Əlbəttə, latın qrafikalı Azərbaycan əlifbası ilə yazıram. Kirillə daha asan olur, amma latın əlifbası ilə yazıram.

**– Əgər öz həyatınızdan pyes yazsaydınız adını nə qoyardınız?**

– “Burdan min atlı keçdi”. Çünki o mənim əbədi mövzumdur. Bu gün bizim görüşümüz “Xalq qəzeti” TV-dədir. “Xalq qəzeti”nin əvvəlki adı “Kommunist” haqqında, ümumiyyətlə, o vaxtkı mətbuat haqqında müxtəlif fikirlər deyirlər. Bəzən hər şeyi qara görmək istəyirdilər. O vaxt yalnız “Kommunist”i yox, digər qəzetləri də, məsələn, “Vışka” da, “Bakinski raboçi” də... Mən o vaxt İrəvanda yaşayanda onların hamısında çap olunurdum. Onların xidmətlərini unutmaq olmaz. Onlara layiq olduğu qiyməti vermək lazımdır.

Bir epizodu mən heç vaxt unutmaram. “Sovet Ermənistanı” qəzetinin 50 illiyi idi. Bu, 70-ci illərin əvvəllərinə təsadüf edirdi. Milli Akademik Dram Teatrının binasında formal da olsa çox möhtəşəm bir tədbir keçirdilər. Mərkəzi Komitənin birinci katibi və büro üzvləri də iştirak edirdilər. Azərbaycandan nümayəndə heyəti gəlmişdi. “Kommunist” qəzetinin baş redaktoru Ağababa Rzayev, “Bakinski raboçi” qəzetinin, hətta erməni qəzetinin baş redaktorları da var idi.

Bu qəzetlər o vaxt Mərkəzi Komitənin orqanı idi. Sonra orada yeni açılmış “Yelkən” adlı möhtəşəm bir restoranda ziyafət verildi. Bu vaxt mənim dişim möhkəm ağrıyırdı. Dişimin keyiməsi üçün iki-üç qədəh konyak içdim. Birdən masabəyinin səsini eşitdim. O da Ermənistan Kommunist Partiyası Mərkəzi Komitəsinin ideologiya üzrə katibi Robert Xaçatryan idi. Dedi: “Mən gənc Hidayət Orucovun səsini eşitmək istəyirəm”. Ayağa durdum. Dedim, Robert Hraçik oğlu, mən sizinlə Azərbaycan dilində danışmaq istəyirəm. Dedi: “Danış”. Sonra bunu nə üçün istədiyimi izah etdim. Dedim: “Siz Bakı Dövlət Universitetini bitirmisiniz”. Dedi: “Bəli, bəli...” Bu sözləri Azərbaycan dilində dedi.

Əvvəlcə ümumi ənənəvi, “Sovet Ermənistanı” qəzetinin fəaliyyətindən bir neçə söz dedim. Tədbirə münasibətimi bildirdim. Amma Robert Xaçatryan deyəndə ki, gənc Hidayət Orucovun səsini eşitmək istəyirəm, o mənim bədii yaradıcılığımı və əlbəttə, teatrın direktoru olmağımı nəzərdə tuturdu. Bayaq dediyim kimi, 1965-ci ildən, uydurma genosidin 50 illiyindən sonra bunların açıq və bəzən üstüörtülü şəkildə millətçilikləri, Qarabağ, Naxçıvan iddiaları, Türkiyəyə böyük ərazi iddiaları, az qala, mətbuatda da özünə yer tapırdı.

Ona görə mən Yeğişe Çarentsdən danışdım. Yeğişe Çarents bunlar üçün ideal bir şair olub. Onu böyük və əfsanəvi şair sayırdılar. 1937-ci ildə güllələnib. Amma o, açıq millətçilikdən uzaq olub və C.Cabbarlı, S.Vurğun və M.Müşfiqlə dostluq edib. C.Cabbarlının vəfat etdiyi günün sabahı o, bizim teatra gələrək bildirib ki, teatra C.Cabbarlının adını vermək lazımdır.

Mən bir nümunə kimi, Yeğişe Çarentsin adından istifadə edərək dedim ki, o, Sovet Azərbaycanının 15 illiyinə bir şeir yazıb və mən öz tərcüməm ilə bu şeiri oxudum:

**Alqış, alqış qardaş elə,**
**Bir torpaqdan, bir Günəşdən,**
**Bircə hünər aldığımız**
**Çarın dustaqxanasında birgə**
**fikrə daldığımız qardaş elə...**

Şeirin sonrası yadımda deyil. Bir də onun Qərbi Azərbaycanda ermənilərin, az qala, himn olan bir şeiri var:

**Hayastanım, Günəş dadlı sözlərinə vurğunam,**
**Adı qədim, qəlbi kövrək sazlarına vurğunam,**
**Qan dodaqlı çiçəklərin duyğusuna, ətrinə,**
**Nairimin oynaq rəqsli qızlarına vurğunam...**

Əlbəttə, bir az hissi, emosional çıxışdan sonra sürəkli alqışlar qondu. Çox alqışladılar. Ziyafət bitdi. “Kommunist” qəzetinin baş redaktoru Ağababa Rzayev mənə yaxınlaşdı və qucaqladı. Türksayağı hər iki üzümdən öpdü. Dedi: “Siz mənim ürəyimdə ucaldınız, siz mənim ürəyimdə heykələ döndünüz...” Onu müşayiət edən “Sovet Ermənistanı” qəzetinin əməkdaşlarına mənim haqqımda çox yüksək fikirlər səsləndirərək deyib ki, mən onunla fəxr edirəm və Azərbaycana qayıdıb onu təbliğ edəcəyəm.

Yubileydən iki-üç gündən sonra o vaxtın məşhur jurnalist Rəfael Nağıyev mənə zəng elədi. Soruşdu: “Hidayət, sən ziyafətdə nə etmisən?” Mən də zarafatyana: “dişim ağrıyırdı, bir-iki qədəh konyak içdim ki, ağrı keçsin”. Dedi: “Baş redaktor gələndən səndən danışır...”

O vaxt “Kommunist” qəzetinin baş redaktorunun İrəvana gəlişi, orda bir gənc Azərbaycan şairinin çıxışı, onun milli keyfiyyətləri, milli düşüncəsi və s. və i. ona elə təsir eləmişdi.

Sonralar mənə zəng edərək yazı sifariş verirdilər. Teatrın hər il, hər mövsümdə görəcəyi işlər barədə müsahibələr alırdılar. Bayaq sizə dediyim Bakıya 14 günlük qastrol vaxtı Azərbaycanın bütün mətbuatı, başda “Kommunist” olmaqla bütün qəzetləri hər tamaşa haqqında rəylər verirdilər, fikirlər bildirirdilər. Elə bilin ki, Bakı 14 günlük qastrol səfərində mədəniyyət sahəsində İrəvan teatrının günlərinə çevrildi. Yəni “Kommunist” qəzetinə də belə yanaşmaq lazımdı.

Sonralar– yenidənqurma zamanı (mən o dövrün özündə də onu mətbuatda “yenidənqırma” saymışam) mən artıq Bakıda yaşayırdım. Erməni təcavüzü başlayandan sonra mənim ən kəskin yazılarımı “Kommunist” qəzeti çap elədi. Məsələn, “Didərginlərə məktub” “Kommunist” qəzetində çap olundu. O vaxtlar o böyük maraq doğurmuşdu və artıq Qərbi Azərbaycandan qaçqınlıq prosesi başlamışdı. Ona görə mən bu qəzetə minnətdaram.

Mənim fikrimcə, bu qəzet ən maraqlı, ən dəyərli günlərini indi yaşayır. Mən hər gün “Xalq qəzeti”ni oxuyuram. Mənə elə gəlir ki, bu günün qəzeti deyil, günün kitabıdır, çoxsəhifəlidir: həm siyasət, həm ictimai məsələlər, həm iqtisadiyyat, həm təhsl, həm mədəniyyət, lap başlıcası, milli özünüdərk, milli şüur, milli dəyərlər... Ona görə Əflatun Amaşov başda olmaqla, mən bu qəzetin bütün kollektivinə minnətdaram və bu qəzetdə çalışan bütün jurnalistləri uğurları üçün təbrik edirəm. Eyni zamanda, “Ulduz” jurnalını... Bu jurnalı indiki dövrdə saxlamaq böyük hadisədir. Mən bəzi nömrələrinə baxmışam, amma bundan sonra abunəçisi olacağam.

**– Bütün məşhurlar – Xalq artistləri, Xalq yazıçıları, müəllimlər, akademiya, universitetlər hamısı jurnala abunədir. Çox sevinərdim ki, siz də abunə olasınız.**

– Mütləq! Mən “Ədəbiyyat” qəzetinə də hər həftə baxıram, eyni zamanda, da digər gündəlik qəzetlərə də.

**– Biz bunları sizin üçün çıxarırıq. Yəni ki, bizim oxucularımız var, bilirik ki, kimlər oxuyur. Biri var alıcı, biri var oxucu... Siz bizim çox dəyərli oxucumuzsunuz.**

– Mən sizə təşəkkür edirəm.

**– “Ayrı söhbət” proqramına gələn qonaqlar sonda öz hədiyyələrini verirlər. Təbii ki, sizin də ən gözəl hədiyyəniz yeni çıxmış kitabınız olacaq. Oxuculara məmnuniyyətlə təqdim etmək istəyirəm. Bu, Hidayət müəllimin seçilmiş əsərlərinin birinci cildidir. İstəyirik ki, sizin imzanızla bu kitabı “Xalq qəzeti”nin kitabxanasına, birini isə ayrıca olaraq “Ayrı söhbət” proqramına hədiyyə edəsiniz.**

– Təşəkkür edirəm. Mən indi avtoqraf yazacağam və bu mənim on cildliyimdir. Bir neçə il bundan əvvəl çap olunub. Bunun səkkiz cildi orijinaldır – poeziyadır, nəsrdir, esselərdir, dramaturgiyadır, bəzi publisist yazılardır. Siz məni tərcüməçi kimi təqdim də elədiniz, qalan iki cildi isə tərcümələrdir. Bu iki cildə özüm ad qoymuşam: “Özüm yazmaq istərdim”.

Orada Ulyam Şekspirin “Sonu yaxşı olan hər iş yaxşı” pyesini, Harriyet Biçer Stounun “Tom dayının daxması” romanını, XIX əsr ingilis və island ədəbiyyatından nümunələri, rus ədəbiyyatından nseçmələri, qardaş türk ədəbiyyatından çevirmələr və i.a. Mən o əsərləri Azərbaycan dilinə tərcümə eləmişəm ki, onları özüm yazmaq istərdim. Amma məni qabaqlayıblar, yazıblar, özü də çox gözəl yaradıblar.

**– Tərcüməçi ikinci müəllifdir, siz heç nə itirməmisiniz.**

– Bu kitab “Xalq qəzeti”nə yadigar qalsın, verilişiniz uzunömürlü olsun. Siz də kitabınızı mənə bağışladınız, təşəkkür edirəm. Mütləq oxuyacağam.

**– İlk hədiyyə sizdən gəldi. Uğurlu olsun! Düşünürəm ki, tamaşaçıları yormadıq, inanıram ki, oxucular söhbəti çox maraqla izləyəcəklər. Sizə bir daha təşəkkür edirəm. Tamaşaçılarla sağollaşaq. Sağ olun, “Ayrı söhbət” verilişində yenidən görüşənədək.**

***“Xalq qəzeti” – “Ulduz” jurnalı***

Köşə

# Müvazinətini itirən “lider”lərin sayı artır

***Biri Trampdan qaçır, biri trapda aşır, o biri nə danışdığını bilmir...***



**İttifaq MİRZƏBƏYLİ**
**i-mirzebeyli@mail.ru**

**Beynəlxalq aləmdə baş verən ictimai-siyasi proseslər dünyanın müxtəlif xalqlarını təmsil edən müdriklərin fərqli formada söylədikləri, fəqət eyni məramı ifadə edən “Ədalətsiz insanlar nə zamansa ədalətli cavab alacaqlar” məntiqinin haqq olduğunu sübut edir. Biz bunu işğalçı Ermənistanın 30 il müddətində viranəyə çevirdiyi torpaqlarımızı azad edib, yurdlarımızın yaralarını sarıyanda da gördük, on illər boyu Suriya ərəblərinə min bir əzab, işgəncə vermiş Əsədlər rejiminin yerlə-yeksan edilməsində də...**

Biz bunu Xocalı qatili Serj Sarkisyanın rüsvaycasına məğlub edilib rəzil günə salınmasında da gördük, hər iki çıxışından birində Azərbaycana meydan oxuyan Robert Koçaryanın tarixin zibilliyinə atılmasında da. Biz bunu ötən əsrin doxsanıncı illərində işğala məruz qalan Azərbaycana qarşı “907-ci düzəliş” adlı məkrli sənədin təşəbbüskarlarından olmuş Cozef Baydenin dünya ictimaiyyətinin gözü qarşısında “həftə səkkiz, mən doqquz” kəllə-mayallaq aşması zamanı da gördük, cənab Donald Trampın onu tapdalaması prosesində də.

Biz bunu həqiqətən dünya mədəniyyətinə və demokratiyasına misilsiz töhfələr vermiş fransız xalqını və bu ölkənin tarixi dövlətçilik ənənələrini ayaq altına atılacaq dərəcədə hörmətsiz, urvatsız etmiş yelbeyin Emmanuel Makronun üzünə tüpürüləndə də gördük, başına yumurta çırpılanda da. Bütün bunlar bir tərəfə, öz müvazinətini itirmiş Makron artıq normal danışığını da itirib. Gündə bir ünvanı təhqir etdiyinə görə daha onun qulağına “barmaq eləməyən” kimsə qalmayıb. Bu zat ötən ay öz müstəmləkələrində ağa kimi yox, qatil kimi qarşılanmışdı. Ötən həftə isə Haiti liderlərini “axmaq” adlandırdığına görə diplomatik qalmaqala səbəb olub. Təbii ki, Karib ölkələrinin daxili işlərinə qarışmaq ona baha başa gələcək. “Açığı, Haitini məhz narkotik alveri ilə məşğul olmağa yol açan haitililər məhv ediblər” – deyən Makronun bu ifadələrin altından çıxa bilməsi çətin olacaq.

Yeri gəlmişkən, Prezident İlham Əliyev “Rossiya Seqodnya” Beynəlxalq İnformasiya Agentliyinin baş direktoru Dmitri Kiselyova verdiyi müsahibədə Makron hakimiyyətinin “vəsfi”nə xüsusi yer ayırmışdır: “Onlar Yeni Kaledoniyada iğtişaşlar zamanı 13 insanı qətlə yetirdilər, 100-dən çoxunu yaraladılar, 1000-dən artığını həbs etdilər. Həm də xalq etirazlarının liderlərini Fransaya apardılar, həbsxanalarda saxlayırlar. Yəni bu, Makronun diktaturasıdır. Bu, Makron rejimidir. Mən bu barədə danışdıqda, təbii ki, qeyri-hökumət təşkilatları, yaxud media qismində öz “zəncirli köpəkləri”ni üzərimə salırlar. Yəni biz yenidən, – mən Azərbaycan ictimaiyyətini nəzərdə tuturam, – bu məsələni cavab qismində gündəlikdə saxlamağa başlayandan sonra indi vəziyyət daha ciddi olub. Təbii ki, biz hüquqları olmayan bu xalqlara ürəkağrısı ilə yanaşırıq”.

Maraqlıdır ki, müvazinətini itirənlər bu gün Avropada daha sürətlə artır. Rusiya – Ukrayna müharibəsini bəhanə edərək, Kremlin Avropa banklarındakı yüz milyardlarla vəsaitini ( həmin məbləğin nə qədər olduğunu dəqiq bilən olmasa da əlli milyard deyənlər də var, yüz milyardlarla deyənlər də İ.M.) mənimsəmiş Avropa ölkələrinin liderləri indi o pulu bölüşdürmək üstündə didişirlər. Bir rus məsəlində deyildiyi kimi, hələ öldürə bilmədikləri ayının dərisini bölmək üstündə boğuşurlar.

Almaniya Kansleri Olaf Şolts isə Kremlin pulu üstündə didişənləri toxtamağa çağırır: “Biz həmin vəsaiti öz aramızda bölsək və ya xərcləsək, “Avro” pis günə qalacaq. Öz əlimizlə öz iqtisadiyyatımıza zərbə vurmayaq!”

Sonda bir daha Suriyanı qara günə qoyaraq “ağ gün” dalınca qaçmış Bəşər Əsədin “hünər”lərinə qayıdaq. Dünya mətbuatı yazır ki, 1970-ci ildən Suriyada hakimiyyətdə olan Əsəd ailəsi 54 ildən sonra süquta uğrasa da, geridə böyük dağıntılar və xoş olmayan xatirələr qoydu. Aralarında uşaq, qoca və qadın da daxil olmaqla minlərlə insanı işgəncə, sürgün, bombardman və kimyəvi silahlarla məhv edən Əsəd ailəsinin məşhur Sednaya həbsxanası isə sözügedən rejimin zülmünün simvolik ünvanlarından birinə çevrilmişdi. Paytaxt Dəməşqdə, Əsədin sarayının 33 kilometrliyində yerləşən bu həbsxanada saxlanılan 70 mindən çox ərəbin həftədə 25 nəfəri edam edilirdi. 2011-ci ildə Suriyada vətəndaş müharibəsi başlayan zaman bütün müxaliflər bu həbsxanaya gətirilmişdi. Ali Baş Komandan Bəşər Əsədin fərariliyindən sonra ölkədəki həbsxanalardan ümumilikdə 100 mindən çox məhbusun azad edildiyi bildirilir.

Həbsxananın təhlükəsizlik kameralarında məhbusların olduğu otaqlar görünsə də, gizli bölmələrə salındıqları üçün onların bəzilərini tapmaq mümkün olmur. Çünki 4 mərtəbəli gizli yeraltı həbsxananın bütün qapıları betonla bağlanıbmış. Betonların sındırılması ilə digər mərtəbələrə keçidin olduğu həbsxananın tək bir mərtəbəsindən minlərlə məhbusun çıxarıldığı deyilir.

Bəs sonra nə oldu? “Göstərən saatdə dövrani fələk bir inqilab, həm özü fani oldu, həm ləşgəri, həm kişvəri”. Milyonlarla soydaşının qanı bahasına topladığı milyardlarla dollar vəsaiti indi yadların əlindədir. Rusiya mətbuatı yazır ki, Bəşər öz vəsaitindən istifadə edə bilmir. Qocalar evinin sakinləri kimi Rusiya dövlət qurumlarının “qayğısı ilə əhatə olunub.” Di get!

**İlin sənət hesabatı**

# Azərbaycan kinosu: ənənəyə sədaqət, yeni sənət uğurları

**Milli-mədəni dəyərlərimizin qorunması və inkişaf etdirilməsi, dünyada geniş tanıdılması ümummilli lider Heydər Əliyevin humanitar siyasətinin aparıcı yönlərindən biridir. Prezident İlham Əliyevin bu xətti uğurla davam etdirməsi, Birinci xanım Mehriban Əliyevanın mədəni himayədarlıq missiyası yaradıcılıq sferasının çağdaş çağırışları cavablandırması üçün əlverişli şərait yaradıb.**

Azərbaycanda fəaliyyət göstərən yaradıcılıq ittifaqları dövlətin ildən-ilə artan diqqət və qayğısını ölkəmizdə mədəni zənginliyin təmin edilməsinə yönəldir, fəaliyyətlərini ənənəyə sadiqlik və novator təşəbbüskarlıqla qururlar. Bütün bunlar incəsənətimizin də çiçəklənməsinə, dünya meridianlarında yüksək səviyyədə təqdimatına xidmət edir.

Dövlətimizin ardıcıl maddi və mənəvi dəstək fonunda yaradıcı insanların Azərbaycan naminə daha böyük uğurlara imza atması, bütün mümkün vasitə və imkanlardan, yaradıcılıq potensialından səmərəli istifadə etməsi zəruri hal alır. Qələm və fırça ustalarımız, kino, teatr və musiqi xadimlərimiz bu missiyalarını şərəflə yerinə yetirməyə çalışırlar.

Təbii ki, uzun illərin durğunluğundan çıxmaq, dirçəliş dövrünün ənənələrini yaşatmaq və gələcəyə hesablanmış çağırışlara layiqincə cavab vermək niyyətini reallaşdırmaq Azərbaycan kino xadimlərinin də başlıca vəzifələrindəndir. Bəs Azərbaycan Kinematoqrafçılar İttifaqı (AKİ) kino sənayesinin inkişafı üçün hansı addımları atır? Bu qısa qeydlərdə İttifaqın sona yetməkdə olan ildə gördüyü işlərə qısaca ekskurs etməyə çalışacağıq.

AKİ son illərdə, xüsusilə də 2024-cü ildə milli filmlərin təbliği, ölkədə və xaricdə kino festivallarının keçirilməsi, kino tənqidinin və kino nəşrlərinin inkişafı, gənc rejissor və ssenaristlərin hazırlığı və digər sahələrdə öz səylərini əsirgəməyib. Bəri başdan deyək ki, ittifaq 2025-ci ildə də adıçəkilən istiqamətlərdə fəaliyyətini daha da genişləndirmək niyyətindədir.

Yaradıcılıq birliyimiz fəaliyyəti boyu mətbuata açıq olmuş, görülmüş işlərlə bağlı oxuculara geniş məlumat verilməsini prioritet hesab etmişdir. Gənc Film İstehsalçıları Assosiasiyasının təsis etdiyi kino-xəbər saytı – ***kinoinfo.az.*** Azərbaycan Respublikası Kino Agentliyinin maliyyə dəstəyi ilə fəaliyyətə başlayıb, AKİ isə sayta təşkilati dəstək göstərir. Saytın redaktoru ssenarist Ramil Ələkbərov, layihənin rəhbəri AKİ-nin icraçı katibi Əli İsa Cabbarov kino kimi dinamik bir sahədə baş verən proseslər, o cümlədən, kinonun iqtisadi aspekti ilə bğlı oxucuları ətraflı məlumatlandırmağa çalışırlar. İttifaqın "Rakurs" rüblük bülletini ölkədə və xaricdə baş verən kino yenilikləri, festivallar və yubiley filmlər barədə informasiyalar təqdim edir. Bülletenin başlıca məqsədi respublikada və xaricdə gedən kino proseslərinin salnaməsini yaratmaqdır.

AKİ-nin hələ ilin əvvəlindən elan etdiyi "Arxa cəbhənin insanları" qısametrajlı bədii film ssenarisi üzrə müsabiqəyə uğurla yekun vurulub. Bu cür müsabiqələrin keçirilməsi milli kinoda müsbət tendensiyaları diqqət mərkəzinə gətirməkdir. Nominantların seçimini apararkən ittifaqın katibliyi ötən kino mövsümü ərzində gedən prosesi diqqətlə müşahidə və təhlil edir, kinematoqrafiyanın müxtəlif sahələrindəki xidmətləri qeyd edir, laureatlar açıq səsvermə yolu ilə seçilir.

Azərbaycan Respublikası Qeyri-Hökümət Təşkitalarına Dövlət Dəstəyi Agentliyinin maliyyə köməyi ilə "Qərbi Azərbaycan: maddi və mədəni irsimiz" adlı layihə çərçivəsində çəkilən "Sarı gəlinin sorağında" sənədli filmi IX Türk Dünyası Sənədli Film Festivalında tammetrajlı sənədli filmlər kateqoriyasında final mərhələsində iştirak üçün seçilmiş filmlər sırasında yer alıb.

Azərbaycan Kinematoqrafçılar İttifaqı tərəfindən 2023-cü ildə çəkilmiş tammetrajlı sənədli filmin süjet xətti "Sarı gəlin" xalq mahnısının mənşəyi, onun yaranma tarixçəsinin aydınlaşdırılması yönündə araşdırmalar, bu barədə xalq arasında yaranmış rəvayətlərin, əfsanələrin üzərində qurulsa da, əsas məqsəd Qərbi Azərbaycan ərazisindəki maddi-mədəni irsimizin təbliğidir.

Filmin ssenari müəllifi Füzuli Sabiroğlu, quruluşçu rejissoru Mübariz Nağıyev, quruluşçu operatoru Fahir Sabiroğlu, prodüseri Əli İsa Cabbarovdur. Layihənin rəhbəri Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri, Xalq artisti Rasim Balayevdir.

İttifaq xarici ölkə kinematoqrafçıları ilə əməkdaşlığa da xüsusi önəm verir. Ötən ilin

AZƏRBAYCAN
KİNEMATOQRAFÇILAR
İTTİFAQI

aprelində Litva Respublikasının Azərbaycandakı səfirliyinin dəstəyi ilə "Landmark" biznes mərkəzində rejissor Qildre Yifskitenin "Sıçrayış" sənədli filminin nümayişi keçirilib. Tədbirdə Litva səfirliyinin əməkdaşları, AKİ-nin I katibi, Xalq artisti Şəfiqə Məmmədova da iştirak ediblər. Film litvalı dənizçi Simas Kudrikanın azadlığa qovuşmaq yolundakı "sıçrayışından" bəhs edir. Ekran əsəri nadir arxiv görüntülərinin və 70-ci illərin ən böyük soyuq müharibəsi iştirakçılarının dramatik təsviri əsasında ərsəyə gəlib.

AKİ-nin katibi, Əməkdar incəsənət xadimi, rejissor Ziya Şıxlınski yeni sənədli filmin çəkilişinə hazırlaşır. Film Rusiya Dövlət Atom Gəmiqayırma Mərkəzinin Baş direktoru, RF Dövlət mükafatı laureatı Davud Paşayevin həyat və fəaliyyətindən bəhs edəcək. Qeyd edək ki, Ziya Şıxlınski ilə ssenarist Toğrul Cuvarlının birgə yazdığı "Bir ailənin sirri" ssenari AKİ-nin Qorçakov adına İctimai Diplomatiyaya Dəstək Fondu ilə 2020-ci ildə keçirilmiş "Rusiyanın görkəmli azərbaycanlıları" adlı ssenari müsabiqəsinin qalibi olub.

Uzun illər əvvəl çəkilmiş, unudulmaqda olan filmlərin müasir tamaşaçılara təqdim olunması AKİ-nin gündəlik fəaliyyətində mühüm yer tutur. Ötən ilin iyununda "Azərbaycan" "Cinema-Plus"-da Əməkdar incəsənət xadimi, rejissor Cəmil Quliyevin "Cansıxıcı əhvalat" filmi ilk dəfə Azərbaycan dilində nümayiş olunub. Bu film müəllif kinomuzun ən maraqlı nümunələrindən biridir və premyerası 1988-ci ildə rus dilində reallaşıb. Film AKİ-nin sifarişi ilə peşəkar aktyorlar Elşən Rüstəmov və Nəcibə Hüseynovanın iştirakı ilə Azərbaycan dilinə dublaj olunub.

Adıçəkilən kinozalda Ayşə Mirzəzadənin "Yellənçək" və Elmar Bayramovun "Nəfəs" qısametrajlı filmləri də göstərilib və böyük maraqla qarşılanıb.

"Azərbaycan" "Cinema-Plus"-da İttifaqın təşkilatçılığı ilə "Dörd qəhrəman cənnət sorağında" adlı mərasimdə Oleq Səfərəliyevin "Murad-Sad", Davud İmanovun "Afroditanın qolları", Ramiz Əzizbəylinin "Pirverdinin xoruzu", Rauf Nağıyevin "Foto Fantaziya" filmlərinin göstərilməsi qərara alınıb. Sənətkar və cəmiyyət arasında münasibətlər, yaradıcı insanın ətraf mühitlə konflikti, şəxsiyyət böhranı bu ekran işlərinin əsas motivləridir. Bunlar indi də dünyada aktuallığını itirməyən məsələlərdir və müəlliflər nümayiş olunacaq filmlərdə mövzuya yaradıcı yanaşıblar. Qeyd edək ki, 3 film 1980-ci illərin sonunda, yenidənqurma dalğasında çəkilib. Yalnız 1 film – "Foto Fantaziya" 1970-ci ildə ekranlaşdırılıb.

Təbii ki, bu cür silsilə tədbirlər siyahısına rejissor Vaqif Behbudovun və Rüstəm İbrahimbəyovun filminin Tbilisi Beynəlxalq Sənədli Filmlər Festivalında nümayiş etdirilməsi, gənc rejissor Leyla Qənbərlinin Praqada keçirilən "One World İnternational" sənədli film festivalı çərçivəsində 7 günlük təhsil səyahətində iştirakı, Türkan Hüseynin Kopenhagendə, İmaməddin Həsənovun İstanbulda kurs keçməsi, ittifaqın əməkdaşı Afaq Yusiflinin müstəqil film rejissoru qismində Mərakeşdə keçirilən Qlobal Mədəni Münasibətlər Proqramında ölkəmizi təmsil etməsi üçün xərcləri məhz AKİ-nin çəkdiyini də xüsusi vurğulamaq lazımdır. AKİ "OB Film " və "Kinobir" şirkətlərinin birgə istehsalı olan "İşığa doğru" sənədli filminin beynəlxalq festivallarına təqdim olunmasına da vəsait ayırıb.

Dekabrın ilk günlərində AKİ-nin və Azərbaycan Dövlət Film Fondunun birgə təşkilatçılığı ilə Xalq yazıçısı, kinodramaturq Natiq Rəsulzadənin 75 illik yubileyində AKİ-nin sədri, Xalq artisti Rasim Balayev çox nikbinliklə vurğuladı ki, Azərbaycan kinosu çox tezliklə durğunluq zolağından çıxa biləcək, klassik ənənələr bərpa olunacaq, yeniliklərə uzanan yollar daha geniş və işıqlı olacaq. Bunun üçün kinomuzun kifayət qədər güclü kadr potensialı var və dövlətimizin dəstəyi, xalqımızın sevgisi ilə biz hədəflərimizə çata biləcəyik.

Görkəmli kino xadiminin optimist düşüncələrinin tezliklə reallaşacağı şübhəsizdir. Ölkəmizin sosial-iqtisadi, mədəni, hərbi quruculuq, milli-mənəvi dəyərlərimizin qorunması, inkişafı sahəsində uğurlarını kino-lentin yaddaşına köçürmək, salnamələşdirmək üçün daha ciddi addımların atılması, C.Cabbarlı adına Azərbaycanfilm kinostudiyasına yeni nəfəs verilməsi, özəl kinostudiyaların fəaliyyətinin daha da canlandırılması, dünya kinosuna inteqrasiyanın gücləndirilməsi, professional kadr hazırlığına xüsusi diqqət verilməsi – bütün bunlar AKİ-ni ciddi düşündürür və qurum özünün bütün resursları ilə kinomuzun inkişafına konkret əməli dəstək verməyə hazırdır. İttifaqın reallaşdırdığı uğurlu layihələr bu qənaətə gəlməyə imkan verir.

***Akif CABBARLI,***
***Azərbaycan Kinematoqrafçılar İttifaqının redaktoru***

**Əminə Dilbazi – 105**

# Rəqsi oyundan sənətə çevirən ifaçı

**Azərbaycan rəqqasəsi, baletmeyster və pedaqoq, səhnə quruluşçusu, Xalq artisti Əminə Dilbazi əsrarəngiz milli rəqsləri ilə qanad açaraq, doğulduğu Qazax rayonundan Bakıya, buradan isə dünyanın böyük səhnələrinə pərvaz etmiş görkəmli sənətkar olub.**

Uşaq ikən Əminə xanımın gözəl rəqslərini tez-tez televiziya ekranlarından maraqla izləyirdik. Onun oynadığı "İnnabı", "Tərəkəmə", "Vağzalı", "Turacı", "Naz eləmə" rəqsləri öz ahəngdarlığı, plastikliyi ilə hər kəsi heyran edir, seyrçilərdə şən ovqat yaradırdı. Qızlarımızın onun ifalarına baxaraq, qol götürüb süzmələrini, hər bir elementi məhz Əminəsayağı göstərməyə çalışdıqlarını yaxşı xatırlayırıq.

Ona tamaşa etdikcə ilk növbədə Əfzələddin Xaqaninin "Rəqs et" rədifli qəzəli yada düşür:

**Bir ov yarasından tökülən**
**qan kimi qayna,**
**Coşqun ürək ol,**
**sineyi-pərvanədə rəqs et!**

Bəlkə də, Əminənin rəqqasə kimi üstünlükləri onun uşaq vaxtı idmanın yüngül atletika növü ilə məşğul olmasının nəticəsi idi. Rayonda keçirilən yarışlarda dəfələrlə birincilik qazanıb.

Bir gün oxuduğu məktəbin direktoru onu yanına çağırıb bir ünvana getməyi tapşırır. Əminə elə bilir ki, onu hansısa yarışa göndərirlər. Tez idman paltarını geyinib deyilən ünvana yollanır. Oraya çatanda görür ki, uşaqlar tar, kamança və nağaranın müşayiətilə rəqs edirlər. Növbə ona çatanda soruşurlar: "Hansı havaya oynayacaqsan?" Etiraz edib deyir: "Mən idmançıyam. Bura məni səhvən çağırıblar". Lakin musiqi səslənir və Əminə məcbur olub "Obsa" adlı havanı sifariş verir. Deyirlər, axı belə rəqs yoxdur. Belə olan halda yeniyetmə qız özü sifariş etdiyi mahnını oxuyub oğlansayağı oynamağa başlayır. Bir də onda fərqinə varır ki, zalda gülüş səsindən qulaq tutulur. Pərt halda paltosunu götürüb, var gücüylə oradan qaçır.

Amma canında rəqsə bağlı nəsə varmış ki, sonra bu sənətdən qaça bilmir. Bu yolda ilk körpü də elə təsadüfən oynadığı "Obsa"-ya görə yeni yaradılan rəqs ansamblına qəbul edilməsi olur.

Əminə Dilbazi çox keçmədən həm xalq rəqslərinin mahir ifaçısına çevrilib, həm də rəqslərə quruluş verməsi ilə fərqlənib. Onun quruluşunda Üzeyir Hacıbəylinin musiqisi əsasında "Kolxoz çölləri" adlı ilk rəqsin ayağı sayalı olub. Həmin rəqsdə o vaxt çox məşhur olan pambıqçı Bəsti Bağırova rolunu da özü oynayıb. Üzeyir bəy ona deyib: "Balaca qız, sən istedadlısan, mənim musiqimə gözəl rəqs qurmusan. Rəqs qurmağa davam et". Böyük bəstəkarın tapşırığı ilə onun rəqsi dövlət konsertinə salınıb. Xeyli həvəslənib və qısa müddətdə Niyazinin musiqisinə "Dağlar gözəli", Qılman Salmanovun musiqisinə isə "Alagöz" rəqslərini də qurub.



El məclislərinin birində Əminə xanımın ifası şair Əşrəf Veysəllini elə cuşa gətirmişdi ki, bədahətən ona şeir yazmışdı:

**Özü kimi göyçəkmi var,**
**Sözü kimi çiçəkmi var,**
**Gözəllərdə ürəkmi var,**
**Gör, nə ürəklə oynayır.**
**Bir o qızdı, bir də bizik,**
**Tapşırıbdı dərdə bizi,**
**Qurudubdu yerdə bizi,**
**Göydə fələklə oynayır.**

Doğrudan da, Əminə Dilbazi oynayanda sanki yer göyə, göy yerə qovuşurdu. Onun yüksək ifaçılıq mədəniyyəti ilə yanaşı, xəlqilik ruhu və folklor təravəti dəst-xəttinin əsasını təşkil edirdi. Əminə xanım 1936–69-cu illərdə Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyası Mahnı və Rəqs Ansamblının solisti olaraq çalışıb və burada müxtəlif illərdə rəqs qrupuna rəhbərlik edib. 1957-ci ildə Moskvada



tələbə və gənclərin 6-cı ümumdünya festivalının qızıl medalını alıb.

Əminə Dilbazi 1959-cu ildə Azərbaycan Tibb İnstitutunda yaradılan "Çinar" tələbə rəqs kollektivinə, 1962–1965-ci illərdə Azərbaycan mahnı və rəqs ansamblına, 1967–68-ci illərdə isə "Sevinc" rəqs ansamblına rəhbərlik edib. Uzun illər Xoreoqrafiya Məktəbində pedaqoji fəaliyyət göstərib.

Bir çox filmlərdəki rəqslər ona məxsusdur. Filarmoniyanın səhnəsində oynanılan "Dədə Qorqud", "Azərbaycan toyu", "Bir bağçanın gülləri" səhnə əsərlərində əsas partiyaların ifaçısı olub. Repertuarına rus, Ukrayna, özbək, ərəb rəqsləri də daxil olan Əminə Dilbazi "Leyli və Məcnun" operasında, "Arşın mal alan" və "O olmasın, bu olsun" komediyalarında da rəqslərə quruluş verib. Azərbaycan musiqili komediya teatrında, habelə osetin, özbək ansambllarında rəqsləri tamaşaya qoyub. "Ulduz", "Yallı", "Sevinc" film-konsertində lentə çəkilib.

Məşhur bəstəkar, Xalq artisti Cövdət Hacıyevin həyat yoldaşı, şair Mirvarid Dilbazinin doğma əmisi qızı, bəstəkar-dirijor İsmayıl Hacıyevin anası olan Əminə Dilbazinin çevrəsi bütünlüklə yaradıcı sənət adamlarından ibarət olub.

Sovet dövründə "Xalqlar dostluğu" və "Şərəf nişanı" ordenlərinə layiq görülən böyük sənətkar müstəqillik illərində "İstiqlal" ordeni ilə təltif olunub. Prezidentin fərdi təqaüdçüsü olan unudulmaz sənətkar 2010-cu ildə dünyasını dəyişib.

***Ə.DOSTƏLİ***
***XQ***

# "Tullantılardan incəsənətə"

**"Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində Şəki-Zaqatala Regional Təhsil İdarəsi və Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Şəki Rayon Komitəsinin birgə təşkilatçılığı ilə müəllimlər arasında "Tullantılardan incəsənətə" adlı əl işlərindən ibarət sərgi keçirilib.**



Sərginin açılışından əvvəl müəllimlərin əl işlərinə baxış keçirilib. Sonra tədbir iştirakçıları "Yaşıl dünya naminə həmrəylik ili" mövzusunda bir neçə sinifdə təşkil edilən açıq dərsləri izləyiblər.

Açılış mərasimində Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin məktəbəqədər təhsilin təşkili şöbəsinin müdiri İlahə Rəsulova, regional təhsil idarəsinin müdiri Günay Mahmudova, ATİAHİ Şəki Rayon Komitəsinin sədri Ziyafət Xasıyeva və başqaları çıxış edərək, belə sərgilərin müəllimlərin yaradıcılıq qabiliyyətlərinin inkişafı və ekoloji şüurun artırılması baxımından əhəmiyyətini vurğulayıblar.

Sərgi çərçivəsində təşkil edilən müsabiqənin qalibləri münsiflər heyətinin qərarı ilə müəyyənləşdirilib və onlara mükafatlar təqdim edilib. Tədbir şagirdlərin hazırladığı "Yaşıl dünya naminə həmrəylik ili"nə həsr olunmuş ədəbi-bədii kompozisiyanın nümayişi ilə başa çatıb.

***XQ***

**Sosial təlimlər**

# Azadlıq: Konfutsidən Marksa

**Konfutsinin yaşadığı dönəmdə (e.ə.551– 479) yalnız yuxarı təbəqəyə mənsub insanların uşaqları təhsil almaq imkanına malik idilər. Konfutsi isə sosial mənsibiyyətindən asılı olmayaraq, hər kəsin təhsil almasının vacibliyini vurğulayırdı.**

Onun tətbiq etdiyi açıq qapı siyasəti, başqa şərtlər altında bütün həyatını əziyyət və təhqirolunma ilə keçirəcək olanlara təhsil almaq üçün müstəsna fürsət vermişdi. Nətcədə Konfutsinin şagirdlərinin əksəriyyəti aşağı siniflərdən olanlar idi və onlar müəllimlərinə ömür boyu sadiq və minnətdar oldular. Yeni maarifçiliyin ilk toxumlarını səpən böyük filosof bununla bürokratiyaya yeni istedadların və yeni fikirlərin gəlməsində iştirak edirdi. O, deyirdi ki, təhsil var olduğu zaman sinif fərqliliyi ola bilməz.

İrland yazıçısı Pol Stratern "90 dəqiqədə Konfutsi" kitabında yazır ki, gizli bərabərçiliyinə baxmayaraq, Konfutsi bəzi stereotiplərini yenə də qoruyurdu. O özü də olduqca kasıb bir ailədə doğulmuşdu və bütün uğurlara məhz yenilməz iradəsi və zəkası ilə nail olmuşdu. Konfutsinin Ədalət naziri olduğu dövr haqqında maraqlı fikirlər var. Onun bioqrafiyasını qələmə alan X.Gril "Onun nazirliyi dövründə Lu ölkəsində heç bir soyğunçu yox idi", – deyə yazırdı. Təsadüfi deyil ki, nazir işlədiyi dönəmdə də o, kasıb olaraq qalırdı.

Konfutsi vəzifədən azad edildikdən sonra bir neçə tələbəsi ilə ziyarət səfərinə çıxır. Bu, ənənəvi dini-mənəvi səyahət olmayacaqdı. Konfutsinin müqəddəs bir hədəfi yox idi və bu səfərində də məqsədi aydınlanmaq deyildi. Filosofun ziyarəti də fəlsəfəsi kimi dünyəvi idi.

O, əslində iş axtarırdı. Ən azından, prinsiplərinin hardasa tətbiq olunacağına ümid edirdi. Artıq Konfutsi Çinin ən müdrik adamı hesab olunurdu. Çağdaşları rifah içində yaşadığı halda, 67 yaşı olmasına baxmayaraq, hələ də sosial problemlər içində çabalayırdı. Dürüst fəaliyyət haqqında traktatlar yazan bütün dövlərin ən praqmatik filosofu artıq karyera haqda düşünməkdən vaz keçmişdi. Ən çox sevdiyi tələbəsi Yen Huinin ölümündən sonra isə o, ümidsizliyə qapılır. "Məni anlayan heç kim yoxdur", – deyərək düşüncələrinin gələcək nəslə çatmayacağı ilə bağlı narahatlıq keçirir.

Konfutsinin sosial bərabərlik ideyası haqda düşünərkən "Kütlə psixologiyası"-nın müəllifi Qustav Le Bonu xatırladım. Həmin əsərində Le Bon yazırdı ki, ibtidai



insan tarixinə aid olan və onun ruhi quruluşunun müxtəlifliyini, irsi qanunlarını əks etdirən olduqca cahil ideyalara qarşı şair və filosofların, dünyada insanların və irqlərin bərabərliyi ideyasını ortalığa atmasından demək olar ki, bir əsr yarım vaxt keçib. Kütlə üçün çox şirnikləndirici olan bu ideya onların ruhuna çox tezliklə hakim kəsildi və tezliklə öz bəhrəsini verdi: köhnə cəmiyyətin əsaslarını sarsıtdı. Tarixin üfüqündə Karl Marks kimi bir nəhəng göründü. Bu məqsədlə yaranan təsisatlar və maarifləndirmə müasir demokratiyanın sehrli iksirinə, böyük prinsiplər üçün aldadıcı olan bərabərsizlikləri aradan qaldıran müasirliyin tək ilahi vasitəsinə çevrildi.

Konfutsinin ideyaları əsrləri adlayaraq müasir cəmiyyətə gəlib çatdı. Onun məqsədi qorxu və şübhədən uzaq həyat sürə biləcək ali insan nəsli yaratmaq idi. Konfutsinin təlimi iki min il ərzində Çin idarəetmə aparatının əsas aparıcı qüvvəsi olaraq qaldı. Konfutsiçilik praktiki xarakter daşımaqla, demək olar ki, 2 min 500 il mövcudluğunu qoruyub saxladı. Konfutsiçilik metafizik fərziyyələr olmadan belə yaşaya bildiyini sübut etmişdir. Bu günümüzdə Qərbin də fasilələrlə eyni görüşləri mənimsədiyi görünməkdədir. Çin fəlsəfəsinin Konfutsidən sonrakı məktəbləri – Daosizm və Buddizm – öz gücünü məhz bu böyük filosofun ölməz ideyalarından alırdı.

***Kənan HACI***

# Bayden Rusiyaya “vida zərbəsi” hazırlayır

**Prezidentliyinə dörd həftədən az vaxt qalan Cozef Bayden Rusiyanın enerji sektoruna qarşı genişmiqyaslı sanksiyalar tətbiq etməyi düşünür. Məhdudiyyətlər ABŞ-ın Rusiyanın kölgə donanmasının bir hissəsi olan tankerlərə təsir edəcək. The Washington Post (WP) Ağ Evdəki mənbələrə istinadən yazır ki, yeni məhdudiyyətlər Ukraynada hərbi əməliyyatlara son qoymaq üçün Rusiya prezidenti Vladimir Putinlə danışıqlarda Donald Tramp administrasiyasına güclü təsir rıçaqları verə bilər.**



Maliyyə naziri Janet Yellenin sözlərinə görə, ABŞ Rusiyanın neft gəlirlərini azaltmaq üçün “yaradıcı yollar” axtarır və “qara qızıl”a qlobal tələbatın azalması əlavə sanksiyalar tətbiq etmək imkanı yaradır. WP ABŞ prezidentinin elan edəcəyi yeni qadağaları “Baydenin Putinin müharibə kassasına zərbəsi” adlandırır. Qəzetin həmsöhbətlərinin dediyinə görə, sanksiyalar ilk növbədə sanksiyalardan və qiymət tavanından yan keçərək Rusiya neftini qeyri-Qərb dövlətlərinə daşıyan kölgə donanmasına təsir etməlidir. Bəzi hesablamalara görə, belə bir donanma təxminən 700, digərlərinə görə - 1,4 min tankerdən ibarətdir. Məlumatlardakı uyğunsuzluq bu gəmilərin əksəriyyətinin qlobal tanker donanmasının bir hissəsi olması ilə izah olunur.

“AXSMarine” mərkəzinin məlumatına görə, kölgə donanmasının, təxminən, 150 tankeri Rusiya şirkətləri ilə bağlıdır və əsasən onların neftini daşıyır. Belə ehtimal olunur ki, məhdudiyyətlər hələ də sanksiyalara məruz qalmamış Rusiya neft ixracatçılarına təsir göstərəcək. Banklara Rusiya ilə enerji əməliyyatları aparmağa icazə verən lisenziyanın ləğv edilməsi variantı da nəzərdən keçirilir. WP Ağ Evin qlobal iqtisadiyyat üzrə sabiq baş direktoru Peter Harrelldən sitat gətirir: “Yeni böyük sanksiyalar tədbirlərinin məqsədi Rusiyanın ixrac gəlirlərini 6-12 ay ərzində iki rəqəmli azaltmaq olmalıdır”.

WP qeyd edir ki, prezidentlikdən getməzdən əvvəl Rusiyaya vurulan böyük zərbə Baydenin Moskvanın Ukraynadakı hərəkətlərinə qətiyyətli cavab vermək üçün Qərb müttəfiqlərini topladığına dair iddialarını gücləndirəcək. Həqiqətən dekabr ayında Rusiyanın kölgə donanmasına qarşı məhdudiyyətlər artıq Avropa İttifaqı və Böyük Britaniya tərəfindən tətbiq edilmişdir. Bundan başqa, G7 (Böyük yeddilər) Rusiya neftinin qiymət tavanını bir barel üçün 60 dollardan 40 dollara endirməyi və onun emalına tam qadağa qoymağı düşünür.

Əgər sanksiyalar Rusiyaya nəzərdə tutulduğu kimi təsir etsə, Tramp administrasiyası Ukrayna ilə barışıqla bağlı Kremllə danışıqlarda daha güclü təsir rıçaqları əldə edəcək. Ağ Evin adının açıqlanmasını istəməyən yüksək rütbəli rəsmisinin dediyinə görə, Kiyevə sülh danışıqları üçün “ədalətli şərtlərə” “ən yaxşı fürsət” vermək üçün Rusiyaya qarşı cəza tədbirləri zəruridir. Eyni zamanda, WP iddia edir ki, Ukrayna prezidenti Vladimir Zelenski son vaxtlar danışıqlara hazırlığını artırır və bu, uzun müddət Moskvaya hər hansı ərazi güzəştlərinin mümkünlüyünü rədd edən Zelenskinin mövqeyində “ciddi dəyişiklikdir”.

“Bloomberg” agentliyi də mənbələrinə istinadən yazır ki, Bayden administrasiyası enerji qiymətlərinin yüksəlməsindən ehtiyatlanaraq, xüsusən də prezident seçkiləri ərəfəsində Rusiya neftinə qarşı yeni məhdudiyyətlər tətbiq etməkdə uzun müddət tərəddüd edirdi. Lakin neftin qiymətinin düşməsi və Donald Trampın Kiyevi Moskvanı güzəştə getməyə inandıra biləcəyi ilə bağlı narahatlıqların artması fonunda, Ağ Ev “artıq daha qətiyyətli addımlara açıqdır”. Xanım Yellenin dediyinə görə, “bu məqamda qeyri-adi olan odur ki, neft bazarı yaxşı təchiz olunur. Qiymətlər nisbətən aşağıdır, qlobal tələb azalır, təklif isə artır”. ABŞ maliyyə naziri deyir ki, bu, Rusiyaya qarşı daha fəal hərəkətə keçməyə imkan yaradır, çünki neft satışından əldə olunan gəlir Rusiya büdcəsinin kritik bir hissəsidir.

KİV yazır ki, sanksiya modellərindən birinin İran neftinə tətbiq edilən məhdudiyyətlərə bənzər məhdudiyyətlər olduğu güman edilir. Lakin bu halda Rusiya neftinin Hindistan, Çin və hətta bəzi Aİ ölkələri kimi iri alıcıları məhdudiyyətlərə məruz qalacaq. Bundan əlavə, bu, ABŞ-ın ikili təyinatlı malların Rusiyaya ixracının qarşısını almaq üçün yardım almağa ümid etdiyi ölkələrlə danışıqları çətinləşdirə bilər. Bir sözlə, belə bir model Vaşinqtonun həm rəqibləri, həm də tərəfdaşları ilə gərginliyini artıra bilər.

Ancaq ABŞ prezidentinin milli təhlükəsizlik üzrə köməkçisi Ceyk Sallivan deyir ki, Bayden hökuməti səlahiyyətlərinin bitməsinə qədər Rusiya hərbi maşınına zərbə vurmaq üçün yeni sanksiyalar tətbiq etməyə vaxt tapacağına güman edir. Buna cavab olaraq Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov əmin edir ki, Rusiya neft sənayesinə qarşı sanksiyaların nəticələrini minimuma endirmək üçün lazım olan hər şeyi edəcək. Onun sözlərinə görə, Rusiya neftinə məhdudiyyətlərin sərtləşdirilməsi dünya enerji bazarlarının sabitliyi üçün ciddi risklər daşıyır.

*SE LAY*
*XQ*

# Suriya dinc həyata qayıdır

## *Ərdoğan İslam dünyasını bu ölkəyə dəstək verməyə çağırdı*



**Suriyanın yeni hakimiyyəti ölkədə vəziyyəti sabitləşdirmək üçün mühüm addımlar atır. Bu addımlar əsasən ölkədə ictimai-siyasi sabitlik yaradılmasını, ordu quruculuğunu, sosial-iqtisadi vəziyyətin normallaşdırılmasını əhatə edir. Təkcə daxili deyil, xarici siyasət sahəsində də ciddi təşəbbüslər irəli sürülməkdədir.**

Dünən Suriya müvəqqəti hökumətinin xarici işlər naziri Əsəd Həsən əl-Şibani ölkəsinin regionun ərəb ölkələri ilə fəal əməkdaşlıq qurmaq niyyətində olduğunu açıqlayıb. “Anadolu”nun məlumatına görə, əl-Şibani X platformasındakı paylaşımında əlaqələrin normallaşdırılması üçün Türkiyənin xarici işlər naziri Hakan Fidan, eləcə də Küveyt, Bəhreyn və Livanın xarici işlər nazirləri ilə telefon danışığı apardığını bildirib.

O, Qətər və Liviyadan olan nazirlərlə də söhbətlər etdiyini, Suriyanın bu ərəb ölkələri ilə dərin əlaqələr yaratmasının böyük önəm daşıdığını vurğulayıb. Əl-Şibani qeyd edib ki, yaxın gələcəkdə ərəb ölkələri ilə bütün sahələrdə fəal əməkdaşlıq ediləcək, Suriya xalqının ümid və gözləntilərinin reallaşdırılması üçün qonşu dövlətlərlə əməkdaşlıq gücləndiriləcək.

Suriyada yeni hakimiyyətin möhkəmlənməsi, eləcə də vəziyyətin sabitləşməsi üçün böyük dəstək göstərən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da ölkənin gələcəyinə ümidlə baxdığını bildirib. “Suriya xalqı öz ölkəsini kütləvi qatillər iclasının pəncəsindən azad etdi. Suriyalılar ilə bütün etnik, konfessional və dini qruplarla birlikdə gələcəklərini özləri müəyyən edəcəkləri yola qədəm qoyublar”, – deyə dövlət başçısı bildirib.

Prezident Ərdoğan ərəb və İslam dünyası ölkələrini “başqa dövlətlərə nümunə olmağa, Suriyanın yenidən qurulmasına rəhbərlik etməyə” çağırıb. O, Türkiyənin də 13 ildən bəri tərk etmədiyi suriyalı qardaş-bacılara hərtərəfli dəstəyini davam etdirəcəyini söyləyib.

Türkiyə lideri ölkəsinin PKK terror təşkilatının fəaliyyətinə son qoymaqda qətiyyətli olduğunu bir daha təsdiqləyib: “Bizimlə kürd qardaşlarımız arasında qanlı divar hörməyə çalışan PKK terror təşkilatını məhv edəcəyik. Qarşıdakı dövrdə dövlətimizin sərəncamında olan bütün vasitələrdən istifadə edərək öz məqsədimizə - terrorsuz Türkiyəyə nail olacağıq”.

Türkiyənin Milli Müdafiə Nazirliyi son günlərdə Suriyada və Şimali İraqda 20-dən çox terrorçunun zərərsizləşdirildiyini açıqlayıb: “Türkiyə Silahlı Qüvvələri Suriyanın şimalında “Fərat qalxanı” və “Sülh çeşməsi” əməliyyatları zonasında hücuma hazırlaşan 20 YPG terrorçusunu (PKK-nın Suriya qanadı) və İraqın şimalındakı “Pençe-Kilit” əməliyyatı zonasında isə bir PKK terrorçusunu zərərsizləşdirib”.

Dünən Suriya Milli Ordusu qüvvələrinin də PKK/YPG terror təşkilatının yaraqlılarına qarşı mübarizəni davam etdirdiyi barədə məlumat yayılıb. Bildirilib ki, dekabrın 9-da “Azadlıq şəfəqi” əməliyyatı çərçivəsində Mənbici terrorçulardan azad edən qüvvələr şəhərin cənub-şərqində yerləşən Tişrin bəndi ərazisində PKK/YPG silahlılarını zərərsizləşdirmək üçün fəaliyyətini davam etdirir.

Yeni hakimiyyətin ölkədə sabitlik yaratmaq üçün çalışdığı bir vaxtda sabiq dövlət başçısı Bəşər Əsəd tərəfdarları etiraz aksiyalarına başlayıblar. Bu aksiyalarda əsasən ələvilər fəallıq göstəririlər. Son məlumatlara görə, Suriyanın Tartus, Latakiya, Cəblə və Homs şəhərlərində yaşayan dini azlığın – ələvilərin nümayəndələri hüquq-mühafizə orqanlarının əməkdaşlarına hücumlarla müşayiət olunan etiraz aksiyaları keçiriblər. Tartus limanında sakitliyi bərpa etmək üçün cəlb olunmuş bir qrup polis əməkdaşı ələvilər tərəfindən pusquya salınaraq amansızcasına qətlə yetirilib.

Hakimiyyət buna cavab olaraq ərazidə komendant saatı elan edib və keçmiş prezident Bəşər Əsəd tərəfdarlarını iğtişaşları qızışdırmaqda ittiham edib. Yeni hakimiyyətin Hərbi Əməliyyatlar Departamentindən verilən məlumata görə, xüsusi rejim axşamdan başlayaraq gecə boyu davam edəcək.

Daxili işlər naziri Məhəmməd Əbdürrəhman Tartus şəhəri ətrafında 14 polis əməkdaşının öldürüldüyünü təsdiqləyib. SANA agentliyinin məlumatına görə, onlar Əsəd tərəfdarı olan keçmiş hərbçilər tərəfindən pusquya salınıblar.

Ölkə əhalisi isə Bəşər Əsəd rejiminin devrilməsindən sonra Suriya xalqının rahat nəfəs aldığını bildirir. Suriyalı xristian ana Mehe son 13 ilin bütün suriyalılar üçün çox çətin olduğunu vurğulayıb. Müharibə, bombardmanlar, terror, qorxu, ehtiyac və çatışmazlıqlar, digər hadisələr insanların gələcəyə inamını xeyli sarsıtmışdı. Bu dövrdə suriyalılar dağıdılmış, viran qoyulmuş ölkədən köç etməyə məcbur edilliblər. Mehe deyir ki, onun universitet məzunu olan iki oğlu Əsəd rejiminin zülmündən xilas olmaq üçün xaricə getməyə məcbur olublar. Onlardan biri həyatını rejimin hədələrindən qorumaq üçün İraqa gedib. İkinci oğlu da, beləcə, ölkəni tərk edib. O, 13 ildir ki, Hələbdəki evlərində əri ilə birlikdə yaşayır. Bu illər ərzində ana övladlarını xatırladan fotoşəkillərlə yaşayıb, onlarla təsəlli tapıb.

İndi ölkədə 61 il davam edən Bəəs rejiminin devrilməsi ailədə oğullarına qovuşmaq ümidi yaradıb. Mehe və əri övladlarının vətənə qayıtmasını səbirsizliklə gözləyirlər.

Bu gün onun ailəsi, eləcə də Suriyanın bütün xristian əhalisi Milad və Yeni il bayramlarını rahatlıqla, azad şəkildə qeyd edirlər. Bunun üçün onlar evlərində yeni başlanğıcı simvolizə edən yolka ağacı bəzəyir, ölkənin xoşbəxt gələcəyinin qurulması üçün dualar edirlər.

Suriyalı qaçqınların evlərinə qayıdışı da davam edir. “TRT Haber”in verdiyi məlumata görə, son 15 gündən artıq müddətdə 30 mindən çox suriyalı Türkiyədən öz ölkələrinə qayıdıb. Ümumilikdə 2017-ci ildən etibarən 764 minə qədər suriyalının könüllü şəkildə ölkəsinə qayıtdığı bildirilir.

*Paşa ƏMİRCANOV*
*XQ*

**Seçkilər kollegiyası tərəfindən prezident seçilən Mixeil Kavelaşvili dekabrın 29-da Parlament sarayında and içəcək. Kavelaşvili dekabrın 14-də Gürcüstanın prezidenti seçilib. Seçki Amerika modeli üzrə keçirilib və o, Seçicilər Kollegiyasında 300 səsdən 224-nü toplayıb. Müxalifət isə seçkilərdə iştirak etməyib.**

Parlamentin mətbuat xidmətindən verilən məlumata görə, andiçmə mərasimində Seçicilər Kollegiyasının üzvləri, hökumət, konstitusiya qurumlarının nümayəndələri və prezidentin ailə üzvləri iştirak edəcəklər. Bildirilib ki, andiçmə günü təhlükəsizlik məsələlərinə xüsusi önəm veriləcək. Parlament sarayında sarı təhlükəsizlik səviyyəsi qüvvədə olacaq. Ziyarətçilərin saraya girişi məhdudlaşdırılacaq.

Kavelaşvilinin andiçmədən sonra öz vəzifəsini yerinə yetirmək üçün Tbilisinin mərkəzindəki Orbeliani sarayına gedəcəyi əvvəl Gürcüstan parlamentinin sədr müavini Nino Tsilosani deyib. O qeyd edib ki, “İmedi” telekanalı Tbilisidəki etiraz aksiyalarının təşkilatçıları – “Daitov” (“Yanında qal”) və “Caçvi” (“Zəncir”) barədə reportaj hazırlayıb. “Reportajda amerikalı milyarder Corc Soros tərəfindən maliyyələşdirilən Açıq Cəmiyyət Fondunun binasında təşkilatçılar və fəalların görüşləri keçirilir. Ofisdəki fəallara lazımi simvollar - Gürcüstan, Aİ, ABŞ bayraqları, vərəqələr və plakatlar verilir. Bundan əvvəl rəsmi Tbilisi Soros Açıq Cəmiyyət Fondunu Gürcüstana

# Qərb Gürcüstanda “azlığ”ı “çoxluğ”un üstünə qaldırıb

## *Müxalifətin eks-prezidenti dəstəkləməsi isə cinayətə aparır*



isə məlum deyil. Çünki eks-prezident Salome Zurabişvili prezident iqamətgahını tərk etməkdən imtina edir. O iddia edir ki, ölkə rəhbərliyi yeni parlament seçkiləri ilə dəyişənə qədər, hökumətin yeganə legitim nümayəndəsidir. Gürcüstan müxalifəti də onu dəstəklədiyini bildirir. Onlar bazar günü Mixeil Kavelaşvilinin andiçmə mərasimindən sonra Orbelianidəki prezident iqamətgahında qalacaqlar.

“Güclü Gürcüstan” koalisiyasının lideri Anna Dolidze prezident və müxalifət arasında məsləhətləşmələrin olduğunu bildirib. Onun sözlərinə görə, müxalifət Salome Zurabişviliyə dekabrın 29-dan sonra sarayda qalmağı təklif edib: “Gürcüstan prezidenti ilə baryeri keçən siyasi partiyalar danışıqlar aparır. Gürcüstanda seçkilərin təşkili və yeni seçkilərin hansı şəraitdə keçirilə biləcəyi ilə bağlı sənədə baxılır. Bizim əsas tələbimiz, təbii ki, yeni seçkilər və siyasi məhbusların azadlığa buraxılmasıdır. Bundan əlavə, mən Gürcüstan prezidentinə müstəqillik uğrunda mübarizəsində hərtərəfli dəstək təklif etdim. Biz dekabrın 29-dan sonra sarayda qalmağa və onu Gürcüstanın qanuni prezidentinin yerləşəcəyi yeganə yer elan etməyə hazırıq. Bu, legitim, ədalətli və qeyri-zorakı olacaq dəstək formasıdır”.

Bu təşəbbüsü “Dəyişiklik üçün Koalisiya”nın lideri Nika Qvaramiya da dəstəkləyib: “Prezidentin dəstəyi çox geniş olacaq. Bu, Annanın təklifi idi və mən onu tam dəstəkləyirəm.”

Hakim “Gürcü Arzusu” partiyası müxalifət liderlərinin niyyətlərini “cinayətkarlıq” adlandırıb. Bu barədə Gürcüstan parlamentinin sədri Şalva Papuaşvili deyib: “Sivil dünyada heç kimin kreslodan belə yapışdığını xatırlamıram, xüsusən də cinayətkarcasına. Biz hədə-qorxu gəlmirik, sadəcə olaraq, deyirik ki, əgər eks-prezident Salome Zurabişvili dövlət qurumunda qalsa və cinayət törətsə, xüsusən də başqası ilə qrup halında olsa, o zaman cəzalandırılacaq”.

O qeyd edib ki, oktyabrın 26-da ölkədə keçirilən parlament seçkilərində 2 milyondan çox vətəndaş iştirak edib və 1 milyon 120 min seçici “Gürcü Arzusu”na səs verib və bununla da ölkəni idarə etməyi ona tapşırıb. Gəlin, bunu unutmayaq. Hər hansı absurd planlar quran hər kəs bu barədə düşünməlidir”.

Hakim “Gürcü Arzusu” partiyasından olan deputat Levan Maçavariani isə bildirib ki, Gürcüstanın yeni seçilmiş prezidenti Mixeil Kavelaşvili heç vaxt, heç bir xarici qüvvənin təsirinə düşə bilməyən bir şəxsdir: “Kavelaşvilinin andiçmə günü noyabrın 28-dən bəri parlament binası qarşısında keçirilən etiraz aksiyalarından daha çox adam olacaq. Gürcü xalqı Yeni ili Salome Zurabişvilisiz qarşılayacaq”.

Gürcüstandakı etiraz aksiyalarının arxasında amerikalı milyarder Corc Sorosun fondu dayanır. Bunu bir neçə gün Avropa İttifaqına üzv olmaq üçün namizəd statusunun verilməsinə qarşı aparılan kampaniyada birbaşa iştirakda ittiham etmişdi”, – o deyib.

Gürcüstanda Soros Açıq Cəmiyyət Fondundan başqa, Qərb ölkələrinin təsir agentləri şəbəkələrinin formalaşdırılması, maliyyələşdirilməsi ilə bağlı ABŞ Milli Demokratiya Fondu (NED), Milli Demokratiya İnstitutu (NDI), Beynəlxalq Respublikaçılar İnstitutu və digər bu kimi təsisatların əlaqələndiricisi funksiyalarını yerinə yetirən onlarla təşkilat var. Onların arasında “Beynəlxalq şəffaflıq – Gürcüstan”, “Gürcüstanın demokratik təşəbbüsü”, “Gürcüstan hüquqları”, eləcə də “Açıq Cəmiyyət İnstitutu” xüsusilə seçilir.

Onlar müxtəlif yollarla ayrılan vəsaitlərin, qeyri-qanuni formada, vergi nəzarətindən yayındırılaraq, Gürcüstanın və Azərbaycan da daxil olmaqla, bir sıra ölkələrin QHT-lərinə, media resurslarına və siyasi partiyalarına ötürülməsi, nüfuz müvəkkilləri şəbəkələrinin genişləndirilməsi “missiyası”nı həyata keçirirlər. Hazırda Gürcüstanda yalnız xaricdən ötürülən vəsaitlər hesabına “fəaliyyət” göstərən yüzlərlə qeyri-hökumət təşkilatı var. Bu QHT-lər, təkcə siyasi proseslərə müdaxilə etmir, bütövlükdə Gürcüstan cəmiyyətinin dayaqlarını sarsıdırlar.

Son dövrlərdə bir çox ölkələrdə kütləvi iğtişaşlar, xaos və sabitliyin pozulması ilə nəticələnən proseslərin kökünü araşdıranda yenə də hər daşın altından ABŞ-nin Milli Demokratiya Fondu (NED) adlanan təşkilatın çıxdığına şahid oluruq. Politoloq Ramiz Alıyev mətbuata açıqlamasında bu məsələlərə toxunub. O bildirib ki, çirkli pulların, qeyri-şəffaf qrantların axdığı Gürcüstanda qaranlıq, təhlükəli layihələr həyata keçirilir. Hər bir hökumətin haqqı var ki, ölkəyə daxil olan vəsaitlərin mənbəyi və məqsədləri barədə məlumatlara malik olsun: “Amma Gürcüstandakı xarici fondlar, QHT-lər, media resursları böyük maliyyə tutumlu layihələrlə bağlı hökumətə, ictimaiyyətə heç bir hesabat vermirlər. Bu da İ. Kobaxidze hökumətini narahat edir. “Xarici agentlər haqqında” qanunun qəbulu da özbaşınalığın qarşısını almağa xidmət edir”.

Qərb Gürcüstandakı fondlarının vasitəsilə təkcə gürcü iqtidarına deyil, Azərbaycan hökumətinə də təsir etməyə çalışır. Azərbaycanda fəaliyyət göstərən bəzi QHT-lər, media resursları məhz Tbilisidəki fondlar tərəfindən maliyyələşdirilir və təlimatlandırılır. Qərb Gürcüstan üzərindən Azərbaycandakı şəbəkəsinin qalıqlarını qoruyub saxlamağa çalışır. Buna görə də ciddi cəhdlə “Abzas Media”, “Toplum TV” kimi layihələri müdafiə edir, qanunları pozduqlarına görə həbs olunmuş şəxslərin azadlığa buraxılmasına nail olmağa çalışır. Amma onların bu cəhdləri fayda verməyəcək”.

*P.ƏFƏNDİYEV*
*XQ*

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti

*tabeliyindəki idarələrə müxtəlif növ kabellərin satın alınması məqsədilə*

MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər.

Müraciət üçün son müddət 2025-ci il yanvarın 9-u saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir). Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu- (012) 404-37-00, daxili:1177

Ünvan-AZ1003, Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 287 (30691) 27 dekabr 2024-cü il, cümə

# Alimlərimizin xarici elmi nəşrlərdə fəallığı

**Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyəti "AMEA əməkdaşlarına impakt faktorlu jurnallarda nəşr olunan məqalələrə görə mükafatların verilməsi haqqında" qərar qəbul edib.**




Qərara əsasən, AMEA əməkdaşları üçün nüfuzlu elmmetrik bazalarda indekslənən nəşrlərdə dərc olunmuş elmi işlərə görə, eləcə də il ərzində ən çox məqalə nəşr etdirilən ilk 3 yer üzrə mükafatlar təsis edilib. Elmi müəssisə və təşkilat rəhbərlərinə müvafiq materialların ildə 2 dəfə AMEA Rəyasət Heyəti Aparatının Elm və təhsil şöbəsinə təqdim edilməsi tapşırılıb.

AMEA-da çalışan alim və mütəxəssislərin ilin birinci yarısında nüfuzlu elmmetrik bazalarda indekslənən elmi jurnallarda 12, ilin ikinci yarısında isə 47 məqaləsi çapdan çıxıb. Qeyd olunan məqalələr Elm və təhsil, "Elektron Akademiya" şöbələrində yoxlanılıb və təsdiq edilib.

Ən çox – 7 məqalə ilə AMEA-nın Mərkəzi Elmi Kitabxanasının direktoru, texnika elmləri doktoru, dosent Hüseyn Hüseynov olub.

AMEA nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzinin baş direktoru Qurban Yetirmişli, Arxeologiya və Antropologiya İnstitutunun aparıcı elmi işçisi dosent Dmitriy Kriçenko və Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun elmi katibi dosent Zülfiyyə İsmayıl II yerdə qərarlaşıblar. III yerdə isə Arxeologiya və Antropologiya İnstitutunun şöbə müdiri dosent Bəxtiyar Cəlilov olub.

**XQ**


# OXUCULARIN NƏZƏRİNƏ!

## "Xalq qəzeti"

*2025-ci il üçün abunə yazılışı kampaniyasını davam etdirir!*




Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.

Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.

1. "Azərmətbuatyayımı" ASC (012)-440-16-26.
2. "Azərpoçt" MMC (012)-598-49-55, (051)-225-02-13.
3. "Qaya" firması (012)-566-77-80, (050)-214-40-53.
4. "SƏMA-M" MMC (012)-594-02-52, (050)-333-69-69.
5. "ZİYA" LTD (012)-497-76-96, (050)-306-77-44.
6. "PRESSİNFORM" MMC (012)-598-49-52, (050)-456-08-35.

1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat səksən qəpik) manat.

Hörmətli abunəçilər!
*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


## Hava

# Yağıntılı və dumanlı

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, dekabrın 27-də Bakıda və Abşeron yarımadasında bəzi yerlərdə fasilələrlə yağış yağacağı gözlənilir.**



Gecə yarımadanın ayrı-ayrı yerlərində intensivləşəcəyi ehtimalı var. Cənub-şərq küləyi əsəcək. Gecə 7-9°, gündüz 9-11° isti olacaq. Atmosfer təzyiqi 767 mm civə sütunu, nisbi rütubət 70-80 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcəyi, lakin gecə və səhər bəzi şərq rayonlarında, axşam isə əksər rayonlarda arabir yağıntılı olacağı, dağlıq rayonlarda qar yağacağı gözlənilir.

Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 2-7, gündüz 8-12 dərəcə isti, dağlarda gecə 2 dərəcə şaxtadan 3 dərəcəyədək isti, gündüz 4-9 dərəcə isti olacaq.

***Q.QASIMOV***
***XQ***

# İnsanabənzər robot hazırlanacaq

**Amerikanın "OpenAI" şirkəti insanabənzər robot yaradacaq. Bu barədə "The Information" məlumat yayıb. Artıq "ChatGPT" chatbotunun yaradıcıları şirkət daxilində insanabənzər robotun yaradılması imkanlarını müzakirə ediblər. Bu barədə jurnalistlərə şirkət daxilindəki iki mənbə məlumat verib.**



Bildirilib ki, şirkət insanabənzər robotların iki konsepsiyasını nəzərdən keçirir. Birinciyə görə, ağıllı maşın adi və monoton əməliyyatları yerinə yetirəcək. İkinciyə görə, robot ev işlərində insana kömək edəcək. O, "düşünməyi" bacaracaq, stola baxanda, harada dağınıqlıq görsə, onu sistemli şəkildə təmizləyəcək. Təbii ki, o həm də qəhvə hazırlaya, əşyaları bir yerdən başqa yerə daşıya, yemək təqdim edə və ya qabları qabyuyan maşından çıxara biləcək.

Qeyd edək ki, "OpenAI" şirkəti robot texnikası sahəsində bir neçə startapa sərmayə qoyub. Belə ki, fevral ayında Sem Altmanın şirkəti bu işlərə 675 milyon dollar cəlb edən Kaliforniyanın "Fiqur" şirkətinin maliyyələşdirilməsini dəstəkləyib. Onların "Figure 02" robotu "OpenAI"nin süni intellekt modelinə əsaslanır. Şirkət, həmçinin iki təkərli EVE robotunu hazırlayan Norveç startapı 1X-ə də sərmayə qoyub.

Oktyabr ayında isə "Tesla" özünün "Optimus" robotunun detallarını açıqlayıb. Şirkətin rəhbəri İlon Mask bildirib ki, humanoidlər evi təmizləyə, iti gəzdirə, uşaqlarla oynaya və digər bacarıqlara sahib olacaq. Robotun qiyməti 20-30 min dollar təşkil edəcək.

**PÜNHAN**
**XQ**

## İdman

# Fatih Terim Səudiyyə Ərəbistanı klubunda

**Türkiyəli tanınmış mütəxəssis Fatih Terim yenidən işinin başına qayıdır.**



Səudiyyə Ərəbistanının "Əş-Şəbab" klubu 71 yaşlı təcrübəli çalışdırıcını baş məşqçi postuna gətirmək istəyir.

Tanınmış insayder Nikola Şkiranın sözlərinə görə, "imperator" ləqəbli mütəxəssis Səudiyyə Ərəbistanı təmsilçisi ilə danışıqlar aparır. Mənbənin sözlərinə görə, tərəflər iki illik müqavilə bağlamaq üzrədir.

Türkiyə mətbuatının yaydığı xəbərlərdə isə ərəblər F.Terimə 6 ay+1 illik müqavilə təklif edib.

Xatırladaq ki, Fatih Terim daha çox "Qalatasaray" və Türkiyə millisindəki işi ilə tanınır. O, son olaraq Yunanıstanın "Panatinaikos" komandasında işləyib.




# "Turan-Tovuz" cərimələnib

**AFFA İntizam Komitəsi "Turan Tovuz" klubunu cərimələyib.**

Misli Premyer Liqasının XVIII turunda "Neftçi" oyunda Tovuz təmsilçisinin 4 futbolçusu sarı vərəqə aldığına görə klub 700 manat ziyana düşüb.

Qarşılaşma 1:1 hesablı heç-heçə ilə yekunlaşıb.

# 3 futbolçu "Beşiktaş"dan gedir



**Türkiyənin "Beşiktaş" komandası 3 futbolçusu ilə yollarını ayıracaq.**

İstanbul təmsilçisi yarımmüdafiəçilər Jan Onana, Aleks Oksleyd-Çemberleyn və müdafiəçi Artur Masuaku ilə vidalaşacaq. A.Masuaku Yunanıstan klublarından birinə keçməyə yaxındır. J.Onananın məqsədi keçmiş komandası olan Fransa təmsilçisi "Lans"a qayıtmaqdır. Aleks Oksleyd–Çemberleyn isə İngiltərə və Şotlandiyadan təkliflər gözləyir.

***S.FİDAN***
***XQ***

## Sağlamlıq

# Acı qidanın şirinliyi – uzun ömür

**Çin alimləri uzun illərdən bəri səsləndirilən belə bir ehtimalı araşdırmalarla dəqiqləşdirib bu nəticəyə gəliblər ki, həqiqətən, təzə, acı bibər, yaxud toz halında olan qara, qırmızı istiot yeyənlər uzun ömür yaşayırlar.**

Onlar bu məqsədlə tədqiqata başlayıblar. Araşdırma zamanı – 7 il ərzində 30–79 yaşlı yarım milyon çinli müşahidə edilib. Könüllülər iki qrupa bölünüb. Birinci qrupda olanlar həftədə 3 dəfə ədviyyatlı, daha çox acılı yemək yeyiblər. Digər qrupdakılar isə ədviyyatlı yeməklər istisna olmaqla hər növ qida qəbul ediblər. Nəticədə aydın olub ki, birinci qrupda ölüm ikinci qrupda qidalananlara nisbətən 14 faiz azdır.

Acı bibərdən həm kulinariyada, həm də bəzi dərmanların hazırlanmasında istifadə edilir. Tərkibindəki A, C, E, K vitaminləri, kalsium, dəmir, maqnezium, fosfor, kalium kimi minerallar immun sistemini möhkəmləndirir, dərinin xarici mühitdən qorunmasına səbəb olur. Bibər beyin qan dövranını normallaşdırır, Alsheymer xəstəliyinin əmələgəlmə riskini ləngidir, qanın laxtalanmasını azaltmaqla trombun əmələ gəlməsinin qarşısını alır.

Məsələ burasındadır ki, acı bibərdə, həm də xüsusi bir maddə – kapsaisin var. Bibərə yandırıcı təsir verən də budur. Kapsaisin endorfinlərin (sevinc, xoşbəxtlik hormonları) istehsalını artırır. Ona görə də zamanla ədviyyatlı, acılı yeməyə alışmaq mümkündür.

Alimlər, kapsaisinin xərçəng hüceyrələrini öldürdüyünü bildirirlər. Maddə mitoxondriləri (yanacaq çəni kimi fəaliyyət göstərən üzvi birləşmələr) məhv edir. Bununla da, kapsaisin xərçəng hüceyrələrini enerjidən məhrum edir, lakin sağlam hüceyrələrə zərər vermir. Sağlam və çox yaşamağın da sirri budur.

***Z.HÜSEYNLİ***
***XQ***

# ALLAH RƏHMƏT ELƏSİN

Səhiyyə İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Elnara Muradova və aparat işçiləri komitənin maliyyə şöbəsinin mütəxəssisi İmmi Şükürovaya anası

**ZİBA QASIMOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Azərişıq" ASC-nin rəhbərliyi və kollektivi Rəqəmsal Şəbəkələrin Baş İdarəetmə Mərkəzinin direktor müavini Vüsal Əsgərova anası

**SƏMAYƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Akif Cabbarlı, Hüseyn Əhmədov və Mübariz Süleymanlı yaxın dostları Hamlet İsmayılova oğlu

**İSMAYILIN**

Qazaxıstanın Aktau şəhəri yaxınlığında təyyarə qəzasında faciəli surətdə həlak olmasından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ağcabədi rayonundan Rafil Hüseynov

**FƏRHAD QƏRİBOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Ağcabədi rayonundan Rafil Hüseynov Laçın Rayon İcra Hakimiyyətinin başçısı Aqil Nəzərliyə anası

**ŞƏKİL XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

***✓ 2023-cü ildə Bakı Dövlət Rabitə və Nəqliyyat kolleci tərəfindən Cabbarlı Fəxrəddin Famil oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.***


**BAŞ REDAKTOR**
**ƏFLATUN AMAŞOV**

**TELEFONLAR:**
**Reklam və elanlar: 493-82-21**
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

**ÜNVANIMIZ:**
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4001
SİFARİŞ 2986
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV

Çapa imzalanmışdır 00:00